Eşli Vens

# İLON MASK

## TESLA, SPACEX VƏ GƏLƏCƏYƏ DOĞRU YOL



ОЛИМП БИЗНЕС

**Eşli Vens**

# İlon Mask: Tesla, Space X və gələcəyə doğru yol

Mətnin tərcümə hüququ Bakı İdarəetmə və Texnologiya kollecinə məxsusdur.

Rus dilindən tərcümə edənlər:

1. Nəsibova Rüxsarə Mirpaşa qızı
2. Nəcəfova Nüşabə Sabir qızı
3. İbrahimova Mehparə Cəfər qızı
4. Bayramova Elnarə Əlisa qızı
5. Səfərova Arzu Səhhət qızı
6. Məmmədova Təranə Oruc qızı

Redaktor: Hüseynova Kəmalə Əziz qızı

## Annotasiya

"İlon Mask: Tesla, Space X və gələcəyə doğru yol" kitabında müəllif texnologiya üzrə jurnalist Eşli Vens ilk dəfə olaraq silikon vadisinin ən cəsur iş adamının həyata azad və dolğun baxışlarını və nailiyyətlərini təqdim edir.

Kitab Maskın özündən, ailə üzvlərindən və dostlarından alınan eksklyuziv müsahibələr əsasında yazılıb və Maskın qalmaqallı həyatını, Cənubi Afrikada keçən uşaqlığından başlayaraq, qlobal biznesin yüksəkliklərində olduğu indiki dövrədək əhatə edir. Kitab liderlik arzusunda olanları, yeni texnologiyaların inkişafını izləyənləri və səviyyəli bioqrafik ədəbiyyattı sevənləri maraqlandıra bilər.

# Mündəricat


Oxuyucuya ....5

1. İlonun dünyası ....7

2. Afrika ....26

3. Kanada ....44

4. İlonun ilk startapı ....53

5. Pay Palın xaç atası ....68

6. Kosmosda siçanlar ....97

# Eşli Vlens

# İlon Mask: Tesla,  SpaceX
# və ya gələcəyə doğru yol

© 2015 by Ashlee  VANCE

© Azərbaycan dilinə tərcümə,  Bakı İdarəetmə Və Texnologiya Kolleci,  2017

***

*Anama və atama təşəkkürlə*

# Oxuyucuya

İlon Mask kimdir? Öz tərəfdarlarını mübtəla etmək üçün tüfeyliləşdirən saxtakar məsih mi? Fundamental fizika təhsili olan istedadlı mühəndis və proqramçı mı? Kimlərinsə milyardlarını itirdikləri yerdə qazanc əldə edən xəyal alverçisi mi? Ulduzu alışıb parlayan və tez də sönən nuvoriş-vizioner mi? Əhəmiyyəli işlər görən bəşəriyyət xilaskarı mı?

Sözün düzünü desəm, bilmirəm.

Artıq bir ildən çoxdur ki, mənim maşınım Teslanın S-Modelidi. Hər ay onun yeni opsiya və imkanları meydana çıxdıqca, növbəti proqram təminatı yeniləşdikdən sonra, mən öyrənirəm ki, sən demə, mənim elektromobilim smartfonumda görüş cədvəlləri ilə yol hərəkətini sinxonlaşdırmağı, yeraltı dayanacağa yaxınlaşarkən , klirensi avtomatik yüksəltməyi bacarır və s. Avtomobil istehsalında heç bir təcrübəsi olmayan adam mükəmməl avtomobili necə yarada bilər? Gərək ki, bu insan, hələ gəncliyində planetin gələcəyini təbii yanacaqsız görə bilən, bir az da sərsəm idealist- mühəndis olmalı bəlkə?

Mənim bəxtim dostlarım və tanışlarım arasında gələcəyə diqqət kəsilən, özünün və müəssisələrinin işlərini on il əvvələ planlaşdıran və reallaşdıracaq qabiliyyəti olan insanlar sarıdan gətirmişdi . Belə insanlar olduqca azdı , onların hər biri öz ətrafında həmin o "reallığın təhrif edilməsinə" səbəb olur, onun da sayəsində , ətrafdakılar dünyanı onların gözü ilə görməyi öyrənir, onun terminologiyasından istifadə edir və məqsədlərin həyata keçməsinə böyük əmək və yatırım qoyurlar . Düşünmürəm ki, gələcəklə yaşamağı kiməsə öyrətmək olar, lakin SKOLKOVO tələbələrinin belə insanlarla hər görüşünün nəticəsiz qalmadığının şahidiyəm. Öz şəxsi təcrübəmə əsaslanaraq isə deyə bilərəm ki, kim ki, gələcəyini planlayan insanlarla ünsiyyətdə olur, onların daim dəyişəcəkləri labüddür.

Bu kitabı oxumaq nəyə görə belə vacibdir. Kitabın oxunuşuna bir neçə gününüzü həsr etsəniz, siz, İlon Maskı, onun həyatını və kompaniyalarının

həyatını öyrənəcək, və beləliklə də, özünüzdə, əhatənizdə , plan və prioritetlərinizdə nəyisə dəyişmək istəyəcəksiniz. Mən inanıram ki, Maskın nümunəsi bizim sahibkarları ruhlandıracaq, göstərəcək ki, qələbə məğlubiyyətsiz, yüksəliş və enmə olmadan, uğurlu startlar isə, böyük çətinliklər bahasına əmələ gəlmədən olmur.

Ümid edirəm ki, bir gün Rusiyalı İlon Maskın həyatı haqqında kitab dünya bestselleri olacaq.

*Aleksey Komissarov,*
*Moskva SKOLKOVO idarəetmə məktəbi*
*sahibkarlığın liderliyi kafedrasının rəhbəri.*

# 1. İlonun dünyası

- Mən dəliyə oxşayıram?

Silikon vadisindəki bahalı balıq restoranında uzun çəkən şam yeməyimizin sonuna yaxın İlon Mask belə bir sual verdi. Mən restorana birinci gəldim və Maskın onsuz da ləngiyəcəyini düşünərək, cin-tonik sifariş verib

masanın arxasında özümə yer elədim. Mask təxminən 15 dəqiqə tez gəldi:dəri ayaqqabı, dəbdə olan cins şalvar və dama-dama köynəkdə. Onun boyu təxminən altı fut və bir düymdü[1] (1, 85 metrə yaxın), ancaq onu tanıyanlardan soruşsanız, hər kəs deyəcək ki, o cox hündür və iri görünür. O, enli kürəkli və cüssəlidi. Bu cür bədən quruluşu ilə o, yəgin ki, gözəgəlimli kişi olduğunu öyünərək nümayiş etdirəcək, deyə düşünürdüm, Ancaq, əksinə, biraz utancaq olduğuna görə, Maska yeni şəraitə alışmaq və özünü bir az rahatlatmaq üçün, ona bir qədər vaxt lazım gəldi.

Mask müəyyən məsələ ətrafında razılığa gəlmək üçün məni şam yeməyinə dəvət etdi. İl yarım əvvəl mən ona deyəndə ki, onun haqqında kitab yazmaq istəyirəm, o, bunun onun planlarına daxil olmadığını bildirmişdi. Onun etirazı mənim həm heysiyyətimə toxundu, həm də coşdurdu, axı mən təslim olmağı sevmirəm. Maskın iştirakı olmadan barəsində kitab yazmaq mənimçün problem deyildi. Onun Tesla Motors və Space X kompaniyalarında çoxları vardı ki, onun haqqında mənə məlumat versin. Həm də, Maskın bəzi dostlarını da, mən , artıq tanıyırdım. Aylar ötürdü və mən iki yüzə qədər adamı sorğulayaraq, xeyli müsahibə götürmüşdüm ki, elə bu vaxt Maskdan mənə xəbər gəldi . O, mənim evimə zəng vurdu və dedi ki, hadisələr iki cür inkişaf edə bilər: ya bu layihəm mənim həyatımı çətinləşdirəcək, ya da ki , mənə kömək edəcək. Əgər mən kitabı nəşrə göndərənə qədər ona oxumağa imkan versəm və o istədiyi qeydlərini əlavə etsə, mənimlə əməkdaşlıq etməyə razıdır. Mask mənim işimə müdaxilə

[1] İMDbPro göstəricilərinə görə - beş fut və 11 düym, yəni 1. 8 m-dən yuxarı.

etməyəcəyini və , sadəcə, mətnin dəqiq olmayan, yaxud mahiyyət etibarilə , səhv olan yerlərini dəyişəcəyinə məni əmin etmək istəyirdi. Mən onun bu istəyinin hardan gəldiyini anlayırdım. Mask öz həyat sərgüzəştlərini şəxsi nəzarəti altında saxlamaq istəyirdi. O, daxilən alim idi , faktların dəyişdirilməsi onu özündən çıxara bilərdi. Artıq çapdan çıxmış kitabda buraxılan səhflər onun qəlbini illərlə gəmirəcəkdi. Mən Maskın bu fikriyləylə razılaşırdım, lakin peşəkarlığım, şəxsi təcrübəmdən çıxış edərək, çapdan qabaq ona kitabı oxumasına imkan verə bilməzdim. Maskın öz həqiqətləri var, lakin onlar

doğru olmaya bilər. Bir də ki, ən sadə suallara müfəssəl cavab verə bilməyən Maskın 45 səhifəlik qeyd və yazıların yaranması fikri mənə, elə də, qeyri-adi gəlmədi. Bununla belə, biz birlikdə şam yeməyində söhbət etməyi və bütün bunları müzakirə etməyə qərar verdik.

Söhbətimiz piarçıların müzakirəsi ilə başladı. Maskın bu şöbənin əməkdaşları ilə münasibəti alınmırdı: bax elə indi də Teslaya ictimaiyyətlə əlaqələr üzrə yeni şöbə rəhbəri lazımdı. “Dünyanın ən yaxşı piarçısı kimdir?”- bu sualı ancaq Mask verə bilərdi. Sonra söhbət ümumi tanışlardan olan Hovard Hyüz və Tesla avtomobil zavodundan getdi. Ofisiant sifariş götürmək üçün bizə yanaşanda Mask diyetasına uyğun qida istədi və üzərində mürəkkəb balığının sousu olan qızardılmış omar sifariş verdi. Danışıqlar hələ başlamamışdı, Mask isə artıq danışırdı. O, bu axşam onun içini göynədənlərlə ürəyini açdı. “Google kompaniyasının təsisçisi və icraçı direktoru Larri Peyc bəşəriyyəti məhv etməyə qadir robotlar parkı yarada bilər. “Mən, bundan həqiqətən, qorxuram”-deyir Mask. Mask Peyclə yaxın dost olduğunu və Peycin, heç də “Doktor Şər” olmadığını, xeyirxah insan kimi onu tanıdığını belə, nəzərə almırdı. Problem də , elə yerində də, qalırdı. ”Peyc təbiəti etibarilə yaxşı insandı, onun heç ağlına da gəlmir ki, maşınlar idarəetmədən çıxa bilər. Mən o qədər də nikbin insan deyiləm”- deyir Mask. – “Axı o, təsadüfən, təhlükəli bir şey də yarada bilər. ”

Elə ki, yeməyi gətirdilər, Mask dərhal onun axırına çıxdı. Daha doğrusu o, demək olar ki, yemədi, qabda nə var idi sə, hamısını bir neçə həmləyə uddu. Onu bir az da rahatlamış vəziyyətdə saxlamaq üçün, mən boşqabımdan bir neçə

iri tikə steyk verdim. Mənim planım baş tutdu, lakin bu uğurum dəqiqə yarım çəkdi. Bir –iki dişləklə ət boşqabdan yox oldu.

Maskı süni intellektlə bağlı qorxulu ssenarilərdən yayındırmaq üçün bir qədər vaxt lazım oldu. Elə ki, biz kitab məsələsinə keçdik, mənim onun haqqında kitab yazmaq istəyimi anlamağa cəhd göstərərək, Mask işin mənbəyini və mənim məramımı araşdırmağa başladı. Vəziyyəti yoluna qoyaraq, mən söhbəti öz əlimə aldım. Yığılmış adrenalinim içkiyə qarışaraq məni daha da cəsarətləndirdi. Söhbət əsnasında nədən məni öz şəxsi həyatına daxil etməli, eyni zamanda da, mənə nəzarət etməməli olduğunu ona izah etdim. Mən, qeyd və istinadlara daxili məhdudiyyətlərdən, Maskın hər şeyə nəzarətdə saxlamaq prinsipinin mənim jurnalist vicdanımın qeyri-ixtiyarı şübhə altına almış olması haqda danışırdım. (Mən tam bir saat çənə döyə bilərdim). İki saatdan sonra, Mask mənim sözümü kəsir, və "hə, yaxşı" -deyir. Mask "yox" cavabını alan və öz niyyətindən dönməyən insanlara xüsusi hörmətlə yanaşırdı. Onlarla jurnalist kitab yazmaq istəyiylə ona müraciət etmişdi, lakin, görünür mənim, onun etirazına baxmayaraq, inadkarlığım, xoşuna gəlmişdi.

Şam yeməyi xoş söhbət və Maskın zülalsız diyetasının pozulması ilə başa çatdı. Ofisiant sarı şəkər pambığından ibarət iri desertlə peyda oldu və Mask desertdən böyük parçalar qopara-qopara yeməyə başladı. İşlər artıq yoluna düşürdü. Mask kompaniyalarının rəhbərlərinə, dostlarına və ailəsinə yaxınlaşmaq üçün mənə imkan verdi. O zamanından asılı olmayaraq , ayda bir dəfə məni şam yeməyinə dəvət edəcəyini də dedi. İlk dəfə idi ki, Mask bir jurnalistə öz dünyasının gizli tərəflərini göstərməyi qərar verirdi. Yeməyə başlayandan iki saat yarım sonra, Mask əllərini masanın üstünə qoydu, ayağa qalxmaq üçün hərəkət elədi, gözlərimiz qarşılaşanda qəribə bir sualı verdi: "Mən dəliyə bənzəyirəm?" Həmin anın qəribəliyindən mənim nitqim tutuldu: həyəcanla onun nəyi nəzərdə tutduğunu və mənim necə cavab verəcəyimi düşünürdüm. Maskla uzun müddət birlikdə xeyli vaxt keçirdikdən sonra anladım ki , o, hər şeydən əvvəl, bu sualı mənə yox, özünə ünvanlamışdı. Mənim cavabımın heç bir əhəmiyyəti olmayacaqdı. Mask tələsmədən, etibar edə biləcəyimə işarə olaraq gözlərimə

baxdi və yüksək səslə mənə o sualı verdi. Bir qədər sonra, biz bir-birimizin əlini sıxdıq və Mask Tesla S-Modelinin qırmızı sedanına minib getdi.

İlon Maskın dünyası ilə tanışlıq Xotornda (Kaliforniya) Space X kompaniyasının Los-Anjeles beynəlxalq aeroportundan bir neçə mil kənarda yerləşən baş ofisindən başlamalı idi. Müştərilər Marsın iki nəhəng surətini, Maskın iş yerinin yaxınlığındakı divarda görə bilərlər. Sol tərəfdəki şəkildə Mars bu gün olduğu kimi – soyuq və səhralıq qırmızı planet kimi göstərilmişdi. Sağ tərəfdəki plakatda isə, Mars yaşıllıqlar içində itib-batan və okeanlarla əhatə olunmuşdu. Planet "qızdırılmış" və insanların yaşaması üçün uyqunlaşdırılmışdı. Mask həqiqətən bunu etmək niyyətindəydi. Kosmosun kəşfi və yaşam üçün tədqiqi onun həyatının əsas məqsədi idi. "Mən , bəşəriyyətin parlaq gələcəyi var"- fikri ilə ölmək istərdim", - deyir o . Əgər biz itkisiz enerji problemini həll edə və özünümühafizə edə bilən sivilizasiya ilə multiplanetar vəziyyət yarada bilsək – bununla da bəşəriyyətin məhvi ilə bağlı ən pis ssenarini aradan qaldıra bilərik, və , bir qədər pauza verib, davam edir : düşünürəm ki, o zaman çox yaxşı olar. "

Bəzən Mask yöndəmsiz və gülməli görünür. Məsələn, indi Maskın assistenti ona peçenye və yağlı dondurma verdi. Mask bəşəriyyətin xilasını həvəslə və səmimi müzakirə etdiyi zaman, çənəsinə qeyri-ixtiyari dondurma axır.

Maskın cəsarətlə mümkünsüzü müzakirə etmək ədası onu Silikon vadisinin "allahına" çevirmişdi: Peyc kimi, həmkarları onun barəsində dərin hörmət və sevgiylə danışırlar, hələ işə təzə başlayan sahibkarlar isə, "İlon kimi olmağ" niyyətindədilər, zamanında, bax beləcə riqqətlə Stiv Cobsu yamsıladıqlarıtək. Silikon vadisi, ayrı bir aləmdir, onun hüdudlarında Mask ziddiyyətli və birmənalı fiqur kimi qiymətləndirilirdi. Bütün bu elektromobillər, günəş batareyaları və raketlər yanlış ümidlər doğurur və nəticədə, Mask yalançı ümidlər alverçisi təsiri bağışlayır. Stiv Cobs bir kənarda əsəbi tərzdə siqaret çəkdiyi halda, Mask insanlardakı qorxu və inamsızlıq hesabına varidat toplayan Barnumun[2] elmi-

[2] Fineas Barnum (1810-1891) –XIX əsr amerika şou-biznesində öz kələkləri ilə məşhurluq qazanmış, adını daşıyan sirki yaratmış çox iri fiqurdur.

fantastik variantı təsiri bağişlayır. “Teslanın avtomobilini alın! Planeti yaman günə qoymayın!”

Bir vaxtlar mən özüm də bu düşərgəyə aid idim. Mask özünün arzuları və xoş niyyətləri ilə məni də heyrətləndirirdi – Silikon vadisinin texnoloji utopistlər klubunun tipik üzvüydüm. Ayn Rend[3] yaradıcılığının pərəstişkarlarından və mühəndis – absolyutizm nümayəndələri olan bu adamlar özlərinin yüksək məntiqli dünyalarına Həqiqət və Hökmranlıq baxımından yanaşırlar. Əgər biz onların ayaqları altında dolaşmasaq, yollarından çıxsaq, onlar bizim bütün problemlərimizi dərhal həll edərlər. Çox tez bir zamanda biz öz beynimizdəkiləri kompüterə yükləyə biləcəyik. Və bununla da iş bitəcək , biz də rahat nəfəs alacayıq, gerisini qoy kompüterin alqoritmləri həll etsin. Onların ambisiyaları bəzən ilhamlandırır, işə faydalı olur. Lakin texnoutopistlər, texnika və texnologiyanın hüdudsuz imkanları haqda etdikləri boş söhbətlər, lüzumsuz məsələlər ətrafında yersiz danışıqlarla insanı yorurlar. ” İnsanlar -zay məhsuldu, bəşəriyyət isə Kainat üçün bezdirici yükdür. Onunla müvafiq tərzdə rəftar etmək lazımdır”- bu da onların şüarı. Maskın Silikon vadisindəki tədbirlərdəki təmtəraqlı çıxışları çox vaxt mənə texnoutopistlər üçün dərslik bölmələrini xatırladırdı. Məni əsəbiləşdirirdi. Onun icad etdiyi “dünyanı xilas kompaniyası” ağıllı görünmədiyi qədər də, məni əsəbləşdirirdi.

Bununla belə 2012-ci ilin əvvəlində mənim kimi arsızlar Maskın, həqiqətən, məqsədinə nail olurduğunu etiraf etməli idilər. Bir vaxtlar onun gülüş hədəfinə çevrilən kompaniyaları görünməmiş işləri reallaşdıraraq, müvəffəqiyyət qazanırdılar. Space-X orbital yük gəmisi Beynəlxalq kosmik stansiyaya göndərilərək, sağ-salamat geri qayıtdı. Tesla Motors elə gözəl, tamamilə elektrik enerjiylə işləyən S-Modelinin sedanını icad etdi ki, avtomobil sənayesi nümayəndələrinin heyranlıqdan nəfəsləri kəsildi, Detroyt isə rüsvay oldu. Bu iki uğur Maskı biznes nəhəngləri arasında əlçatmaz yüksəkliyə qaldırdı. İki müxtəlif sahədə bu cür nailiyyətə eyni ildə hərdən Apple-ın yeni məhsulunu təqdim edən

---

[3] (1905-1982)-Amerikan yazıçısı və filosofu, obyektivizm fəlsəfi cərəyanının yaradıcısı. “Источник”və “Атлант расправил плечи”romanlarında Rend özünün yaradıcılıq qabiliyyəti və istedadı hesabına yaşayan yaradan-insan idealını üzə çıxartdı. Rendin fəlsəfəsi kollektivizmə qarşı durur.

Stiv Cobs və Rixar kinostudiyanın yeni blokbasteri iddialı ola bilərdi. Lakin Mask bununla da kifayət lənmir. O, hələ də direktorlar şurasının üzvü və Solar City-nin ən iri aksioneridi: bu hazırda birjaya çıxmağa hazırlaşan günəş enerjisi sahəsində işləyən, sürətlə inkişaf edən kampaniyadı. Mask son onillikdə raket və avtomobil istehsalına və eləcə də energetika sahələrinə əlüstü böyük sərmayə yatırmış insandı.

2012-ci ildə mən qərara gəldim ki, bu əlçatmaz Maskın kim olduğunu aydınlaşdırıb , onun haqqında “Bloomberg Businessweek”-də material yazım. Həmin vaxt Maskla əlaqələrim onun köməkçisi Meri Bet Braun vasitəsilə idi. Onun məni dəvət etdiyi məkanı mən, sonradan, “Maskın Məmləkəti” adlandırmağa başladım.

Bu Məmləkətə ilk dəfə gələn hər kəs əvvəl özünü itirir. Sizə deyirlər ki , avtomobilinizi Space X-in baş ofisinin yerləşdiyi Xotorn şəhərinin Roket-roud səmtində 1№ -li evin yanında dayanacağa qoyun və siz, ilahi, yəni Xotornda yaxşı nəsə ola bilər yəni, deyə düşünürsüz Bura, Los-Anjelesin, görünür, hələ darıxdırıcı beton korobkalar arxitekturası zamanı tikilmiş, nüfuzlu sənaye kompleksləri ətrafında yerləşən köhnə evləri, dükanları, kasıblamış qəlyanaltıları olan qəmgin rayonudur. Yəni Maskın kompaniyası burda yerləşir? Birazdan hər şeyi anlamağa başlayırsan: sahəsi 550 min kvadrat fut olan (51min m2-ə yaxın) mistik ağ bina görünür. Bu, Space X-in baş binasıdır. Və , artıq, siz Space X-in öz qapısından girərkən, bu insanın gördüyü işin böyüklüyünü müşahidə edirsiz. Mask, həqiqətən, Los- Anjelesin mərkəzində kosmik raketlər istehsal edən zavod tikib. Və bu zavod sıfırdan bir dəfəyə bir raket deyil, bir neçə raket düzəldir. Bu, birgə istifadə üçün nəhəng iş sahəsidir. Arxa tərəfdən metal seksiyaların iki yaruslu qaynaq aparatlarına daxil olan ağır platformalar, digər tərəfdə isə , ağ xalatlı texniklər radioqəbuledicilər və müxtəlif elektron aparatlar yığırlar . Digər işçilər xüsusi germetik şüşə kameralarda işləyirlər. Onlar burada raketlərin kosmik stansiyalara çatdıracaq kapsullar istehsal edirlər. Bədənlərində döymələri olan

oğlanlar başlarında bandana Van Haleni[4] dinləyir və raket mühərriklərinin ətrafına kabel çəkirlər.

Yük maşınlarına yüklənməsini gözləyən hazır raket korpusları da, elə, oradadır. Binanın başqa bir hissəsində isə raketlər ağ boya ilə rənglənəcəklərini gözləyir. Bütöv zavodu bir baxışla nəzərdən keçirmək mümkün deyil. Qəribə formalı müxtəlif maşınlar arasında daim yüzlərlə adam hərəkətdədir. Bu, Mask Məmləkətinin təkcə 1№-li korpusudur. Space-X kompaniyasının əvvəllər Boeing - 747 təyyarələri üçün füzelyaj istehsal edən Boeing zavodunun bir hissəsini təşkil edən cəmi bir neçə binası var idi. Bu binalardan birinin əyri dam örtüyü təyyarə anqarını xatırladır. O, Tesla üçün tədqiqat laboratoriyası və dizayn-studiya kimi xidmət göstərir. Sedan S-Modeli və krossover modellərinin xarici görünüşü burada işlənib hazırlanıb. Biraz kənarda yerləşən dayanacaqda isə, Tesla özünün enerji doldurma stansiyasını qurub ki, Los-Anjeles sürücüləri burada avtomobillərini pulsuz enerjiylə təmin etsinlər. Mask panorama hovuzunun ortasında Teslanın qırmızı-ağ loqotipli obeliskini qoyduğu üçün, onları tapmaq çox asandı. Maskla dizayn-studiyada baş tutan məhz ilk müsahibəm zamanı, mən onun necə danışdığını və işlədiyini anlamağa başladım. O, özünə güvəni olan adamdı, lakin bunu hər zaman göstərmir. İlk görüşdə o, utancaq və yöndəmsiz gorünə bilər. Onun tədricən itən Cənub afrika şivəsi və hətta, şarmı belə, Maska nitqindəki dolaşıqlığı və əsəbiliyi gizlətmək üçün kifayət etmirdi. Bir çox mühəndis və fizika alimınə məxsus tərzdə söhbət zamanı dəqiq ifadələr axtarışında o susur və tez-tez də hər hansı bir elmi, yaxud texniki problemi səsləndirsə də, aydınlaşdırmadan aradan çıxır. O, sizin də onu başa düşəcəyinizə inanır. Əgər siz bir şey anlamırsınızsa , bu, sizin probleminizdir. Mask tez-tez zarafat edir və həqiqətən də füsunkar ola bilir. Lakin onun hər söhbətində bir məqsəd və məna var. O, boş yerə çərənləmir (onun qəlbinin və şəxsiyyətinin mənim üçün gizli olan, daha coşqun cəhətlərini açıb göstərməsi üçün mən Maskla təxminən 30 saata yaxın söhbət etdim). Yüksək rütbəli rəhbərlərin əksəriyyətindən fərqli olaraq, Mask cangqdənsiz təkbaşına gəzir. O, restoranlarda asılıb qalanlardan deyil. Öz

[4] Van Halen – Amerika rok-qrupudur, 1975-ci ildə yaranıb, Kaliforniya xevimetal ansamblı.

işini özü idarə edir. Biz onunla təcrübə nümunələrini yoxlayaraq dizayn-studiyanın birinci mərtəbəsinə baxarkən söhbət etdik. O, dayanan kimi işçilər dərhal sual və təkliflərlə ona yanaşırdılar. O, diqqətlə dinləyir, götür-qoy edir, əgər razı qalırdısa, başını tərpədirdi. Adamlar uzaqlaşır, Mask növbəti informasiya axınına tərəf irəliləyirdi. Bir ara Tesla kompaniyasının rəhbəri Frans fon Holxauzen S- Modeli üçün yeni təkər diskləri və şinləri, eyni zamanda, X-Modelində oturacaqların yerləşmə sxemi haqda Maskın fikrini bilmək istədi. Onlar söhbət etdilər və yüksək keyfiyyətli qrafik kompyuterlə Mask üçün prezentasiya hazırladıqları yardımçı otağa keçdilər. Onlar üç ölçülü renderinqin[5] yeni texnologiyasını nümayiş etdirmək istəyirdilər. Bu texnologiya Teslanın virtual S-modelinə son bəzəyin vurulması və küçə fontanlarının kölgə və işığının avtomobil korpusunda necə əks olunduğunu təfərrüatı ilə izləmək imkanı verəcək. Tesla kompaniyasının mühəndislərinin, həqiqətən, yeni kompyuter sistemlərinə ehtiyacları var idi və onlar Maskın hərəkətə gəlməyini gözləyirdilər. Onlar drel və nəhəng sənaye ventilyatorlarının səs-küyünün danışıqlara maneçilik törətdiyi bir vaxtda, Maskı ideyalarının vacibliyinə inandırmaq istəyirdilər. Mask özünün dəri ayaqqabı, dizayner cins şalvarı və qara futbolkasında ( mahiyyət etibarı ilə bu onun gündəlik geyimi idi) 3D gözlüyünü taxmağa tələsmirdi. O, bu haqda düşünəcəyini bildirdi, sonra dizayn-studiyanın içərisində yerləşən səs-küylü emalatxanaya tərəf yönəldi. Tesla mühəndisləri burada yanacaqdoldurma stansiyalarının yanında 30 futluq (doqquz metrlik) dekorativ qullələr üçün müvəqqəti qurğular düzəldirdilər. “Görünür bu, 5 balliq qasırğaya tab gətirəcək- deyir Mask, gəlin onu biraz boş edək. ” Nəhayət, Maskla onun maşınına - qara S-Model-ə oturub, Space X-ın əsas binasına dönürük. “Düşünürəm ki, insanlar bu gün hər cür İnternet, maliyyə və hüquqa daha çox maraqlıdır, - deyir Mask – Bizdə innovasiyanın azlığının səbəblərindən biri də elə budur”. Maskın Məmləkəti mənim üçün bir etiraf oldu. Mən Silikon vadisinə 2000-ci ildə gəlmişdim və çox pis adla tanınan San-Fransisko rayonunda olmuşdum. Bura şəhərin yerli əhalisinin

[5] Üz hissəsinin boyanması və üçölçülü (həcmi) təsir almaq üçün işıq mənbəyindən istifadə etməklə qrafik təsvirlərin dəyişdirilməsi.

uzaq durduğu hissəsidir. Siz burada heç nə olmamış kimi şalvarını çıxararaq və nəqliyyat vasitələrinin arasında bayıra çıxan birisini görərsiz, yaxud avtobus dayanacağında kəlləsini divara vuran psixopatla üz-üzə də gələ bilərsiniz. Yerli striptiz-klublarla yanaşı olan qəlyanaltılarda hər şeylə maraqlanan biznesmenlərə ilişən transvestitlər, kürsülərdə oturaraq yatan və altlarını batıran əyyaşlar görə bilərsiz – bütün bunlar bazar günlərinin adi mənzərəsinin bir hissəsidi . . San-Fransisko insan tamahkarlığı ilə məşhurdur. Bu şəhər qızılaxtaranların hesabına şəhər oldu, hətta ən kəskin zəlzələ belə onun qazanc əldə etmək ehtirasını azalda bilmədi. “Yaşıllar” və “Solçuların” sizi axmaq yerinə qoymalarına imkan verməyin. İqtisadiyyatın bir birini əvəz edən yüksəlişi və enişi – bax, bu yerin ritmi, harmoniyası , melodiyası da , elə budur.

2000-ci il San-Fransisko üçün istehlakdan acgözlüklə istifadə edən ən səs-küylü dövrü olub;. Bu elə bir gözəl dövr idi ki, ətrafda hər kəs tezliklə zənginləşmək fantaziyasına varır və internet dəlisi olurdu. Ümumən məşhur olan bu sərsəm ideyaların enerjisi, demək olar ki, cismən də duyulurdu: şəhər uğuldayır və titrəyirdi. O dövrdə mən israfçılıqdan boğulan adamların yüksəlişini və enməsini izləyə-izləyə San-Fransiskonun ən əxlaqsız hissəsində yaşayırdım. O dövrün biznes sərsəmliyi haqqında əhvalatlar yaxşı bilirdim. Səs-küy doğuracaq kompaniya yaratmaq üçün sizə, heç də, istehsal qurmaq lazım gəlməyəcək. Hər hansı bir internet-ideya kəşf edərək , onu bütün dünyaya elan etmək kifayət idi ki, həvəsində olan investorlar sizin xəyali exsperimentinizi maliyyələşdirsinlər. Və bunu qısa zamanda etmək lazım idi ki, onun mahiyyətinə varılmasın.

Vadinin sakinləri “tam gücünlə işlə tam gücünlə istirahət et”[6]- kimi təmtəraqlı şüarı tam mənası ilə qəbul etdilər. 20-dən 60 yaşadək hər kəs gecə yarısınadək işləməyə başladı. İş yeri müvəqqəti yaşayış yerinə çevrildiyindən, şəxsi gigiyena da yaddan çıxmışdı. Qəribə burasıdır ki, HEÇ BİR ŞEY İSTEHSAL ETMƏDƏN həddən artıq çox işləmək lazım idi. Lakin istirahət vaxtı gələndə, çoxları pis yola düşürdü. O dövrün kompaniyaları və kütləvi informasiya vasitələri bir-birinə heç olmasa nədəsə üstün gəlmək cəhdində birləşərək-sanki bəhsə girmişdilər. “Geridə

[6] Work hard, play hard (ing.)

qalmış" damğasını almamaq üçün çoxdan bəri tanınan firmalar müntəzəm olaraq konsert meydanlarını icarəyə götürərək, rəqqasələr, akrobatlar, pulsuz barlar və "Barenaked Ladies" rok-qrupunu sifariş edirdilər. Cavan mühəndislər fahişələrlə ayaq yollarında kokain iyləyirdilər. Burada insanlıq dəyərlərindən uzaq olan yalnız zəhmətsiz gəlir əldə etmək və mənfəət güdmək idi. Əgər yaxşı vaxtlarda hadisələrin müfəssəl xronikası aparılırsa, adətən ondan sonra gələn hər pis şeyə, etina edilmirdi. Düşünülməmiş davranış və təsəvvür edilə bilməyəcək bolluq haqqında düşüncələr, onlara nizamsızlıq yaratmaq və xaosu seyr etməkdən xoşdur. Ədalət naminə qeyd etmək lazımdır ki, tez varlanmaq barədə(sonu fəlakətlə bitən) internet-fantaziyaları San-Fransisko və Silikon vadisini dərin depressiyaya saldı. Əyləncələr bitmək üzrəydi. Səhər məhəbbətini təklif etmək üçün ("Şirinim, mənimlə gedək. Bu kofedən yaxşıdır") fahişələr, artıq səhər saat altıda küçələrdə görünmürdülər. Ticarət yarmakalarında "Barenaket Ladies"-i Nil Daymond mahnılarının ifaçıları kasıbfəndi futbolkalarda və boğazlarında qəhər əvəzlədilər. Yüksək texnoloqiyalar nümayəndələri bütün bunlarla nə edəcəkləri barədə cüzi təsəvvürə, belə, malik deyildilər. Partlamaqda olan köpüyə bənzəyən vençur kompaniyaları sonacan müflisləşmək istəmədiklərindən, yeni müəssisələri maliyyələşdirməyi dayandırdılar. Hər şey Silikon vadisinin sakinlərində kütləvi şəkildə ayılma prosesinin başlamasından xəbər verirdi. Əlbəttə, melodrama ruhunda olsa da, əslində bu, həqiqətə uyğun idi. Milyonlarla ağıllı insanı birləşdirən məşhurluqun lovğalığını yenicə yaşayan bir toplum birdən birə yox oldu. Və tam əks bir davranış dəb halını aldı: hər kəs ehtiyat etməyə, riskdən uzaq olmağa çalışdı. Bu dəyişikliyi o dövrdə yaranan kompaniyaların və ideyaların nümunəsində də izləmək olar. Google hardasa 2002-ci ildə yarandı və uğur qazandı, lakin bu heç də tipik deyildi. Google-un üzə çıxması və 2007-ci ildə Apple iPhone-nun buraxılışı arasındakı dövrdə coxlu sayda nəzərə çarpmayan kompaniyalar peyda oldu. Hətta Facebook və Twiter-in uğurlu başlanğıclar əsl mal istehsal edən və onun yaranma prosesində on minlərlə işçisi olan Hewlett-Packard, İntel, və Microsystems kimi məşhur sələflərindən köklü surətdə fərqlənirdi. Növbəti illərdə sahibkarların hədəfləri dəyişikliyə uğradı: yeni sənaye

sahələri yaratmaq və yeni möhtəşəm ideyalar irəli sürmək əvəzinə, kompaniyalar, istehlak əyləncələri və reklamların istismarı hesabına asan pullar qazanmasına üstünlük verdilər. Qabaqlar Facebook mühəndisi olan Ceff Hammerbaher mənə belə dedi:”Mənim nəslimin ağıllı nümayəndələri kompüterin siçanıyla reklam elanlarını seçməklə məşğuldurlar. - Dəhşət. . . ” Silikon vadisi Hollivudu xatırladırdı. Və beləcə onun xidmət göstərdiyi istehlakçılar virtual həyatın aludəçisi oldu. İnnovasiya sistemindəki bu sakitliyin daha ciddi problem yarada biləcəyi haqda öz fikrini bildirənlərdən biri Kaliforniya ştatında Çayna-leykdə yerləşən dəniz aviasiyasının hərbi təyinatlı Pentaqon Elmi-Tədqiqat Mərkəzində işləyən fizik Conatan Hübner oldu. Hübner “Leave it to Beaver” (“Bunu Biverə həvalə edin”) serialından ölüm tacirinin bir nümunəsidir. Orta yaşlı, cansız və keçəlləşməkdə olan Hübner adətən xaki rəngli çirkli şalvar, elə o cür də pencək və şabalıdı zolaqlı köynək geyinir. O, enerji və proqram təminatına aid ən mükəmməl texnologiyalardan istifadə edərək, hər zaman silahlanma sisteminə aid materiallar işləyib hazırlayıb. Dotkomun iflasından sonra masasının üstünə qoyulan innovasiya təkliflərinə son dərəcədə narahatlıqla yanaşırdı. 2005-ci ildə Hübner “Bütün dünyada innovasiyaları azaldan mövcud ənənə” məqaləsini yazdı. Bu məqalə, Silikon vadisini mühakimə edəcək qədər olmasa da da, ən azından xəbərdarlıq xarakteri daşıyırdı. İnnovasiyalarla işlərin vəziyyətini təsvir etmək üçün , Hübner, texniki tərəqqini ağacla müqayisə edir. İnsan oğlunun gövdəyə dırmaşaraq, həqiqətən bir çox vacib kəşfləri- təkər, elektrik, təyyarə, telefon, tranzistoru gündəlik həyata tətbiq etməklə ağacın budaqlarını canlandırıb. İndi biz hardasa ağacın lap zirvəsində yer almışıq və bizə qədər görülmüş işləri başa çatdırırıq. Bu nöqteyi-nəzərdən, Hübner göstərir ki, iri kəşflərin yaranma sürəti azalıb. O, həmçinin əhali başına düşən texniki innovasiyaların sayının azaldığını statistika da göstərir. Hübner mənə : ”Düşünürəm ki, bizim gələcəkdə 100 ixtira edəcəyimiz ehtimalı da get-gedə azalır. İnnovasiyalar məhdud ehtiyatdı. ”-deyir. Hübner “mənim fikrimi anlamaq üçün insanlara beş il vaxt lazımdır” demişdi, və bu proqnoz da reallaşdı. 2010-cu ilə qədər PayPal-ın banisi və Facebook-un xarici investoru yüksək texnologiyalar industriyasının enişə doğru getdiyi ideyasını irəli

sürmüşdü . ”Biz uçan avtomobillər arzusunda idik, bunun əvəzində isə, 140 rəmz əldə etdik” ifadəsi sonradan onun Founders Fund vençur kompaniyasının sloqanına çevrildi. “Gələcəyimizlə nələr baş verir” adlı essedə Til və onun tərəfdaşları Twitter və onun ifadəyə yönəldilmiş 140 rəmzi yalançı tərəqqi olduğunu təsdiq edirlər. Til deyir ki, elmi fantastika daha gələcəyi tərənnüm etmir və antiutopik oldu, ona görə ki, insanlarda texnologiyaların dünyanı yaxşılığa doğru dəyişmək qabiliyyətinə inam azalıb. Mən Maskın Məmləkətinə gələnədək bu fikirlərin çoxuyla razı idim. O görmək istədiyi işlərdən utanmırdı, onun kompaniyalarının işçilərindən başqa, az adam vardı ki, onun zavodlarını, elmi-tədqiqat mərkəzlərini, maşın sexlərini görmüş və niyyətinin gücünü anlamış olsun. Mask bir çox məqamı Silikon vadisindən mənimsəmişdi- irəli iri addımlarla hərəkət, bürokratik iyerarxiyadan qurtuluş- və bunların hamısını fantastik aparatların təkmilləşməsinə və nəzərdən qaçmış məqamların inkişafına tətbiq etmişdi. Mask ümumi “xəstəlikdən” də yan keçə bilmədi. 1995-ci ildə o, kolleci təzəcə bitirən və Yelp kataloqunu Goodle Map kataloquna uyğunlaşdıraraq Zip-2 kompaniyasının əsasını qoymaqla, dotkom casibəsinin mərkəzinə düşdü. Birinci müəssisə sürət və böyük uğurla nəticələndi. 1999-cu ildə Compaq Zip 2-ni 307 mln. dollara aldı. Mask sazişdən 22 mln. dollar əldə etdi və demək olar ki, hamısını özünün növbəti müəssisəsinə, sonralar Pay Pal kimi formalaşan startapa qoydu. Pay Pal-ın çox iri aksiya sahibi olan Mask, 2002-ci ildə eBay-ın kompaniyanı 1, 5 mld. dollara aldığında fantastik dərəcədə varlandı. Lakin öz yaşıdlarından fərqli olaraq, Mask, qəm-qüssə və depressiyaya qapılmadı, Silikon vadisinin ətrafında veyllənməkdənsə, Los-Anjelesə yerləşdi. O dövrün “dərindən nəfəs alaraq, növbəti uğurun zamanını gözlə” məişət müdrikliyini qəbul etməyən Mask , 100 mln. dollar Space X-ə, 70 mln. dollar Tesla-ya və 30 mln. dollar Solar City-yə yatıraraq, bu müdrikliyə qarşı getdi. Görünür, var-dövləti bir anda itirmək üçün bundan sürətli yol seçmək mümkün deyildi. O öz simasında çox riskli vençur fondu oldu və iki ən zəngin yerdə - Los-Anjeles və Silikon vadisində çox bahalı fiziki məhsul istehsal etməyə başlayaraq böyük riskə qetdi. Maskın kompaniyaları işlərini sıfırdan başlayaraq aerokosmik sahədə, maşınqayırma və günəş

energetikasında zamanında qəbul olunan məqamları dərk etməyə çalışıblar. Space-X Maska ABŞ-ın hərbi-sənaye kompleksinin nəhəngləri, eləcə də Lockheed Martin və Boeingl-ə mübarizəyə girməyə imkan verir. Həmçinin bütün ölkələrlə , əsasən də, Rusiya və Çinlə. Space-X öz sahəsi üzrə istehsal xərcləri az olan tədarükçü adını qazanmışdı. Lakin özlüyündə bu hələ müvəffəqiyyət üçün kifayət deyildi. Kosmik biznesdə siyasət oyunlarına qoşulmaq, lazımlı adamlara yaltaqlanmaq və himayəçiliklə məşğul olmaq lazımdı, bu da kapitalizmin əsasını parçalamağa gətirib çıxarır. Stiv Cobs iPod və iTunes-i satışa çıxarmaq üçün səsyazma industriyasına zidd gedərkən belə faklarla üzləşmişdi. Lakin musiqi industriyasının şıltaqları ludditlər , işləri silah və vahid dövlətlər yaratmaq olan Maskın düşmənləri ilə müqayisədə, heç nə idi. onların Space-X isə dəfələrlə yükü kosmosa çatdira və Yerə qayıda biləcək raketlərin sınağını aparır. Əgər kompaniya bu texnologiyanı təkmilləşdirsə, rəqiblərinə sarsıdıcı zərbə vura bilər və həqiqətən, raket industriyasının bəzi nümayəndələrini bu biznesdə geridə qoyacaq , Amerikanı isə, insan və yüklərin kosmosa və geri uçabiləcək raketlərə görə, dünya lideri edə bilər. Mask hesab edir ki, bu bir təhlükədir, və ona çox sayda barışmaz düşmən qazandıracaq. “Mənim üçün ağlamayanların siyahısı artır, - Mask qeyd edir – Mənim ailəm rusların məni fiziki cəhətdən aradan götürəcəklərindən ehtiyat edir”. Tesla Motors vasitəsiylə Mask avtomobillərin istehsalı və satışını dəyişdirmək və yanacağın distribusiyasını ümumdünya şəbəkəsinə qoşmaq niyyətindədi. Maskın öz jarqonunda “şərti optimal kompromis” adlandırdığı gibridlərin əvəzinə insanlara vacib olan bütövlüklə elektrik enerjisiylə işləyən Teslanın avtomobillərini (elektromobillər) yaratmaq fikrindədir və bununla da gələcəkdə texnologiyaların sərhədini açmaq mümkün olacaq. Tesla bu avtomobilləri dilerlər vasitəsi ilə deyil, İnternetdə və elit ticarət mərkəzlərində- Apple mağazalarına bənzər qalereyalarda satır. Elektromobillərin mühərrikləri yağın dəyişdirilməsini və adi avtomobillər kimi digər prosedurları tələb etmədiyinə görə, Tesla həmçinin, öz avtomobillərinin servisindən də böyük pullar gözləmir. Tesla kompaniyasının qəbul etdiyi avtomobillərin satış modeli müştərilərlə alver etməyə və texniki xidmətə görə böyük gəlir götürməyə alışmış

avtodilerlərə birbaşa meydan oxuyur. Teslanın enerji doldurma stansiyaları hazırda ABŞ-ın, Avropanın, Asiyanın bir çox əsas magistrallarında yerləşir və maşına əlavə olaraq 20 dəqiqə ərzində enerji yükləyərək yüzlərlə mil məsafə qət etmək imkanı verir. Bu, necə deyərlər, superdoldurma stansiyaları günəş enerjisi ilə işləyir və Teslanın sahibkarları üçün heç bir sərfiyyat tələb etmirdi. Amerika infrastrukturunun böyük hissəsinin çökdüyü dövrdə, Mask, ölkəni bütün dünyanın birincisinə çevirərək futurist üslubda fasiləsiz işləyən nəqliyyat sistemi yaradır. Maskın qavrama qabiliyyəti və son vaxtlar onun etdikləri, göründüyü kimi, Henri Ford və Con D. Rokfellerdən irsən aldığımız ən yaxşı nümunələrin kompleksidi. Solar Citiyə gəldikdə isə, Mask istehlakçı və müəssisələr üçün günəş batareyalarının çox məşhur bir tədarükçü kompaniyasına pul yatırmışdı. Solar Citinin ilk konsepsiyası Maska məxsusdu, məhz buna görə də o, da direktorlar şurasının sədri oldu; biznesi isə onun əmisi oğlanları Lindon və Piter Piv qardaşları idarə edirlər. Solar City-yə onlarla energetika kompaniyasını geridə qoyub , onların yerinə keçmək müyəssər oldu. Alternativ enerji ilə əlaqəli kompaniyaların sürətlə müflisləşdiyi bir zamanda, Mask dünyada "təmiz" enerji mənbəyinə əsaslanan iki ən uğurlu kompaniya yaratdı. Müxtəlif sahələrdə on minlərlə işçi və mütəxəssisi əhatə edən zavodlardan ibarət, xalis dəyəri 11, 7 mlrd. dollar olan biznes-imperiyası Maskı dünyanın ən varlı adamlarından birinə çevirdi[7]. Maskın Məmləkətiylə tanışlığım onun belə ağlasığmaz yükü necə təkbaşına daşıdığını anlamağıma imkan verdi. "İnsanı Marsa göndərmək" ifadəsi kiməsə ağılsızlıq kimi görünərkən, Maskın kampaniyaları üçün məqsəd və əsas ilham mənbəyinin devizi oldu. Hər üç kampaniyanın əməkdaşları günlərini mümkünsüz bir işə həsr etdiklərini yaxşı anlayır və etiraf edirlər. Mask qeyri-real məqsədlər təyin edəndə, işçilərdən işdə can yandırmağı tələb edərək onları danlayanda, bu, müəyyən dərəcədə, qoyulmuş məqsədə doğru bir addım olaraq qəbul edilir. Bəzi iş yoldaşları onu elə buna görə də sevirlər. Digərlərinin onu görən gözü yoxdur, lakin onlar təəccüblü də olsa onun məqsədyönlülüyünə və missiyasına hörmət əlaməti olaraqq loyal qalırlar. Silikon vadisində sahibkarların çoxunun edə

---

[7] 2015-ci ilin mart ayına olan məlumata görə.

bilmədiyini, Mask özünə məxsus məqsəd və fəaliyyətə əsaslanan müvafiq dünyagörüşüylə edir. Mask özünün əzmi, daimi cəhdləri, sonsuz axtarışları ilə dahiyanədir. direktor kimi , kampaniyanın gəliri az narahat edir, Mask daha çox ordusunu böyük qələbəyə aparan generaldır. Mark Tsukerberq internetdə əyləncə olsun deyə uşaqlıq fotoşəkillərinizi bölüşməyi təklif etdiyi zaman, Mask insanlığın nəslini könüllü, yaxud təsadüfi məhvdən xilas etmənin yollarını araşdırır. Maskın niyyətlərinin həyata keçməsinə həsr etdiyi həyatı əcaib və bəzən də ağılsız görünür. Onun tipik iş həftəsi Bel Eyrdəki malikanəsində başlanır. O, bazar ertəsi Space X-də işləyir. Çərrşənbə axşamı iş gününü Space X-də başlayır, sonra öz təyyarəsinə minib, Silikon vadisinə uçur. İki günü o, Teslanın Pal Altodakı ofisləri və Frimontedəki zavodunda keçirir. Şimali Kaliforniyada Maskın evi olmadığına görə də o, yaraşıqlı Rosewood otelində ya , da, dostlarının evində qalır. Dostlarının evində gecələcəyini təşkil etmək üçün onun köməkçisi elektron poçt vasitəsilə belə bir sual olan məktub göndərir:" İnsan qalacaq yeriniz varmı?" Əgər dostu müsbət cavab verirsə, Mask gecə yarısı onun qapısının zəngini çalır. Çox vaxt ona qonaq otaqı ayırılır, amma bəzən dincəlmək məqsədiylə hansısa videooyunlar oynayaraq uduzan Mask, kiçik bir divanda yuxuya gedir. Cümə axşamı isə yol yenidən Los-Anjelesə və Space X-ədi. Mask keçmiş arvadı Castin ilə birlikdə , beş kiçik oğluna- əkizlərə və üçəmlərinə özü hamilik edir və həftədə dörd dəfə onları görməyə gedir. Vəziyyəti nəzarətdə saxlamaq məqsədiylə , Mask hər il həftə ərzində uçuşa nə qədər vaxt sərf etdiyini hesablayır. Belə qrafiklə necə yaşamaq olar sualına cavab verərək , Mask deyir:" Mənim uşaqlığım ağır keçib; görünür bu üzdən tab gətirə billirəm ". Maskın Məmləkətinə səfərlərimin birində , o söhbətimizi maksimum dərəcədə qısaltmalı oldu, çünki , təbiət qoynuna- Oreqon ştatındakı Milli parkda Kreyter gölünü seyrə çıxmağı planlaşdırmışdı. Bu, cümə günü, axşam saat səkkiz radələrindəydi; tez bir zamanda Mask oğlanlarını və onların dayəsini özünün şəxsi təyyarəsinə mindirməli, sonra isə onun özünü çadır şəhərciyinə dostlarının yanına çatdıracaq təyyarəçiləri qarşılamalı idi. Dostları ona əşyaları boşaltmağa və yerləşməyə kömək edəcəklər. Artıq qaranlıq çökür. İstirahət günü üçün isə bir neçə yürüş planlaşdırılıb. Və beləcə də,

istirahət başa çatacaq. İstirahət gününün ikinci yarısında Mask oğlanlarla geri, Los-Anjelesə qayıdacaq. Elə, həmin axşam da, özü Nyu-Yorka yola düşəcək. Gecə yuxusu. Bazar ertəsi səhər onun müsahibəsi var. Görüşlər. Elektron poctun yoxlanılması. Yuxu. Çərşənbə axşamının səhəri isə, geri, Los-Anjelesə dönüş. Space X-dəki işlər . Çərşənbə axşamı gündüz yenidən San-Xoseyə uçuş, Tesla Motors zavodundakı işlər. Axşam Vaşinqtona, Kolumbiya dairəsinə uçuş, prezident Obama ilə görüş. Çərşənbə gününün axşamı isə, geri Los-Anjelesə. Space X-də bir neçə iş gününü. Həftə sonunda Google kompaniyasının direktorlar şurasının sədri Erik Şmidt tərəfindən Yelloustounda təşkil olunan konfransda iştirak etməliydi. Həmin vaxt Mask ikinci arvadından, aktrisa Talula Raylidən ayrılmışdı və bu gərgin qrafikdə şəxsi həyatına da yer ayırmağa çalışırdı. “Düşünürəm ki, uşaqlarıma və işimə, kifayət qədər, vaxt ayırıram, - deyirdi Mask- Amma bir problemim var. Sevgilim yoxdu. Bax , bunun üçün də vaxt lazımdır, hətta bəlkə, 5-10 saat. Səncə qadına həftə ərzində nə qədər vaxt kifayətdi ? Bəlkə, 10 saat? Ümumiyyətlə minimum nə qədər? Mən bilmirəm”. Mask istirahət üçün çox az hallarda vaxt tapır, lakin onun əyləncələri də, həyatı kimi, dramatik və qeyri standartdı. Özünün otuz illik yübileyini qeyd etmək üçün, Mask İngiltərədə 20 nəfərlik qəsr icarəyə götürdü. Gecə saat ikidən səhər saat altıyadək hamı gizlənpaç oynadı. Növbəti gecəni Parisdə keçirdilər. Mask, doğma qardaşı və əmisi oğlanlarıyla birlikdə gecəyarısı oyanıb , səhər saat altıyadək şəhərdə velosiped sürməyi qərara aldılar. Sonra onlar bütün günü yatdılar, gecə isə Şərq ekspessinə mindilər və yenə də bütün gecəni oyaq qaldılar. Qatarda məşhur Lucent Dossier Experience avanqard qrupunun təqdimatı oldu-akrobatik tryuklar və xiromantiya (əlfalı). Ertəsi gün qatar Venessiyaya çatanda Mask dostları ilə şam yeməyindən sonra səhər saat doqquzadək istirahətlərini otelin Böyük kanala mənzərəsi olan daxili həyətində keçirdilər. Mask müxtəlif kostyumlar nümayiş etdirilən gecə əyləncələri sevir; belə gecələrin birində o cəngavər geyimində çətirlərin üstündə Dart Veyderin kostyumunda olan cırtdanla döyüşürdü. Sonuncu ad günlərindən birinə, Mask Nyu-Yorkda qəsrə bənzər bir

yerə , Tarritauna 50 nəfər dəvət etmişdi. Bu dəfə isə stimpank[8] stilində yapon mövzusu oynanılırdı. - Elmi-fantastika həvəskarlarının düşündükləri təsəvvürlərin təcəssümüydü sanki. Korset, dəri və maşınlara sitayişdən ibarət gurultulu bir qarışıq əmələ gəldi. Mask samuray geyimindəydi. Bayram tədbirlərinə Hibert Sallivanın “Mikado” viktorian komik operasının quruluşu daxil edilir; operada hadisələr Yaponiyada, şəhərin lap mərkəzində, kiçik bir teatrda baş verir. “Mən amerikalıların nəsə anladıqlarından əmin deyiləm, ”- deyir Rayli (“Qadına həftədə 10 saat ayırmaq” planı pozulandan sonra, Mask onunla münasibətini bərpa etmişdi). Ancaq pyesin davamında baş verənlər, amerikalılarla bərabər, hamının xoşuna gəldi. Qəsrə qayıdan Mask, gözlərini dəsmalla bağladı, divara söykənərək hər əlinə bir şar götürür , birini də ayaqlarının arasında salır. Sonra isə, bıçaq atan işinə başlayır. “Mən onu əvvəl görmüşdüm və onun bu gün istirahətdə olacağından ehtiyat edirdim- Mask belə başlayır. Bir də qorxurdum ki, birdən bıçaq atan iki şara eyni vaxtda düşə bilməz”. Mat qalmış tamaşaçılar bışağın Maska dəyəcəyindən qorxurdu . Maskın ən yaxşı dostu Bill Li: “Bu inandırıcı deyildi. Ancaq İlon hər şeyə fəlsəfi yanaşır”- dedi. Bayrama dünyanın yekəpər sumo güləşçilərindən biri həmvətənləri ilə birlikdə gəlmişdi. Rinq təşkil edildi və Mask çempionla yarışa çıxdı. Onun 350 fut (160 kq) çəkisi vardı -deyir Mask: “Mən adrenalinim təpədə rinqə çıxdım və güləşçini yerdən qaldırmaq istədim. O, ilk raundda mənə qələbə qazandırdı, sonrakı döyüşdə isə, mənim başıma elə oyun gətirdi ki, indiyədək kürəyim ağrıyır”. Rayli Mask üçün bu şənliklərin planlaşdırılmasını incəsənətə çevirdi. Onlar Maskla hələ 2008-ci ildə, Maskın kompaniyalarının bir-birinin ardınca uğursuzluqa düçar olduğu vaxtda tanış olmuşdular. O, Maskın bütün sərvətini necə itirdiyini və mətbuatın gülüş hədəfinə çevrildiyinin şahidi idi. Rayli bilirdi ki, bu illərin yaraları indiyədək göynəyir və Maskın ağır xasiyyətinin səbəbi də, həyatında baş verən digər emosional sarsıntılarla birlikdə körpə oğlunun faciəli ölümü və Cənubi Amerikada keçirdiyi yeniyetməlik dövrünün çətinlikləri ilə bağlıdı. Mən onu rahatlatmaq üçün, hər cür şən əyləncələr düşünürəm, - deyir Rayli. “Biz ona uşaqlıqda görmədiklərini

[8] Stimpank-elmi fantastikanın bir qoludu. Adətən bəşəriyyətin alternative inkişafını nəzərdə tutur.

yaşatmağa çalışırıq”. Raylinin bu cəhdləri həmişə arzuolunan nəticəni vermir. Sumo güləşçisi ilə baş verən hadisədən dərhal sonra, Mask, Palo Alto-da Teslanın baş ofisinə işə getdi. Şənbə günü idi, avtomobil dayanacağı isə, dolu idi. Teslanın ofislərində yüzlərlə gənc işləyirdi – bəziləri avtomobil hissələrinin kompyuter layihələşdirilməsi ilə məşğul olur, digərləri elektron avadanlıqlarla eksperiment aparırdı. Maskın bir dəqiqədən bir dəhlizin hər yerindən şaqraq gülüşü eşidilirdi. Mask onu gözlədiyim otağa işgüzar görüş üçün gələndə, mən , şənbə günündə də insnların işləməsinin məni necə mütəəssir etdiyini dedim. Mask vəziyyəti başqa cür görürdü: O öz növbəsində şikayət etdi ki, istirahət günləri gecəyarıyadək işləməyə qalanların sayı get-gedə azalır. “Rahatlaşmışıq biz, boşalmışıq, - Mask dedi. – Mən bunu onlarn elektron ünvanlarına da yazmaq istəyirdim. Daha sərt olmaq lazımdır”. Arzularla yaşayan və onları reallaşdıran insanlar elə belə də olur. İşçilərini töhmətləndirən Hovard Hyüz və Stiv Cobsu təsəvvür etmək də çətin deyil. Yeniliyin yaradılması – xüsusən də, əgər söhbət möhtəşəm işlərdən gedirsə , asan məsələ deyil. Mask kompaniyalarının yaradılmasına verdiyi iyirmi ildə, və bu müddətdə çox adamla üzləşməsi, ona pərəstiş edən və ya ona heç dözə bilməyənlərlə nəticələndi. Kitabımı işləyərkən zaman-zaman, mən, bu adamlarla ünsiyyətdə olurdum; onlar mənə Mask və müəssisələrin necə işlədiyi haqda az məlumat vermədilər. Mənim Maskla şam yeməklərim və vaxtaşırı Maskın Məmləkətinə baş çəkməyim, bu insanı hər tərəfli tanımağıma kömək etdi. Onun elədikləri , Hyüz və Cobsun ona qədər elədiklərini geridə qoyurdu. Mask Amerikanın gözündən düşmüş aerokosmik və avtomobil istehsalı kimi sahələrini öz üzərinə götürərək, onları qeyri-adi yeni və fantastik sahələrə çevirdi. Bu islahatın əsasında Maskın, proqram təminatı istehsalçısı kimi, təcrübəsi və onun bütün bunları praktikada tətbiq etmək qabiliyyəti durur. O, atomları və bitləri elə birləşdirdi ki, bu, əvvəllər heç kəsin ağlına belə gəlməmişdi və nəticələr də, təsir edici oldu. Doğrusu, ona hələ iPhone-nun istehlakçı uğuru və ya Facebook-un milyardlarla insanın diqqətini cəlb etmək qabiliyyətinin də bütün bunlara əlavə olunması gərək. Hazırda o, hələ də, zəngin adamlar üçün oyuncaqlar düzəltməklə məşquldu və onun çoxvədlər verən

imperiyası bir gün partlayan raket kimi , istiqamətini dəyişə, yaxud da maliyyə böhranıyla üzləşə bilər, bu da, öz növbəsində, Teslanın avtomobil bazarından kütləvi şəkildə atılmasına səbəb ola bilər. “Digər tərəfdən, Maskın kompaniyaları bu gün, artıq , onun bədxahlarının mümkün hesab etdiyindən daha çox iş görmüşdülər, bu da, onun vədlərinə şübhə ilə baxanlara, belə, nikbinlik bəxş etməlidir. ” Mənə görə, birjalara çıxışa və istehsalın yüksəldilməsinə güc vermək əvəzinə, Silikon vadisi öz fəaliyyətini yenidən qurmağa və qüvvəsini zamanla ayaqlaşmağa yönəldə bilsəydi kaş, bax, İlonun fəaliyyəti bunun parlaq nümunəsidir, - proqram təminatı üzrə məşhur ekspert və ixtiraçı Edvard Yanq belə deyir. – Bunlar lazımlıdır, lakin çox azdı. Biz uzun müddətli işlərin müxtəlif modellərini axtarmalı və texnologiyaları onlara inteqrasiya etdirməliyik. ” Yanqın dediyi bu inteqrasiya: proqram təminatı, elektronika, yeni materialların və hesablama avadanlıqlarının ahəngdar birliyidir ki, bu da, göründüyü kimi, Maskın insanları təəccübləndirəcək maşınlar dövrünə yol açan və elmi-fantastik arzularını gerçəkləşdirmə qabiliyyəti kimi, güclü cəhətini nümayiş etdirir. Bu mənada Mask Hovard Hyüzdən daha çox Tomas Edisona bənzəyir. O, ixtiraçı, məşhur biznesmen və böyük ideyaları böyük məhsullara çevirə bilən sənayeçidir. Minlərlə insan onun amerikada, qeyri-mümkün hesab edilən , zavodlarında metal məmulatlarının istehsalı ilə məşquldur. Cənubi Afrikada doğulan Mask, bu gün Amerikanın ən yenilikçi sənayeçisi və qeyri-adi mütəfəkkiridir; Silikon vadisini yeni, daha perspektivli yola çıxaracaq insandır. Maskın sayəsində 10 ildən sonra amerikalılar minlərlə günəş enerjisi doldurma stansiyalarıyla təchiz olunmuş müasir yollar, elə bu yollarla şütüyən elektromobillərlə dünyada məşhur ola bilərlər. O zamana qədər isə, Space X hər gün insanları və yükləri raketlərlə müxtəlif yaşayış nöqtələrinə çatdıraraq, Marsa uçuşa hazırlaşacaq. Əgər işləri sonadək aparmaq üçün Maskın kifayət qədər vaxtı olarsa, bu uğur inanılmaz olduğu qədər də, labüddür. Onun keçmiş xanımı Castinin ifadə etdiyi kimi: “O, hər istədiyinə nail olur və heç kəs ona mane olmaq gücündə deyil. Bu dünya İlona məxsusdur, biz insanlar isə, sadəcə, bu dünyanın sakinləriyik”.

# 2. Afrika

Geniş ictimayyət qarşısına İlon Riv Mask ilk dəfə 1984-cü ildə çıxmışdı. Mask tərəfindən yaradılmış kompyuter oyununun çıxış kodu “Kompyuter və ofis texnologiyaları”[9] adlı Cənubi Afrika jurnalında dərc olundu. Elmi fantastik janrında olan kitablar əsasında yaradılan Blastar adlı “kosmik” oyun 167 kod sətrlərdən ibarət idi. Bu hələ mətn quruluşlu kompüter interfeysinin zamanında idi. Maskın oyunu proqramlaşmada bir şedevr deyildi, lakin şübhəsiz 12 yaşlı yeniyetmələrin adətən qadir olduqlarından üstün bir proqram idi.

Nəşriyyatda bu oyunun adının çəkilməsi Maska 500 dollar qazandırdı və onun xasiyyətində bəzi aydınlatmalara səbəb oldu. Blaster haqda qeydlər maqaləsi göstərir ki, gənc oğlan öz adının elmi fantastların adları kimi “İ. P. Mask” şəklində qeyd olunmasının arzusundadır, və onun ağlında mühüm işlər və qalibiyyətlərə dair fikirlər yaranır. Qısa annotasiyada deyilir: “Bu oyunda siz su bombaları və sua döyüş aparatlarına malik olan yadplanetli kosmik gəmini məhv etməlisiz. Oyunda sprayt qrafikası və animasiyadan geniş istifadə olunmuşdur, məhs buna görə bu proqramın mətni ilə tanış olmağa dəyər”. (Bu məqalənin dərc olunduğu zamanda hətta internetdə “şua döyüş apparatları” haqqında məlumat mövcud deyildi.)

Oğlan uşağının kosmos və Xeyir və Şərin mübarizəsinə dair xəyallar qurması heç kimi təəcübləndirmir. Təəcübləndirən odur ki, uşaq bu fantaziyalarını ciddi qəbul edir. Gənc İlon Maskla da eynisi baş vermişdi. Yeniyetmə Mask fantaziya ilə həqiqəti birbiri ilə o qədər qatışdırmışdı ki, onları ayırd etmək çox çətin olurdu. Kainatda bəşəriyyətin taleyi onun şəxsi probleminə çevrilmişdi. Bu taleyə təsir etmək – onun vəzifəsi olmuşdu. Əgər bərpa olunan enerji mənbələrini axtarmaq və yaxud kosmik gəmilər yaratmaq lazımdırsa – demək bunlar yaradılmalıdır. Mask bu problemlərin həllolunması yollarını tapmalıdır. “Ola bilsin uşaqlıqda mən həddindən artıq komikslər oxumuşam” - deyir Mask. – Axı orada həmişə dünyanı xilas etməyə çalışırlar. Onları oxuyarkən elə təsəvvür yaranırdı ki, hər bir kəs dünyanı yaxşıya doğru dəyişməyə cəhd göstərməlidi, başqa cür ola da bilməz”.

[9] “PC and Office Technology” (ing.)

14 yaşında İlon tam miqyaslı ekzistensial krizis yaşamışdı. İstedadlı yeniyetmələrin çoxları kimi o da dini və fəlsəfi yazılara müraciət edərək çıxış yolu axtarırdı. O müxtəlif ideologiyalarla tanış olur və yenidən başladığı yerə qayıdır: ona ən yaxın olan elmi fantastikadır. Xüsusilə onun üçün Duqlas Adamsın "Qalaktika üzrə avtostopla" kitabı çox vacib oldu. "Bu kitab mənə sualı düzgün verməyi öyrətdi, - deyir Mask. - Əgər sual düzgün qurulursa, cavab asan tapılır. Əsas odur ki, geniş düşünəsən, o zaman hansı sualları vermək lazımdır aydın olacaq". Bu cür gənc Mask özünün əsas missiyasının nə olduğunu anlayır. "Tək bir şeyi etmək lazımdır: bəşəriyyətin maarifləndirməsinə kömək etmək" – deyir o.

Maskın həyatın anlamının axtarışının kontekstini təsəvvür etmək çətin deyil. O, 1971-ci ildə anadan olub, Cənubi Afrikanın şimal-şərqində və Yoxanesburqda 1 saatlıq məsafədə yerləşən böyük şəhər Pretoriyada böyümüşdü. Maskın ailəsi aid olduğu imkanlı ağdərililər üçün Cənubi Afarika həyat tərzi çox cəlbedici idi. Bu oğlanın hər bir arzusu qaradərili xidmətçilər tərəfindən dərhal yerinə yetirilirdi. Varlı cənubi-afrikalılar adətən özlərini ciddi heç bir işlə məşqul etmirdilər. Onlar fantastik gecələr keçirirdilər, arxa bağçalarda şişdə qızardılmış quzular, yaxşı şərablar; uşaqlarına dayələr baxırdı, qaradərili rəqqaslar isə gecə yarıyadək onları əyləndirirdilər. Ətraf təbiət bənzərsiz təbii gözəlliyin və həyatsevərliyin nümunəsi idi. Zaman qavrayışı həmçinin qərbdəkindən fərglənirdi: burada, Cənubi Afrikada zamanın dəyərini bilmirdilər, ona çox laqeyd yanaşırdılar. "İndi" kəliməsi onlar üçün beş dəqiqə anlamına da gələ bilər, beş saatda. Hər bir şeydə Afrika kontinentinin sivilizasiyadan uzaq olan coşqulu enerjisini müşayiət edən ümumi azadlıq hissi var idi.

Lakin bütün bu gözəl görünüşlərin arxasında aparteid xəyaləti dayanırdı. Cənubi Afrika böyük qaynayan bir qazanı xatırladırdı, hansı ki hər an coşub fiziki zorakılıq və qəddarlıq dalğalarını daşdırmağa hazır idi. Tez-tez ağdərililər və qaradərililər, və həmçinin qaradərililərin müxtəlif tayfaları arasında çaxnaşmalar olurdu. Maskın uşaqlığı aparteid erasının ən qanlı və xoşagəlməz epizodlarına düşmüşdü. Onun 4 yaşı, Souetoda qaradərili tələbələrin ağdərili hakimiyyətə qarşı üsyan çıxışı zamanı öldürülməsindən bir neçə gün sonra tamam olmuşdu. Uzun

illər ərzində öz irqçi siyasəti səbəbindən Cənubi Afrika başqa ölkələrin ona qarşı tətbiq edən sanksiyalarla üzləşirdi. Uşaqlıqda Maskın xarici ölkələrə gedməyə fürsəti var idi, və o xaricdə Cənubi Afrikaya necə yanaşdıqlarının şahidi olurdu. Ağdərili cənubiafrikalılı uşaqlar işlərin nə yerdə olduğunu anlayırdılar və buna görə utanc hissi keçirirdilər.

Maskın bəşəriyyəti xilas etmək fikri günü-gündən möhkəmləşirdi. Lakin yalniz Cənubi Afrikanın müəyyən problemlərinə fokuslanmaq yerinə Mask əvvəldən bütün bəşəriyyət haqqında düşünürdü. O, Amerikanı, artıq klişeyə çevrilən təsəvvürə əsasən, öz xəyallarını gerçəkləşdirmək üçün geniş sərhədsiz imkanlara malik ölkə kimi təsəvvür edirdi. Belə oldu ki, "bəşəriyyətin maarifləndirilməsi" haqqında böyük səmmiyyətlə danışan yalnız və yöndəmsiz Cənubi Afrikalı bu oğlan uşağı Amerikanın ən cəsarətli və təşəbbüskar sənayeçisi oldu. 20 yaşlı Maskın Amerikaya gəlməsi onun öz kökünə qayıtması kimi qiymətləndirildi. Genetik təhlil göstərir ki onun ana xəttindən əcdadları isveçrə almanlarından olan-Xaldeman nəslindəndir. Onlar avropadan Nyu Yorka ABŞ müstəgillik müharibəsi zamanı köçmüşdülər. Nyu Yorkdan isə bu nəsil Mərkəzi Gərb hissələrə yayılmışdır, əsasəndə İllinoys və Minesotaya. "Nəslimizdən bəziləri vətəndaş müharibəsi zamanı barrikadların fərqli tərəflərində vuruşurdular, lakin biz fermer ailəsindən olmuşuq" – deyir Skot Xaldeman, Maskın dayısı və ailənin qeyri –rəsmi tarixçisi.

Uşaqlıqda oğlanlar Maskı onun qeyri-adi adıy ilə ələ salırdılar. Ona bu ad ulubabası Con İlon Xaldemana görə verilmişdi, hansı ki, 1872-ci ildə İllinoys ştatında anadan olmuş, və sonradar Minesota ştatına köçmüşdü. Orada o, ondan 5 yaş cavan olan öz həyat yoldaşı Almeda Ceyn Normanla qarşılaşır. 1902-ci ildə gənclər Minesota ştatının Peko şəhərində taxtadan tikilmiş bir evə köçürlər və burada onların oğul övladı dünyaya gəlir - Coşua Norman Xaldeman - Maskın babası. O, çox eksentrik, tədbirli və ağıllı adam olmuşdu, və o Mask üçün nümunə idi[10]. Coşua Norman Xaldeman çox guclu və müstəqil bir uşaq böyüyürdü. 1907-cı

[10] Oğlunun anadan olmasından iki il sonra Con İlonda diabet əlamətləri aşkarlandı. O zamanlar bu xəstəlik ölümə bərabəridi, və 32 yaşında Con İlon ömrünün sonunna cəmi yarım ili qaldığını öyrəndi. Xəstəyə qulluq sahəsində çox az təcrübəyə malik olan Almeda Con İlonun ömrünü uzadmaq üçün eliksir və yaxud başqa fərqli bir üsus tapmaq məcburiyyətində olduğuna qərara gəldi. Ailə folkloruna əsasən o xipopraktik üsullara üstünlük verdi və birinci diabet diaqnozundan sonra Con İlon 5 il yaşadı.

ildə ailəsi Soskacevana əyalətinə köçür, Coşua 7 yaşında olanda isə onun atası dünyasını dəyişir və Coşua çox erkən çalışmağa öyrəşməyə məcbur qalır. O geniş səhraları çox sevdi, at minməyi öyrənin, boks və güləşlə maraqlanırdı. Coşua yerli fermerlərin atlarını minirdi və çox zaman zədələr alırdı, o, Kanadada keçirilən rodeonun (kovboylar arasında at yarışmaları) ilk təşkilatçısı oldu. Ailə şəkillərində Coşua kovboy geyimində şəkilləri var idi. Yeniyetmə olan Coşua Ayova şəhərinə Palmar hiropratik məktəbinə oxumağa gedir və daha sonra Saskaçevana fermer kimi qayıdır.

1930-cu illərdə Coşua Xaldeman öz üzərində maliyyə böhranın nə olduğunu hiss edir. O, avadanlıq almaq üçün alınmış kredit borclarını ödəyə bilmir, və beləliklə onun 2 min hektardan çox torpağı müsadirə olunmuşdu. “O zamandan bəri atam  banklara pul yatırımına inanmırdı” – deyir Skot Xaldeman. O da atasının oxuduğu hiropraktik məktəbində oxuyurdu və dünyada onurğa sütununda olan xəstəliklərin müalicəsində ən böyük mütəxəssis ekspert oldu. 1934-cü ildə fermasını itirən Coşua Xaldeman səyyah həyat keçirir, hansını ki onilliklər sonra Kanandada onun nəvəsi həyata keçirir. 6 fut, 3 dyum (190 sm) boyu olan Coşua manual terapiya sahəsində mütəxəssis olmadan öncə tikintidə və digər yerlərdə fəhlə kimi çalışırdı[11].

1948 ildə Coşua Xaldeman Kanada vətəndaşı olan rəqs müəllimәsi Uinifred Jozefin Fletçer (Uin) ilə evlənir və manual terapevt kimi inkişaf edən praktikanı qurmuşdu. Bu dövrdə, artıq bir qızı və oğlu oln ailədə, əkiz qız uşaqları dünyaya gəldi - Key və Mey (Maskın anası).

Uşaqlar 3 mərtəbəli, 20 otaqlı evdə yaşayırdılar, burada həmçinin Uinifredin rəqs dərslərini keçirməyə imkan yaradan rəqs studiyası mövcud idi. Hər zaman yeniliklər axtarışda olan Coşua Xaldeman üçüşla məşğul olmağa başladı və şəxsi təyyarə aldı. Ailənin Şimali Amerikada təkmotorlu təyyarə ilə səyahət etməsi onlara müəyyən məşhurluq qazandırdı. Xaldeman siyasi və hiropraktik iclaslara

---

Heyatverici prosedurlar Xaldemanlarda xiroprktik üsulların ailə ənənəsinin yaradılmasına təsir göstərdi. Almeda Minneapolisdə xiropraktik üsullar məktəbində təhsil alırdı və 1905-ci ildə xiropraktik üsullar üzrə doktor dərəcəsi aldı. Maskın ulu nənəsi öz fərdi klinikasını yaratdı və Kanadada birinci manul terpevt oldu.

[11] Xaldeman həmçinin siyasət ilə məşqul idi, Saskaçevanda öz siyasi partiyanı yaradmağa çalışırdı, informasiya bülleteni nəşr edirdi və konservativ antisosialistik fikirləri dəstəkləyirdi. Daha sonra o parlamentə namizədliyini vermək və sosial kredit partiyasının başçısı olmaq üçün uğursuz cəhd göstərmişdi.

tez-tez təyyarə ilə gəlirdi və daha sonra həyat yoldaşı ilə birlikdə “Xaldemanlar uçuşda” adlı kitab yazdılar[12].

Sanki Xaldeman istədiyi hər şeyə nail olmuşdu, lakin 1950-ci ildə o hər şeyi atmağa qərara alır. Həkim diplomlu siyasətçi hökümətin insanların həyatlarına qarışmasına qarşı çıxış edirdi və Kanada bürokratiyasını tənqid edirdi. Öz evində dalaşmağa, siqaret çəkməyə, Coka-Cola içməyə və təmizlənmiş undan istifadə etməyi qadağan edən bu insan, Kanadada mənəviyyatın kəskinliklə aşağı düşməsini təsdiqləyirdi. Bundan başqa, Xaldeman  macəralarsız yaşaya bilmirdi. Buna görə bir neçə ay sonra Xaldeman ailəsi öz evini, rəqs salonunu və manual praktiklərini satır və Xaldemanın heç bir zaman olmadığı Cənubi Afrikaya köçməyə qərar verdi. Skot Xaldeman atasına Bellanca Cruisare adlı ailə təyyarələrini sökməkdə kömək etdiyini və 1948-ci ildə Afrikaya göndərmək üçün onu konteynerlərə yığmalarını xatırlayırdı. Afrikaya gəldikdə ailə təyyarəni yenidən qurub ondan  yaşayış üçün uyğun yer axtarıb tapmaq üçün istifadə edirdilər. Sonda onlar Pretoriyada məskunlaşdılar, harada ki Xaldeman yenidən manual praktikanı yaratdı.

Ailənin macəra ruhu sərhədsiz idi. 1952-ci ildə Coşua və Uin Afrika üzərindən 22 min mil (35 min km) məsafəni təyyarə ilə qət edir və Şotlandiya və Norvegiyaya geri qayıdır. Uin şturman idi və hərdən öz üzərinə təyyarəçi vəzifəsini də götürürdü. 1954-cü ildə bu cütlük şəxsi rekordlarını üstələyərək 30 min mil (48 min km) məsafəni qət edərək Avstraliyaya uçub və geri dönürlər. Qəzetlər onalr haqqında yazırdılar; yaginki bu tək motorlu təyyarədə Afrikadan Avstraliyaya keçirilən yeganə uçuş idi[13].

Uçuşlardan başqa onlar həmçini piyada olaraq səyahət edirdilər – Kalaxari səhrasında İtmiş Şəhəri (onların fikrincə bu Afrikanın cənubunda olmalı idi) tapaq məqsədi ilə təşkil olunan uzun müddətli ekspedisiyalar. Bu səyahətlərin birində çəkilmiş ailə şəklində 5 uşağı Afrika savannasının ortasında görmək olur. Onlar

[12] Haldeman J. N., Haldeman W. The flying Haldemans: «Pity the poor private pilot»; self-published

[13] Onlar Avstraliyaya Afrika saillərindən Araviya yarımadası, İran, Hindistan, Malazya və Timor adasından keçərək getdilər. Səyahətə hazırlıq 1 il çəkdi – bütün lazım olan sənədlər və vizaları almaq lazım idi: bütün yol boyu onlar mədə problemlərindən və qeyri-sabit cədvəldən əziyyət çəkirdilər. “Timor dənizi üzərindən keçərkən (Hindistan okeanlnda Avstraliya və Timor adası arasında yerləşir) ata huşunu itirdi və Avstraliyaya çatmaq üçün ana təyyarənin idarəsini ələ almaq məcbur oldu. Ata təyarrənin enməsindən qabaq özünə gəldi, - danışır Skot Xaldeman. – Bu yorğunlukdan baş verdi”.

kömür ocağında qızan böyük bir metal cən ətrafında oturublar. Uaqlar çox qayğısız görünürlər, onlar ayaqlarını çarpazlayıb açılıb-bağlanan skamyalarda əyləşib kitab oxuyurlar. Arxa tərəfdə rubin qırmızısı Bellanca təyyarəsi, palatka və atomobil görünür. Görünən sakitlik arxasında  səyyahları gözləyən bir çox təhlükələr gizlənir. Bir dəfə ailənin yük avtomobili böyük bir kötuya çırpılır, maşının banperi və radiatoru möhkəm əzilir. Maşın səhranın ortasında heç bir əlaqə imkanları olmadan qalır. 3 gün Coşua maşınla məşqul olur, ailənin digər üzvləri isə ətrafda gida axtarışı ilə məşqul olur. Gecə tonqalın ətrafında giyenalar, leopardlar gəzirdi, bir dəfə səhər oyananda isə yemək masasından 3 addımında şir görürlər.  Coşua əlinə gələn ilk əşya, lampa ilə əlini sağa, sola yelləyir və şirə bağırır. Şir bir müddətdən sonra çıxıb gedir[14].

Xaldemanın övladları liberal ruhda tərbiyə almışdılar, bu tərbiyə nəsil boyu – Maska qədər onları müşayət etmişdi. Uşaqlar heç zaman cəzalandırmırdılar, çünki Coşua düşünürdü ki, onlar doğru davranışa gedən yolu özləri taplamalıdırlar. Valideynləri təyyarə ilə hara isə uçanda, onlar evdə tək qalırdılar. Skot Xaldeman xatırlamır ki, atası bir dəfə belə olsun məktəbə gəlsin, baxmayaraq ki, oğlu çox uğurlu idi: sinif nümayəndəsi, reqbi üzrə komanda kapitanı idi. “Atam bunu adi hal kimi qəbul edirdi, – deyir Skot Xaldeman - Biz düşünürdük ki, hər şeyə qadirik: sadəcə qərar alıb onu həyata keçirmək lazımdır. Bu mənada atam İlonla fəxr edərdi”.

Xaldeman 1974-cü ildə 72 yaşında dünyasının dəyişdi. Öz təyyarəsi ilə onu yerə endirməsi üzrə çalışmalr aparırdı və sütunlar arasında olan yüksək gərginlikli məftilli görmədi. Məftillər təyyarənin şassilərinə ilişir və təyyarə çevrilir. Xaldemanın boynu sınır. İlon bu zaman ilk addımlarını atırdı. Uşaq vaxtı İlon babasının nailliyyətlərinə dair çoxlu hekayələr eşidib və savannalarda səyahətləri haqqında saysız slaydşoular izləyib. “Nənəm danışırdı ki, bu cür səyahhətlər vaxtında onlar bir neçə dəfə ölüm ayağındaidilər, - deyir Mask, - Onlar təyyarəni heç bir avadanlıq olmadan idarə edirdilər, onların hətta radiosu belə olmamışdı, bir

[14] Həm Coşua, həm Uin əla atıcılar idi və atış üzrə milli müsabiqələrdə iştirak edib qalib qəlirdi. 1950-ci illərin ortasında onlar 8 min mil (12,9 min km) məsafəli  Keyptaun - Əlcəzair avtoyürüşdə professionala öz ford-universal vasitəsi ilə qalib gəldilər və birinci yer qazandılar.

tək uçuş xəritəsi əvəzinə adi yol xəritələri vardı, onlarda hr zaman doğru olmurdu. Babam məcara axtaran, qorxmaz, gözlənilməz hərəkətlər edən bir adam idi". İlon deyir ki, onun risk etmək sevgisi ona babasından keçib. Çox illər sonra İlon babasının qırmızı Bellanca təyyarəsini tapıb almaq istəyirdi, lakin ümidləri boşa çıxır.

Mey Mask, İlonun anası, öz validetnlərinə sitayiş edirdi. Gəncliyində o tipik "botanik" idi: riyaziyat nə digər elmləri çox sevirdi, yaxşı oxuyurdu. Onun 15 yaşı tamam olanda ətrafdakılar onun digər cəhətlərinə də fikir verməyə başlayırlar. Mey çox gözəl idi. Hündür boy, gözəl qamətli, saçları kül rəngində, geniş almacıqlara malik olan və azacıq yöndəmsiz olan Mey, öz rəfiqələrindən seçilirdi. Ailə dostları model məktəbinə başçılıq edirdi, Mey də orada məşqul olurdu. Bazar günləri o podiuma çıxır jurnallar üçün şəkil çəkdirir, hərdən yüksəkvəzifəli insanlarla tədbirlərdə iştirak edirdi. Beləliklə o "Miss Cənubi Amerika" titulunu alır (O bu işini 60 yaşında belə atmır, onun "Nyu York" və "Elle" jurnallarının üz qabığında şəkilləri verilir, Beyonsun klipində görünür)[15].

Mey və Erol Mask, İlonun atası, bir rayonda böyümüşdülər. Onlar ilk dəfə 1948-ci ildə anadan olmuş Meyin 11 yaşı olanda rastlaşırlar. Erol onun təhsildə olan nailiyyətlərə lageyd yanaşırdı, lakin uzun illər ona aşiq idi. "O mənim ayaqlarıma və dişlərimə vurulmuşdu" – deyirdi Mey. Universitetdə təhsil aldığı illərdə onlar bir neçə dəfə görüşürdülər. Meyin sözlərinə görə Erol 7 il ərzində onun aşiqi olur və onu axırda əldə edə bilir. "O, məndən əl çəkmirdi" –deyirdi Mey.

Onların nigahı əvvəldən asan olmur. Mey bal ayında hamilə qalır və 1971-ci ilin 28 iyununda İlon dünyaya gəlir, toylarından 9 ay, 2 gün sonra. Baxmayaraq ki, onlar nigahlarından zövq almırdılar, onların Pretoriyada gözəl həyatları var idi. Erol ofis binalarının, ticarət mərkəzlərinin, yaşayış komplekslərinin, və hətta hərbi-uçuş bazası kimi böyük tikinti layihələrində mühəndis işləyirdi, Mey isə təcrübə diyetoloq idi. Bir il sonra İlonun Kimbal adlı qardaşı, bir müddət sonra isə Toska adlı bacısı dünyaya gəlir.

---

[15] www.modelmayemusk.com internet səhifəsində Mey Maskın 1960-2010 illərini əhatə edən model portfoliosu ilə tanış ola bilərsiniz

İlon çoxbilmiş enerjili bir körpə idi. Ona hər şey çox asan başa gəlirdi, və bütün analar kimi Mey öz övladını dahi sanırdı. "O, hər şeyi digər uşaqlardan daha tez tuturdu" - deyir Mey. Onun yalnız hərdən transa düşməsi narahat edirdi. Onunla danışırsan, o isə səni eşitmir, harasa uzaqlara baxır. Bu o qədər tez-tez baş verirdi ki, valideynləri və həkimlər onda karlıq olduğundan şübhələnməyə başlayırlar. "Hərdən o bizi sadəcə eşitmirdi"- deyir Mey. Həkimlər uşağı müayinə edir və adenoidlərini götürməyi təklif edirlər, bu adətən eşitməyi yaxşılaşdırır. "Bu kömək etməyəcək!" –deyir Mey. Mey hiss edirdi ki, İlonun vəziyyəti onun eşitməsi ilə yox, beyni ilə əlaqədardır. "O öz dünyasına çəkilir, başqa dünyada olurdu, - deyir Meyş - İlon  indi də belədir. Sadəcə indi mən buna əhəmiyyət vermirəm: bilirəm ki, o ya yeni raket, ya da başqa bunuj kii bir şey haqqında düşünür".

Başqa uşaqlar İlonun bu qabiliyyətini o qədər də xoş qarşılamırdılar. Onun ətrafında tullanmaq, ona qışqırmaq olar, o isə fikir vermir. Bütövlüklə öz aləmindədir, ətrafdakılar isə düşünürdülər ki, o nəzakətsiz, tərbiyəsiz, bu dünyaya aid olmayan bir qəribdir. "İlon həqiqətən hər zamanləngilikliyi ilə fərglənirdi, - deyir Mey, - buna görə də o həmyaşıdları arasında rəğbət qazana bilmirdi".

Mask üçün bu möhtəşəm anlar idi. 5-6 yaşlarında Mask bütün düyadan özünü təcrid edib hər hansı bir məsələnin həllinə özünü tam olaraq həsr etməyə öyrəndi. Belə qabiliyyət onun beyninin vizual xarakterdə formalaşdığı və işlədiyini göstərirdi.  O fikrində dəqiq və detallı elə bir təsvirləri görə bilərdi ki, hansılar bugün kompüter proqramları vasitəsi ilə yaradılan mühəndis qrafikasına aiddilər. "Mənə elə gəlir ki, mənim, adətən visual məlumatın gəbul edilməsi ilə - təsvirin retina ilə qəbul edilməsi ilə, məşqul olan beynimin hissəsi daxili düşüncə prosesslərinə keçməyə bacarır, - deyir Mask. - İndi mən bu qabiliyyətimdən çox istifadə edə bilmirəm, çünki diqqətimi tələb edən çox şey var, lakin o zaman mən uşaqidim, belə hallar öz-özünə baş verirdi. Daxil olan təsvirləri analiz edən beyimin  böyük bir hissəsi düşüncələrin daxili prosessində istifadə edilməyə başlayır". Kompyuterlər bu iki mürəkkəb fəaliyyət növünü iki tip cipə ayırır. Təsvirlərin – axın videoların və yaxud kompyuter oyunlarının - analizini heyata

keçirən qrafik prosessorlar var, və ümumi məqsədli və riyazi əməliyyatları həyta keçirən hesablama prosessorları var. Vaxt keçdikcə Mask belə bir qənaətə gəlir ki, onun beyin qrafik cipin analoqudur. Bu ona ətraf aləmin obyektlərini görməyə, xəyalən onların digər obyektlərlə əlaqədə olarsa, necə bir dəyişiliklər baş verə biləcəyini təsəvür etməyə imkan verir. “Təsvir və rəqəmlərə gəldikdə isə, mən onların qarşılıqlı əlagələri və algoritmik əlagələrini təhlil edə bilərəm, – deyir Mask. - Sürət, impuls, kinetik enerji – mən bunların obyektə təsirini aydın görürəm”.

Gənc İlonun xasiyyətinin önəmli bir cəhəti onun oxumağa meylliyi idi. Uşaq yaşlarından o kitablardan ayrılmırdı. “O, gündə 10 saat oxuya bilərdi, – xatırlayır Kimbal. – İstirahət günləri isə o bir gündə 2 kitab oxuyurdu”. Bir dəfə ailəmiz mağazaya gedir, yarı yolda görürlər ki, İlon itib. Mey və Kimbal onu çox axtarırlar və nəhayət yaxınlıqdakı kitab mağazasındakı tapırlar: o, yerdə oturub, həmişəki trans halında kitab oxuyur.

Böyüyəndən sonra İlon məktəbdən sonra gündüz saat ikidə kitab mağazasına gedər valideynləri işdən qayıdana, axşam saat 6-ya qədər orda qalırdı. O, bədii ədəbiyyat, komikslər, elmi-populyar kitabları oxuyurdu. “Hərdən məni mağazadan qovurdular, amma adətən əl vurmurdulr” – xatırlayır İlon. Onun ən sevdiyi kitablar arasında “Avtostopla Qalaktikada” ilə yanaşı “Üzüklərin hökmdarı”, Ayzek Əzimovun “Əsas” seriasından olan kitabları, Robert Xaynlayn “Ay-qəddar ev sahibəsi” kitabları əsas yer tutur. “Bir zaman mən məktəb və rayon kitabxanalarından böyüdüm, – xatırlayır Mask. – 3-cü və ya 4-cü siniflərdə oxuyarkən mən kitabxanaçıdan mənim üçün kitablar sifariş etməyi xahiş edirdim. Və beləcə mən Britaniya ensiklopediyasını oxumağa başladım. Bu mənim üçün çox faydalı oldu! Sən axı nələri bilmədiklərini bilmirsən. Və başa düşməyə başlayırsan ki, ətrafımızda nələr var”.

Ilon faktiki olaraq iki komplekt ensiklopediyanı oxudu, və bu fədakarlığı ona dost qazanmağa kömək etmədi. Onun fotoqrafik yaddaşı var idd və ensiklopediya onu faktlar fabrikinə çevirmişdi. O, klassik “hər şeyi bilən”ə çevrildi. Bəzən olurdu, məsələn, yemək zamanı bacısı Toska Yerlə Ay arasındakı məsafə ilə

maraqladı. Həmin an İlon məsafənin perigey və apageyini dəqiqliklə deyir. “ Toska həmişə deyirdi ki, kimə nəyi bilmək lazımdırsa bizim dahidən soruşun, - xatırlayır Mey. – Biz ondan istədiyimiz sualı verəb ilərdik, o hər şeyi çox dəqiq xatırlayırdı”. “Kitab qurdu” reputasiyasını o öz kələ-kötürlüyü ilə təsdiqləyirdi. “Onu idmançı adlandırmazsan” – deyirdi Mey.

Mey danışırdı ki, bir dəfə o öz qardaşları və əmiuşaqları ilə küçədə oynayırdı. Uşaqlardan biri qaranlıqdan qorxduğunu söylədikdə, İlon ona “qaranlıq – sadəcə işığın olmamasıdır” demişdi. Bu qorxaq isə qaranlığın teoretik anlayışını yox, sadəcə onu sakitləşdirməsini istəyirdi. Uşaqlıqda hər kəsin səhvini düzəltmək İlona dost qazanmağa mane oldu. İlon həqiqətən düşünürdü ki, insanlar öz təfəkkürlərinin çatışmayan cəhədləri haqqında bilməyə şad olarlar. “Uşaqlar bunu eşitməyi hoşlamırlar. Onlar sadəcə deyirlər: “Biz artıq səninlə oynamaq istəmirik” –xatırlayırdı Mey. - Mənim ona bir ana kimi yazığım gəlirdi, çünki dostları olsun istəməyini bilirdim. Kimbal və Toska öz dost tanışlarını evə gətiridi, İlon  isə yox. O, çox istəyirdi ki onlarla oynasın lakin çox fərsiz idi”. Mey uşaqları İlonu oyunlarına  daxil etməyi xahiş edirdi. Onlar isə bütün uşaqlar kimi cavab verirdilər: “Ana, o çox darıxdırıcıdır”.  Lakin böyüyəndən sonra İlon bacısı, qardaşı, əmiuşaqları ilə yaxşı əlaqə yarada bildi. Məktəbdə çox qapalı olsa da, evdə açıq və dostpərvər idi, və sonda o, hər şeyi daha gözəl anladığı üçün evdə böyüklüyü öz üzərinə götürdü.

Bir müddət Maskın ailəsində hər şey yolu ilə gedirdi. Pretoriyada onların evi,böyük evlərdən biri idi, çünki Erolun işləri yaxşı gedirdi. Uşaqlıq şəkillərində 8 yaşlı İlon , yanında kərpic hasarın üstündə oturmuş 3 ağbəniş balacaların oturduğunu, arxada isə Pretoriyanın məşhur bənövşəyi ağacları görünür. İlonun burada girdə yanaqları, gülümsər üzü var.

Bir az sonra ailə dağıldı. Bir il ərzində valideynlər ayrıldılar. Mey uşaqları ilə birlikdə Cənubi Afrikanın şərq sahilində yerləşən Durban şəhərinə, şəhərdən kənar yerləşən evlərinə köçür. Bir neçə il sonra İlon onun atası ilə yaşamaq istədiyini bildirir. “Mənə elə gəldi ki, atam tək və qəmlidir: anamın 3 uşağı var, onun isə heç kimi yoxdur, – deyir Mask. - Mən bunu ədalətsizlik kimi qəbul edirəm”. Ailənin

bəzi üzvləri İlonun bu qərarı özü verdiyi, digərləri isə atasının anası Koranın ona təsir etdiyi söyləyirlər. “Mən başa düşmədim o, mənim onun üçün yratdığım belə xoşbəxt bir evi necə atıb gedə bilər, söyləyir Mey. – Amma İlon həmişə bildiyi kimi hərəkət edir”. Castin Mask, İlonun keçmiş həyat yoldaşı və onun 5 oğlunun anası, düşünürdü ki, İlon özünü evdə alfa-erkək kimi aparırdı, həllin emosional aspekti isə onu az maraqlandırırdı. “Onun valideynlərinin hər hansısı ilə daha yaxın olduğunu düşünmürəm”, - deyir Castin, “Maskın ailəsi soyuq və sentimentallıqdan uzaq bir ailə idi”. Daha sonra Kimbal həmçinin atasının yanına köçür, bunu, oğulun atası ilə yaşamğının daha uyğun olduğunu hesab etdiyini əsaslandıraraq.

Söhbət Eroldan gedəndə ailə üzvləri susurlar. Onlar onun ağır xasiyyətli olduğunu və onun yanında olmaq elə də asan olmadığını düşünürlər, lakin xırdalıqlara varmırlar. Erol, Meydən sonra yenə evlənir, indi İlonun daha 2 kiçik bacısı var, hansılarına o yardım edir. İlon və onun qohumları bacilarını düşünərək Erolu ictimayət qarşısında qınamamağa qərara gəldilər.

Erol haqqında aşağıdakilər məlumdur: Erolun ailəsinin kökləri cənubi Afrikaya gedib çıxır. Mask nəslinin 200 il əvvəlini izləmək olur; Masklar bəyan edirlər ki, onlar Pretoriyanın ilk telefon kitabında qeyd olunmuşlardı. Erolun atası, Uolter Henri Ceyms Mask hərbiçi-serjant idi. “O, heç vaxt danışmırdı, – xatırlayır İlon. – O, sadəcə viski içir, çox əsəbi idi lakin gözəl krossvord həll edən adam idi”. Kora Ameliya Mask, Erolun anası, İngiltərədə çox zadəgan ilədə anadan olmuşdu. O, həm oğullarına, həm nəvələrinə baxırdı. “Nənəmiz həmişə lider olmuşdu, həm də çox bacarıqlı qadın idi, - deyir Kimbal – O, bizim həyatımızda böyük rol oynamışdı”. İlon hesab edirdi ki, onun Kora və ya Nana ilə (onu belə adlandırırdı) münasibəti xüsusi yaxın olmuşdu. “Valideynlərimin ayrıldığından sonra o mənim qayğıma çox qalırdı. O, məni məktəbdən götürür, gəzdirir və skrebl[16] oynayırdı və s.”.

İlk baxışdan Erolun ailəsində vəziyyət əla görünürdü. Onun çoxlu kitabları var idi, hansıları ki İlon bir-bir oxuyurdu, kompüter və digər şeylər üçün İlona

[16] İngilis söz oyunu; rus naloqu “Erudit” oyunu

lazım olan pulu da var idi. Erol uşaqlarını müxtəlif xarici səfərlərə aparırdı. “Çox gözəl zamanlar idi, – deyir Kimbal. – Mənim çox gözəl təəsuratlarım qalıb”. Erol intellekdən başqa övladlarına praktik dərslər də verirdi. “O, istedadlı mühəndis idi”, – deyir İlon. – O, hər bir fiziki obyektin necə işlədiyini bilirdi”. İlon və Kimbal tez-tez atalarını iş yerinə gəlir, onun müxtəlif iş fəaliyyəti ilə maraqlanırdılar: onlar kərpic hörməyi, santexnika quraşdırmağı, pəncərə çərçivəsini qurmağı, elektrik xəttini çəkməyi öyrənirdilər. “Bu bizə xoş gəlirdi” – deyir İlon.

Kimbal deyirdi ki, Erol “hər şeyə çatırdı”. O İlon və Kimbal oturdurdu, onlarla 3-4 saat tərbiyyələri ilə məşqul olurdu, onlar bir söz belə deyə bilmirdilər. Elə bil ki, o oğlanları ciddi halda saxlamaqdan, onları adi uşaqlıq əyləncələrindən təcsid etməkdən zövq alırdı. İlon tez-tez atasını Amerikaya köçməsini və ABŞ-da yaşamaq istədiyini bildirirdi. Erol onun bu fikrinə qarşı çıxır və ona dərs vermək qırarına gəlir. O, evdəki qulluqçuları evdən çıxarır, bütün ev işlərini onların əvəzinə İlonun etməyini məcbur edir: qoy bilsin “Amerikalı olmaq” nə deməkdir.

İlon və Kimbal atalarının bu xarakterini anlatmaq istəməsələr də, onların travmatik “zərbə” aldıqları aydın idi. Hər ikisində psixoloji əzab təəssüratı qaldi. “O biraz qeyri adi insan idi, – deyir Kimbal. – Bu İlon ilə mənədə keçib. Və bu sərt tərbiyyə bizi biz etmişdi”. Erol haqqda danışanda Mey çox qərqinləşir. “Onunla heç kim yaşaya bilmir, – deyir Mey. – Çətin adamdır. Heç bir şey danışmaq istəmirəm çünki bu dəhşətlidir. Bilirsiz, bu hqda danışmaq lazım deyil, necədə olsa uşaqları, nəvələri...”

Eroldan İlon haqqında danışmağı xahiş edəndə o elektron poçt iə cavab verdi: “Birlikdə yaşayanda İlon çox müstəqil və məqsədyönümlü uşaq idi. O, kompüter elmləri ilə maraqlanırdı, o zamanlar Cənubi Afrikada isə bunun nə demək olduğunu belə bilmirdilər; 12 yaşına yaxın onun qabiliyyəti artıq geniş tanınırdı. İlon və Kimbalın uşaqlıq və gənclik illərində bir çox şeylərə maraqları var idi, nəyinsə birinin adını çəkmək çətindir. 6 yaşlarından bəri onlar mənimlə birlikdə Cənubi Afrika və ondan kənarda səyahətlər etmişlər. Mən ata kimi çox sevinirəm

ki İlon və onun bacı, qardaşı hər sahədə öndə olmaqla ən yaxşı olub və olacaqlar. İlonun nail olduqları ilə fəxr edirəm”.

Erol məktubun surətini həmçinin İlonuna göndərmişdi, o isə məni atası ilə məktublaşmağı məsləhət bilmədi, çünki atasının keçən hadisələrin qavrayışına etibr etmək olmaz. “O bu dünyanın adamı deyil, - dedi İlon. – O normal düşünə biımir”. Bundan artıq danışmaq istəmədi.

“Demək olar ki, mənim uşaqlığımı yaxşı olmayıb. Təsvirə görə o yaxşı kimi görünə bilər, lakin xoşbəxt deyildim. Daha dəgig olsaq uşaqlığım əzablarla dolu idi. Atamız həyatımızı dözülməz etməyə əla bacarırdı. O, istənilən ən yaxşı situasiyanı heçə çevirə bilər. O, bədbəxt insandır. Mən bilmirəm bir insan nece bele ola bilər. Gəlin çox dərinə getməyək”. İlon və Castin and içiblər ki, onların övladları heç vaxt Erolla görüşməyəcəklər.

İlonun 10 yaşı olanda o ilk dəfə Yoxanesburgda Sandton City hipermarketində kompüter görmüşdü. “Bu elektronika dükanı idi, harada əsasən yüksək keyfiyyətli audio cihazlar satılırdı, bir küncündə isə bir neçə kompüter qoyulmuşdu, – Mask xatırlayır. O dəhşətə gəlmişdi: “Wow, - mən düşündüm. - Bax, budur o maşın ki, insanların arzularını yerinə yetirmək üçün istifadə etmək olar! Mənim belə maşınım olmalıdı!” “Və mən atamdan mənə bu möcüzəni almağa yalvardım” – söyləyir Mask. Tezliklə o, 1980-cı ildə satışa buraxılan Commodore VİC-20 tipli ev kompüteri əldə etdi. Kompüterin 5 kilobayt yaddaşı varidi. Beysik dilində aparılan proqramlaşdırma üzrə dərs vəsaiti ilə satışda idi. “Bu kursu öyrənmək üçün ən azı 6 ay lazım idi, –xatırlayır İlon. – Mən kompüterin üstünə manyak kimi atıldım və 3 günə onu öyrəndim. Həyatımda bu qədər cəlbedici, heyranedici heç bir şey görməmişdim”. Baxmayaraq ki İlonun atası mühəndis idi onun maşınlara qarşı laqeydlik nümayiş etdirirdi. İlon xatırlayır ki, atası dediki bu oyunlar üçün yaranıb, mühəndis problemlərinin həlli üçün yox. “Mənə fərq etməz!” dedim.

“Kitab qurdu” olmağına və həmçini kompyuter ilə maraqlandığına baxmayaraq İlon tez-tez Kimbalı və əmisi uşaqları (Keyin uşaqları) Ras, Lindon və Piteri, avantyuraya çəkirdi. Bir dəfə onlar Pasxa yumurtalarının satışını təşkil

etmişdirlər. Yunurtalar o qədər də gözəl bəzədilməmişdi, lakin onlar varlı qonşularına onları 3 qat bahasına sata bildilər. Hətta İlon evdə partlayıcı və raketlərin istehsalına başçılıq edir. Cənubi Afrikada həvəskarlar arasında populyar olan “Estes” qurğulu raket toplusu mövcud deyildi, buna görə kimyəvi birləşməsini yaradıb onları konteynerlərə yerləşdirməli oldular. “Təəcübləndirir ki, nələri partlatmaq olar! – İlon xatırlatyır. – Barıtı selitradan, kükürd və odun kömüründən düzəldirlər, lakin güclü turşu ilə güclü qələvini birləşdirsək çox böyük energiyanın çıxışına şahid olarıq. Qranullu xlor ilə tormoz maddəsinin birləşməsi böyük bir təəsurat yaradır. Mənim bəxtim gətirdi ki, barmaqlarım yerindədir”. Partlatılacaq heç bir şey olmayanda, oğlanlar bir neçə qat paltar geyinib bir-birinin üzərinə pnevmatik silahdan atəş açırdılar. İlon və Kimbal öz velosipedləri səhralıklarda sürürdülər o günə gədər ki Kimbal velosipetindən yıxılıb tikanlı məftildən olan hasara çırpdıldı.

İllər keçirdi, qardaşların sahibkarlıq axtarışları daha ciddi şəkil alırdı, hətta bir zamanlar onlar oyun avtomat zalı açmaq fikrinə düşmüşdülər. Valideynlərinin xəbərələri olmadan onlar bu cür zal üçün uyğun olan zal tapıb, icarə müqaviləsini bağlamış, biznesi aparmaq üçün zəruri olan icazəni almaq üçün müraciyət etmişdilər. Axırda yetkinlik yaşına çatmış bir nəfər onların yerinə hüquqi sənədə qol çəkir, lakin nə Riv qardaşlarının atası nə də Erolun xəbəri olmur. İki onillik sonra İlonla Riv qardaşları sonunda birgə biznesə başladılar.

Onların ən ağlasığmaz cəsarəti onların Pretoriya ilə Yoxanesburq arasındakı səyahətləri idi. 1980-cı illərdə Cənubi Afrika cinayətkarlıq üzrə çox seçilirdi, qatarla Pretoriyadan Yoxansburqa getmək (35mil, 56 km) dünyanın ən təhlükəli marşrutlarından biri sayılırdı. Kimbal hesab edirdi ki, bu cür səyahətlər İlonla ona vacib təcrübə verir. “Cənubi Afrika səyahət üçün xoşagələn yer deyildi, və bu bizə çox təsir edirdi. Biz çox şey görmüşdük. Düşünürdük ki, aldığınımız qeyri-adi tərbiyə öz biruzəsini göstərdi: üzərimizdə aparılan sonsuz eksperimentlər bizim risklərə münasibətimizi dəyişirdi. Siz həyatda ən çətin şeyin yaxşı işi əldə etmək olduğunu düşünməyərək yaşa dolursuz. Bu o qədər də maraqlı deyil” – deyirdi Kimbal.

Yoxanesburqda 13-16 yaşlı oğlanları yalnız müxtəlif gecələr, əyləncələr maraqlandırırdı. Belə bir gecələrin birində oğlanar "Əjdaha və yeraltı yuvalar" yarışına gedirlər. "Biz, botaniklər üçün bu çox əsrarəngiz bir şey idi" – deyir Mask. Oğlanlar rol oyunlarında iştirak edirdilər. Bu oyunlar hər hansı bir səhnəni təsəvvür edib müəyyən bir əhval yaratmağa tələb edirdi. "Siz otağa girirsiz: küncdə bir sandıq durur. Sizin reaksiyanız? ... Siz sandığı açırsız. Bu tələdir! Siz azadlığa onlarla qoblinləri (anormal, balaca insanlar) buraxırsız". İlon burada yeraltı dünyanın ustadı rolunda uğur qazanır, o monstrları və digər personajlarının səlayihhətlərini detallaşdıran mətnləri əzbər öyrənib. "İlonun başçılığı ilə biz öz rolumuzu o qədər yaxşı oynadıq ki, yarışmanı qazandıq, – deyir Piter Riv. – Qalib olmaq üçün çox qeyri-adi təxəyyül lazım idi, İlon isə bunu əla bacarırdı".

İlon və onun dostlarının məktəbdə məşğul olduqları işlər daha az maraqlı idi. Yeniyetməlik zamanı İlon bir neçə məktəb dəyişmişdi. 8-9-cu sinifləri o Braystonun ali məktəblərinin birində oxumuşdu. Günün birində İlon və Kimbal beton pilləkənlərin üstündə İlon və Kimbal ayaqüstü yemək yeyirdilər və oğlanlardan biri İlona sataşmaq istədi. "Mən həmişə belə kompaniyayalardan uzaq gəzirdim, amma onlar hər zaman mənə ilişirdilər. Fikirləşirəm ki, yəgin səhər iclasında mən qolumla o oğlana bilmədən toxunub itələmişəm, bu da bunu unutmadı" – deyir İlon. Oğlan arxadan Maska gizlincə yaxınlaşıb, ayağı ilə onun başına vurur və pilləkəndən aşağı itələyir. İlon sürətlə yerə dəydi, və bir neçə oğlan onun üstünə düşüb ayaqları ilə təpikləməyə başlayır, başçıları isə onun başını yerə çırpırdı. "Alçaq psixlər, – deyir Mask. – Mən huşumu itirdim". Kimbal qorxu hissi ilə bu səhnəyə tamaşa edirdi, qorxurdu ki, onlar İlonu öldürəcək. O, özünü pilləkənlə yerə atdı, İlonun sifəti qan içində idi, üzü şişmişdi. Kimbal deyir ki, "O, boks yarışmasından dönən bokserə bənzəyirdi". İlon xəstəxanaya düşür. "Mən 1 həftə məktəbə gedə bilmədim" – xatırlayır Mask (2013-cü ildə keçirilən press-konfransda o əzik və qırıqlardan sonra o bir neçə rinoplastika etdirdiyindən söz etmişdi).

Bu xuliqanlar hələ 3-4 il də Maskdan əl çəkmirdilər. Onlar hətta Maskın ən yaxın dost saydığı oğlanı da döyürdülər, o zamana gədər ki həmi oğlan onunla

dostluğu kəsdi. "Bundan başqa o alçaqlar məni yenidən döymək üçün dostumu - ən yaxşı dostumu məcbur edirdilər ki, məni gizlənədiyim yerdən çıxarsın, - xaırlayır Mask. Mənə daha ağır zərbə vurdular".

Bunları danışanda Maskın gözləri yaşarır və səsi tirəyir. "Nəyə görəsə onlar mənim sonuma yetməyi istəyirdilər və məni dayanmadan güdürdülər". İlonun yeniyetməlik dövrü çox çətin keçir. "Bir neçə il mən nəfəs almadan yaşayırdım, məktəbdə bu banda məni rahat buraxmır, evdə isə vəziyyət bundan da betər idi. Sonu görünməyən bir dəhşət!"

Böyük sinifləri Mask Pretoriyada oğlanlar üçün məktəbdə oxuyur; artıq o böyümüşdü və daha möhkəm olmuşdu, orada isə vəziyyət daha yaxşı idi, artıq həyat yoluna düşürdü. Bu məktəb əslində ictimai məktəb idi, lakin artıq 100 ildən çox o özəl məktəb kimi fəaliyyət göstərirdi. Adətən yeniyetmələri bura Oksford və Kembric universitetlrinə daxil olmaq üçün hazırlaşmağa göndərirdilər.

Sinif yoldaşları Maskı sakit, heç kimdən seçilməyən yaraşıqlı bir oğlan kimi xatırlayırlar. "Orada 4-5 oğlan var idi ki, onların gələcəyi parlaq görünürdü, – deyir Deon Prinslu, bəzi dərslərdə İlonun arxasında əyləşən məktəb yoldaşış. - İlon bunlara aid  edilmirdi". Bunu onunla yanaşı bir çox oğalnlarda deyirdilər. Onlar həmçinin qeyd edirlər ki, Maskın idmana marağı olmadığından fiziki tərbiyyə kultundan uzaq qalırdı. "Açıq söyləsək, onun milliarder olacağına heç bir şey işarət etmirdi, - deyir Qideon Furye, onun başqa sinif yoldaşı. – Məktəbdə o heç vaxt üstünlük əldə etmirdi. Onunla baş verdikləri məni çox təəcübləndirdi".

Maskın məktəbdə yaxın dostu olmadığına baxmayaraq onun eksentrik maraqları hər kəsi cəlb edirdi. Oğlanlardan biri - Ted Vud - xatırlayır ki, Mask məktəbə raket modelləri gətirirdi və tənəffüsdə onları buraxırdı. Bu, onun maraqlandığı tək şey deyildi. Bir dəfə sinifdə elmi debatlar zamanı İlon öz fikirləri ilə diqqətimizi çəkdi: o, yeraltı qazıntı yanacaqları əvəzinə  günəş enerjisi leyhinə çıxış etdi – bu, demək olar ki, təbii sərvətlərin çıxarılması ilə məşqul olan ölkədə münkircəsinə bir pozisiya idi. Vud deyir: "Onun həmişə hər şeyə öz baxışı var idi". Onun sinif yoldaşı Terensi Beni hansı ki, sonralar da İlonla əlaqə saxlayırdı deyir ki, onun hələ məktəbdə digər planetlərdə kolonizasiya haqqda fikirləri var idi.

Gələcək üçün daha bir işarə: İlon və Kimbal tənəffüsdə bir şey haqqınd çox qızğın müzakirə aparırdılar. Vud söhbətlə maraqlanır. Onlar cavab verir: "Biz maliyyə sektorunda bank filiallarına nə dərəcədə ehtiyacın olması və kağızsız bank əməliyyatlarına keçib keçməyəcəyimiz haqqında düşünürük". Xatırlayıram ki bunun mənasız olduğunu düşündüm, lakin "Əladır!" deyə cavab verdim[17].

Baxmayaraq ki Mask oxuduğu sinifin akademik elitasına daxil deyildi, o yaxşı qiymətlər alan tələbələr sırasında idi, və öz gücü ilə kompüterlər üzrə eksperimental proqrama daxil oldu. Müxtəlif məktəblərdən yığılmış şagirdləri Beysik, Kobal və Paskal proqramı öyrədən sinfə salmışdılar. Maskın texnologiyaya olan meyli onun elmi fantastikaya və fenteziyə olan istəyi ilə tamamlanırdı, o əjdahalar və digər qeyri-adi şeylər haqqında əhvalatlar yazmağa çalışırdı. Mən "Üzüklərin hökmdarı" kimi bir kitab yazmaq istədiyini" – deyir Mask.

Mey, oğlunun məktəb illərinə ana gözü ilə baxır və qazandığı nailiyyətlər haqqında çoxlu əhvalatlar danışır. Mey deyir ki, İlonun yazdığı kompüter oyununa baxanda, deyərsən ki, bunu yaşca böyük və çox təcrübəli texniki bilikli biri yazıb. O, riyaziyyat imtahanını böyük siniflər üçün olmasına baxmayaraq öhdəsindən gəldiyini deyir. Onun ağlasığmaz yaddaşı var idi. Onun sinif yoldaşlarından üstün olmamasının yeganə səbəb  o idi ki,  məktəbdə dərs deyilən heç bir fənnə maraqı yoxidi.

Mask deyir "Mən bu işə bu çür baxırdım: istədiyim yerə qəbul olunmq üçün mənə hansı qiymətlər lazımdır? Bəzi məcburi fənlər var idi, məsələn Afrikan dili, lakin onunla məşqul olmaq mənə gülünc gəlirdi. Yalnız keçid bal yığmaq kifayət idi! Mənim fizika və kompüterlərə dair fənnlərdən ola biləcək ən yüksək balım var idi. Yaxşı oxumaq üçün bunu istəmək lazımdır. Mən lazım olmayan sahədə yüksək bal toplamaqdansa, kompüterdə oyunlar oynamağı, proqram yazmağı, kitab oxumağı, daha üstün tuturam. Yadımdadır ki, 4-5-ci sibiflərdə mən imtahandan kəsilirdim. Anamın dostu mənə dedi ki, o imtahanları verməsəm məni ikinci ilə saxlayacaqlar. Doğrudanda, mən bilmirdim ki, sinifdən-sinifə keçmək üçün bütün

[17] Mask məhz bu söhbəti hatırlaya bilmədi. "Məncə bunu biraz uydurublar, - qeyd edir Mask. – Amma hər şey ola bilər. Məktəbdə son illərim ərzində kənardan başa düşülməyən çoc söhbətlər aparmışam, lakin daha çox bakn işi yox, ümumi texnologiya ilə maraqlanırdım".

fənnlərdən yüksək bal yığmaq laımdır. Sonralar bu fənnlərdən mən çox yüksək ballar yığdım".

17 yaşında Mask Cənubi Afrikadan Kanadaya gedir. O, bu səyahət haqqında pressada tez-tez danışır və bu qaçışın iki motivi olduğunu deyir. Birincisi o idi ki, Mask nəgədər tez olsa ABŞ-na getməyi istəyirdi, Kanadadan isə onun Kanada köklərinin mövcud olmasından tramplin kimi isitifadə edirdi. Maskın arxalandığı ikinci əhvalatı isə dünyagörünüşü səpkilidir. Cənubi Amerikada o zaman hərbi xidmətdən keçmək lazım idi. Mask isə hərbi qüvvələrə girmək istəmirdi, çünkü bu onun apartaid rejimində iştirak edəcəyi anlamına gəlirdi.

Çox az qeyd olunur ki, Mask öz böyük avantyurasını həyata keçirmədən öncə 5 ay Pretoriya Universitetində oxumuşdu. O, fizika və maşınqayırmanı öyrənməyə başlayır, lakin çox həvəsli deyildi və bir az sonra Universiteti atır. Mask deyir ki, o universitetdə Kanada sənədlərini düzəldənə qədər oxumuşdu. Başqa tərəfdən isə Mask Universitetdə hərbi xidmətdən yayınmaq üçün vaxt keçirdiyini bildirildi. Bu, Maskın yaradmağa xoşladığı düşüncələrlə məşqul olan fədakar romantik obrazına çox zidd idi. Ola bilsin, buna görə onun natamam Universitet təhsilinə dair o qədər də çox danışılmır.

Şübhəsiz Mask uzun zamandır çox böyük səylə Birləşmiş Ştatlara gedmək istəyirdi. Onun kompüterə və texnikaya olan böyük həvəsi onu Kremni Vadisinə çəkirdi. Amerika ən ambisioz arzuların həyata keçirmək üçün ideal yer sayılırdı. Cənubi Afrika isə əksinə sahibkrlıq üçün daha az imkanlar yaradırdı. Kimbalın dediyi kimi, "Cənubi Afrika İlon kimiləri üçün həbsxanadır".

Köçüb getmək imkanı qanunvericilidə Meyə öz Kanada vətəndaşlığını övladlarına keçirməyi mümkün edən dəyişiklikdən sonra yarandı. Mask vxt itirmədən sənədlərin hazırlamasına başlayır. Kanada hökümətindən sənədlərin təstiqini almaq və pasportu almaq təxminən bir il çəkdi. "O vaxt İlon dedi, - mən Kanadaya gedirəm" – xatırlayır Mey. O zamanlar internet yox idi, və Mask təyyarə biletini 3 əzablı həftə ərzingə gözlədi. Bileti əldə edən kimi tərəddüdsüz evi tərk etdi.

# 3. Kanada

Maskın Kanadaya möhtəşəm qaşışını düşünülmüş adlandırmaq düzgün olmazdı. O Monrealda anasının dayısı olduğunu bilirdi , bəxtini sınayaraq təyyarəyə mindi. Təyyarə endikdən sonra(1988-in iyun ayı idi), Mask telefon avtomatıyla məlumat bürosundan anasının dayısını tapmaq qərarına gəldi. Bu iş alınmayınca, Mask anasına zəng etdi. Mey (Maskın anası) dayısına məktubu oğlu yanındaykən göndərmişdi,lakin məktuba cavab, artıq Mask yolda olanda gəldi. Maskın qalmağa yeri yox idi,çünki anasının dayısı Minnesotaya köçmüşdü.Çantaları əlində,mask yaxındakı xostelə tərəf yol aldı.

Bir neçə gün Monrealla tanışlıq zamanı, Mask gələcək planlarını müəyyənləşdirdi. Mask Kanadaya səpələnən Meyin qohumlarını axtarmağa başladı.100 dollara ölkənin gər yerində işləyən limitsiz bilet alaraq, babasının əvvəllər yaşadığı Saskaçevana yola düşdü.1900 mil( 3060km -ə yaxın) yol qət etdikdən sonra, o ,əhalisi 15 min nəfər olan Suift- Karrentə çatdı. Avtostansiyadan qohumuna zəng etdi və avtostopla onun evinə getdi. Növbəti ili Mask bir günlük işlərlə qazandığı qəpik-quruşla dolandı. O tərəvəz əkir, bəzən də qohumunun yaşadığı Valdek şəhərciyindəki fermasında əkinlə məşqul olurdu. 18 yaşını qohumları və onların dostlarıyla qeyd etdi.

Bir az keçdikdən sonra, o bir müddət Vankuvrdəki meşəqırmada mişarla rəftar etməyi öyrəndi.İşin çətinliyi o, məşğulluq xidmətinə müraciət və yaxşı maaşla iş xahiş edərkən başladı. Bu da saatı 18 dollara meşəqırma idarəsində qazanxanada təmizlik işi oldu. “Qoruyucu dəsti geyinib, ensiz dalanla iməkləməlisən,- deyir Mask. Sonra bellə qum, palçıq hisli kömürü həmin gəldiyin dəlikdən atmalısan. Geri çəkilmək mümkün deyildi. O biri başda isə, kimsə onu arabaya doldurmalıdı. Orda yarım saatdan artıq qalsan isti elə vurur ki səni, ölə bilərsən. Həftənin əvvəlində işə başlayan 30 nəfərdən, üçüncü günə 5 nəfər qalmışdı. Həftənin sonuna qədər ancaq Mask və 2 kişi dözə bildi.

Mask Kanadanı gəzərkən,onun qardaşı, bacısı və anası ora necə yerləşəcəklərini aydınlaşdırırdı18. Kimbal və İlon Kanadada görüşəndə sevinclərinin həddi hüdudu yox idi. Burada bu iki inadkarın arzularının reallaşması üçün şərait də var idi.

Nəticədə, İlon 1989-cu ildə Kingstonda yerləşən Kral universitetinə daxil oldu. (Onun seçimi Vaterloudakı Kral universiteti olub, çünki orda qəşəng qızlar oxuyurdu.) Boş vaxtlarında İlon və Kembl qazetlərdə tanış olmaq üçün maraqlı insanlar haqqında məqalələr axtarırdılar. Onlar bu insanların telefonlarına zəng edərək, nahar etməyə dəvət edirdilər. Həmin insanların içində profesional “Toronto Blue Jays” marketinq şöbəsinin rəhbəri, Kanadanın gündəlik ” The Globe and Mail” qəzetinin biznes icmalçısı və “Nova Skot” bankının meneceri Piter Nikolson da, var idi. Bankın rəhbəri Nikolson gənclərin zəngini yaxşı xatırlayırdı. “Mən adətən gələn dəvətləri rədd etmirəm , bu cür təşəbbüskar oğlanlarla nahar etməyə isə, dərhal razılıq verdim.” – deyir Nikolson.

Nikolsona özünün iş cədvəlində onlara yer ayırması üçün altı ay vaxt lazım oldu və qardaşlar üç saatlıq qatar səyahətindən sonra, tam vaxtında, görüş yerindəydilər. Nikolsonun Mark qardaşları ilə ilk tanışlığı onda yaxşı təəssürat yaratdı. Onların hər ikisi özlərini yaxşı təqdim etdilər və son dərəcə nəzakətli idilər. İlon, xarizmatik və görkəmli görünüşü olan Kimbalın yanında, bir az, kölgədə qalırdı. O, həmişə olduğu ekssentrik və astagəl idi. “Mən onlara heyran olmuşdum,-deyə, Nikolson xatırlayır: - çox məqsədyönlüydürlər.” Nəticədə, Nikolson, İlonu yay təcrübəsi keçmək üçün ,banka dəvət etdi.

İlk görqşdən sonra, İlon Piter Nikolsonun qızı Kristini öz doğum günü partisinə dəvət etdi. Kristi əlində evdə bişmiş limon mürəbbəsi Meyin Torontodakı evinin dəhlizində görünən kimi, onu İlonla bərabər, 15 qonaqı da salamladı. İlon bu vaxta qədər Kristi ilə heç görüşməmişdi, amma yaxınlaşıb onu divana tərəf aparmağa özündə cəsarət tapdı. “Mənə elə gəlirki, onun mənə növbəti müraciyəti : Mən beynimdə elektrik avtomobilləridi ,və sonra, mənə tərəf

---

[18] Mey Kanadada yaşamağa yer axtardığı müddətdə ,14 yaşlı Toska Cənubi Afrikadakı evi satışa çıxarır.” O mənim maşınımı satmışdı və evdəki mebelləri də satmaq istəyirdi.Mən ondan bunu nədən etdiyini soruşanda, o belə cavab verdi:” Burdan getmək lazımdı,gözləməyin mənası yoxdu“.

çevrilərək : Siz elektrik avtomobilləri haqqında nə düşünürsüz? – deyə,soruşdu" . Maks Kristidə gözəl, qabiliyyətli gənc təəssüratı yaratmışdı." Siz Maskın fərqli olduğunu deyəcəksiz, lakin həmin söhbətdən sonra, o, məni əsarətinə aldı."

Üzünün cizqiləri və açıq rəngli saçları ilə Kristi Maskın xoşuna gəlirdi . Kanadada yaşadığı müddətdə onlar əlaqəni itirmədilər. Onların arasında romantik münasibətlər yaranmasa da, Kristi Markda kifayət qədər maraq yaratmışdı ki, onlar uzun-uzadı telefonla danışa bilirdilər. "Bir gün o mənə-görəsən mən yemək vaxtını işləməyə sərf edərək orqanizmimə lazımi maddələri kaş ki ala biləydim,-dedi . Onun gənc olmasına baxmayaraq, işə bu cür münasibəti məni heyran edirdi."-deyir Kristi.

Kanadada olduğu müddətdə Maskla və Castin Uilson arasında çox dərin münasibət yarandı. O, Maskla Kral universitetində eyni kursda oxuyurdu. Uzun ayaqları, şabalıdı qalın saçlarıyla Uilson çox seksual görünürdü. Castinin artıq özündən yaşca böyük bir kişi ilə eşq yaşamışdı və universitetə daxil olanda onlar artıq ayrılmışdılar. Onun növbəti hədəfi Ceyms Din19 kimi dəri gödəkçəli, ehtiraslı və dəlisov biri olmalı idi. Amma tale elə gətirdi ki, kampus daxilində o qamətli, səliqəli və cazibədar Maska qismət oldu. Mask onu görən heyran oldu və ,dərhal, görüşə dəvət etdi. Mask o günləri belə xatırlayır: " O çox cazibədar olduğu qədər də, ağıllı idi. O, teykvando üzrə qara kəmər ustası, həyat tərzi, isə, yüksək dairələrə aid idi, necə deyərlər, super qız tapmışdım !" Mask, yataqxananın qarşısında onunla qəsdən toqquşaraq, özünü elə göstərdi ki, guya bu təsadüfən alındı. Sonra isə: " Biz sizinlə, bundan əvvəl görüşmüşük?"- deyə soruşdu. Castin Maskın birlikdə dondurma yemək təklifini qəbul etdi. Castini götüməyə gələn Mask, qapıda üzərində : "görüş alınmayacaq, imtahanlara hazırlaşmalıyam və çox təəssüf edirəm "- yazılı bir kağız parşası qoyulmuşdu.

Mask onun rəfiqəsi ilə tanış olur, Castinin adətən harda imtahana hazırlaşdığını və hansı dondurmanı xoşladığını öyrənir. Bir azdan əlində iki şokoladlı dondurmayla Mask,

[19] Ceyms Din( 1931-1955)- 5—ci illərdə "Cənnətdən şərgə", " Səbəbsiz üsyançı" və" Qiqant" Hollivud filmlərindəki rollarıyla məşhurluq qazanmış amerika aktyoru.

universitetin mədəni mərkəzində ispan dili imtahanına hazırlaşan Castinin arxasında peyda oldu.

Uisonun arzusu yazıçı ilə çılğın eşq yaşamaq idi . O : “ Mən istəyirdim ki, hər şey “Ted və Silviya” romanındakı kimi olsun. Nəticədə, məndən əl çəkməyən ambisiyalı botanikə aşiq oldum”- deyir . Onlar patopsixologiya dərsində oturub, aldıqları qiymətləri muqaisə edirdilər: Castin-97, Mask-98. ” O, professorun yanına qayıdaraq, ondan daha iki bal əlavə alır, və ,nəticədə -100 balla geri dönür. Bu, bizim bir-birimizə rəqib olduğumuza da bənzəyir” -deyə Castin xatırlayır. Maskin romantik tərəfidə də var. Bir dəfə o, Uilsona hər birinə ayrı-ayrılıqda qeydlər bağlanmış qucaq dolusu qızılgül və romantik fikirlər yazılmış “Peyğəmbər”- dən bir nüsxə göndərdi. “Mask özünə aşiq etməyi bacarır” – bunu Castin deyir.

Universitet illərində cavanlar ya birləşir, ya da, ayrılırdılar, və bu zaman əlaqələrin bərpası üçün Maskın üzərinə böyük iş düşürdü. Mey xatırlayır ki, Castin dəblə geyinirdi və görüşdüyü oğlanlar da, özü kimi idi. Maskla isə heç maraqlanmırdı. Ona görə də Castini əldə tutmaq Maska çətin başa gəlirdi. . Bir neçə dəfə Mask bir neçə qızla görüşməyə cəhd göstərdi ,lakin Castini heç kimlə əvəz edə bilmədi . Hər dəfə qız soyuq münasibət nümayiş etdirəndə, Mask cazibə qüvvəsini artırırdı. “O çox təkidlə zənglər edir. Şübhəsiz ki, ara vermədən zəng edən,yalnız İlon ola bilər. O,“ yox” sözünü başa düşmürdü,çünki terminatordu, “mənimkidi” dediyini almadan ,əl çəkməz. O, məni də, tədricən məftun etdi.” -deyir Castin.

Universitet Maskı qane edirdi. O, nəinki özünü çox bilmiş kimi göstərməyə can atır, o, həm də, onun yüksək intellektual bacarıqlarını qiymətləndirəcək insanlar axtarıb tapırdı . Universitet tələbələri alternativ enerji, kosmos və digər sonsuz müzakirələrə rişxənd edird idilər. Mask onun maraqlarına qarşılıqlı cavab verən, onu ələ salmayan anlayışlı insanlarla qarşılaşırdı və bu mühitdən də qidalanırdı. 1990- ci ilin payızında Cenevrə şəhərində böyümüş kanadalı Navaid Faruk Maskın yataqxana yoldaşı oldu. Gənclər kanadalı tələbələrin öz otaqlarını xarici tələbələrlə bölüşürdükləri beynəlxalq seksiyalarda qalırdı .Mask kanadalı

sayılsa da, onun bu ölkə haqqında anlayışı yox idi. “ Mənim otaq qonşum Honkonqlu yaxşı oğlan idi – deyə Mask xatırlayır, – o vicdanla bütün sessiyalarda iştirak edirdi.- Mən isə, az-az gedirdim.” Mask vaxtaşırı yataqxanada qazanc üçün kompyuter və onun hissələrini satırdı.- Mən avtomat oyunundan tutmuş, elektrik yazı makinasına qədər,mağazadan ucuz qiymətə istənilən hər şeyi öz əlimlə yığa bilərdim,- deyir Mask .- kompyuter söküb yığmaq, virusu yox etmək və sair. Mən kompüterlə bağlı hər bir, problemi həll edirdim.”

Maskla Faruku bir-birinə bağlayan əvvəllər ikisində də xaricdə yaşaması , “ strateji masaüstü” oyunlara olan maraqları idi. “Mən hesab etmirəm ki, o, kiminləsə asanlıqla dostlaşır, amma dost olduğu insana çox sadiq qalır” - deyə, Faruk xatırlayır. “Sivilizasiya” kompyuter oyunu meydana gələndə , dostlar saatlarla öz imperiyalarına qapanır,Farukun sevgilisi isə , bir qıraqda yalnız qalaraq, darıxmağa məhkum olurdu.

“İon hərdən elə məşğul olurdu ki, o dünyanın mahiyyətini, əhəmiyyətini unudurdu” - deyir Faruk. Dostları onların həyat tərzi qane edirdi,belə ki onlar əyləncəli gecələrdə belə yalnız olsaq da,darıxmarıq. Biz öz fikirlərimizə qapılmış olsaq da, özümüzü təcrid olunmuş hesab etmirdik

Mask universitetdə məktəbdə olduğundan daha səliqəli idi. O, biznesi öyrənirdi, oratorluq incəsənəti müsabiqələrində iştirak edirdi və indiyədək onun xəsiyyətinə xass olan enerji və rəqabətqabililiyətliyi göstərməyə başladı. İqtisadiyyat imtahanından sonra Mask, Faruk və bir neçə başqa tələbələr yataqxanaya qayıdaraq təəssüratlarını bölüşürdülər. Çox tezliklə məlum oldu ki, Mask materialı hər kəsdən daha yaxşı bilir. Farux deyirdi: “Bu qrup kifayət qədər yüksək müvəffəqiyyət qazanmış tələbələrdən ibarət idi, buna baxmayaraq İlon ümumi fonda fərqlənirdi”. Maskın marağı dərin və möhkəm idi. “İlon nə iləsə məşğul olursa, işin dərinliyinə başqalarından daha çox varır. Məhz bu İlonu bəşəriyyətin qalan hissəsindən fərqləndirir.

1992-ci ildə, Kral universitetində iki il təhsil aldıqdan sonra Mask Pensilvaniya universitetindən təqaüd aldı və oraya yollandı. Mask hesab edirdi ki,

Daşsarmaşığı Liqasına20 daxil olan universitet əlavə imkanlar yarada bilər. O, qərar alır ki, iki ixtisas – fizika və iqtisadiyyat üzrə eyni zamanda bakalavr dərəcəsini alsın. Castin yazıçı olmaq arzusuna sadiq qalaraq Kral universitetində qalır və Maskla münasibətləri saxlayır. Hərdən o Maskı ziyarət edir və onlar romantik bazar günləri keçirmək üçün Nyu-Yorka yollanırlar.

Pensilivaniyada Maskın qabiliyyətləri daha da özlərini biruzə edir genişlənir və o, həqiqətən özünü eyni kursdan olan fikirlərlə gəzintidə rahat hiss edir. "Pensilvaniyada o özü kimi düşünən insanlarla qarşılaşdı, - deyir Mey. - Orada da "botaniklər" var idi. O, onların cəmiyyətindən həzz alırdı. Onlarla bir dəfə nahar edirdim və onlar bütün vaxtı fizikadan danışırdılar. Onlar deyirdilər: "A +B= π2" və ya elə cür bir şey və ucadan gülüşürdülər. Onu belə xoşbəxt görmək çöx gözəl idi". Lakin Mask bu dəfə də universitetdə çox nəfərlə dostluq qurmadı. Onu xatırlayan keçmiş tələbələri tapmaq asan deyildi. Amma o, sonradan Kremni vadisinin sahibkarlarında olacaq Adeo Ressi adlı bir oğlanla yaxından dost olmuşdu. (o bu günə gədər İlona kimsənin olmadığı gədər yaxındır)

Ressi uzunboylu, orta boydan çox hündür, eksentrik xarici görkəmə malikdir. O, elmlə məşğul olan,təmkinli Maskın tam əksi olan artistsayağı və koloritli insadır. Hər iki gənc oğlan başqa yerdən gəlmiş tələbələr idi və birinci kursda oxuyan tələbələr üçün nəzərdə tutulan köhnədəbli bir yataqxanada eyni otaqda qalırdılar. Bu cür təvazökar yaşayış teri Ressinin gözləntiləri ilə uyğun gəlmirdi və o Maskı kampusun hüdudlarından kənarda böyük bir ev icarəyə almaq üçün dilə tutdu. On otaqlı bir evi onlar sakinləri hələ yerləşməmiş bir yataqxana olduğu üçün kifayət qədər ucuz qiymətə tutdular. Həftə ərzində Mask və Ressi məşğul olurdular, lakin həftəsonlarının yaxınlaşması ilə Ressi onların yaşayış məskənini gecə klubuna çevirdi. O, pəncərələr alaqaranlıq olsun deyə üzərlərinə zibil torbaları asırdı və əlinə keçən parlaq əşyalar və rənglərlə divarları bəzəyirdi. "Bu, əsl kabak idi"- deyə xatırlayır Ressi. -- Biz 500 adam qəbul edə bilərdik. Hər adamdan 5 dollar alırdıq. Orada pivə, jele-kokteyl və başqa bu cür şeylər var idi".

[20] Səkkiz qədim amerikan universtetlərin assosiasiyası: Braun Universiteti, Harvard Universiteti, Dartmut Universiteti, Yel Universiteti, Kornel Universiteti, Pensilvaniya Universiteti, Prinston Universiteti, Kolumbiya Universiteti

Cümə günü axşam ev səs gücləndiricilərindən titrəyirdi. Mey bir dəfə gəlib gördü ki, Ressi divarlara müxtəlif əşyalar vurur və onları qaranlıqda işıq saçan boyalarla örtürdü. Nəticədə o, qarderobçu və kassir oldu, amma özüylə ayyaqqabı qutusuna yığdığı pulu qorumaq üçün qayçı gəzdirirdi.

İkinci evdə artıq 14 otaq vardı. Orada Mask, Rossi və başqa biri daha yaşayırdı. Onlar işlənmiş çəlləkləri fanera ilə örtərək masalar düzəltdilər və başqa improvizə olunmuş mebel var idi. Bir gün Mask evə gələrkən gördü ki, Ressi onun masasını divara vurub və rəngbərəng lüminessent boyalarla rəngləyib. Mask cavab atəşi açdı: stolu divardan qopardı, qara rəngə boyadı və oturub məşğul olmağa başladı. "Bu axı  bizim gecəmiz üçün art-installyasiyadır" – deyə Reossi yalvarışla səsləndi. Bunu Maska xatırlada, o quru cavab verir: "Bu, iş stolu idi".

Mask fürsət düşəndə kola ilə araq içirdi, lakin az içən idi və alkaqol aludəçisi deyildi. "Kimsə bu gecələrdə ayıq qalmalı idi. Mən təhsil haqqımı ödəməli idim və burada bir gecədə bir aylıq əməkhaqqı qədər qazanmaq olurdu" – danışır Mask. - Adeo evin tərtibatına cavabdeh idi, amma gecənin gedişatı üçün özüm cavabdehliyi öhdəmə götürdüm. Ressinin dediyi kimi: "İlon mənim qarşılaşdığım adamların hamısından "düzgün" idi. O, heç vaxt vaxt içmirdi. O, bir dəfə də olsun yolunu azmadı. Qətiyyən. Qəti sürətdə heç nə".

Ressiyə Maskı yalnız "kompyüterə qərq olmaqdan" ayırmaq lazım gəlirdi. Mask kompyuter oyunlarından günlərlə ayrıla bilmirdi.

Pensilvaniyada Maskın günəş enerjisi və bu enerjidən istifadənin yeni üsulllarının axtarışına olan çoxdankı marağı gücləndi. 1994-cü ilin dekabrında o biri məşğələyə biznes-plan  hazırlamalı idi və son nəticədə o "Günəş enerjisindən istifadənin vacibliyi" adlı məruzə yazdı. Məruzə Mask üçün xarakterli olan ironiya ilə başlanırdı. Səhifənin yuxarı hissəsində yazılmışdı: "Günəş sabah oyanar..."  - yetim qız Enni bərpa olunan enerji haqqında21. Mask əhatəli şəkildə danışırdı ki, yeni materialların əmələ gəlməsi və irimiqyaslı günəş elektrik stansiyalarının yaradılmasında günəş energetikasının rolu artır. Mask günəş batareyalarının necə işlənməsi, və onların daha effektiv olması haqqında geniş şəkildə danışırdı. Sonda

[21] Amerikan komikslərinin geniş tanınmış personajı, Ceyms Uitkom Raylinin 1885-ci ildə yazılan şeirindən.

o, "gələcəyin elektrostansiyasını" - kosmosda yerləşən bir cüt nəhəng (hər biri 4km genişliyində) günəş batareyalarını təsvir edirdi. Onlar yer kürəsinə (7 km diamerində qəbuledici antenə) mikrodalğalar şəklində enerji göndərirlər. Professor Maska " çox maraqlı və yaxşı yazılmış" tətqiqata görə 98 bal yazdı.

İkinci məruzə elmi-tətqiqat sənədlərin və kitablarının elektron sürət çıxarmasına, onların məzmunun optik tanınmasına və alınan informasiyanın yeganə bazaya salınmasına – bugünkü Google Books və Google Scholar ilə arasında olan bir şey, həsr olunmuşdu. Üçüncü iş isə Maskın sevdiyi daha bir mövzu ionistor və superkondensatorlara aid idi. 44 səhifədə Mask ətraflı şəkildə enerjinin gələcəkdə avtomobil, təyyarə və raketlər üçün istifadə olunaraq yeni enerji saxlanma formaları haqqında danışdı. Kremni vadisinin laboratoriyasının son tədqiqatlarına söykənərək o yazırdı: "Son nəticə akkumulyator batareyaları və yanacaq elementlərindən ilk dəfə prinsipial olaraq fərqlənən elektrik enerjinin böyük miqdarını saxlamaq üçün yeni vasitələri əks etdirir. Bundan başqa superkondensator kondensatorun əsas xüsusiyyətlərini saxladığına görə o eyni çəkidə olan batareyada enerjini yüz dəfə tez ötürə və doldura bilər. Mask " əla maliyyə hesabı" və "çox dərin analizə" görə 97 bal aldı.

Professorların tərifi təqdirə layiq idi. Maskın aydın, yığcam üslubu – bu ardıcıl olaraq bir hissədən o birinə hərəkət edən məntiqi əmək idi. Maskın xarakteri üçün xass olan onun mürəkkəb fiziki anlamın təcrübi biznes-plan kontekstində təzahürü idi. Bununla o, elmi kəşfdən real sənayeyə qədər olan bütün yolun keçməsi nadir bacarığını nümayiş etdirir.

Mask universiteti bitirdikdən sonra nə sahədə çalışacağına dair ciddi fikirləşməyə başlayanda o kompyüter oyunları sahəsində iş imkanlarına ilkin olaraq nəzər saldı. Kompyuter oyunlara ilə Mask uşaqlıqdan həvəsli idi. Buna baxmayaraq, o qərara gəldi ki, bu onun üçün kifayət qədər böyük məqsəd deyil. "Mən həqiqətən kompyuter oyunlarını sevirəm, amma əgər ən yüksək səviyyəli oyunlar yaratsam, bu Yerdəki işlərə, bütövlükdə dünyaya necə təsir edəcək? – deyirdi Mask. – Heç cür. Mən kompyüter oyunlarını çox xoşlayıram, lakin öz karyeramı onlarla məhdudlaşdıracağım gədər deyil".

Mask söhbətlərində tez-tez qeyd edir ki, həyatındakı o dövrdə onun böyük ideyaları var idi. Onun sözlərindən belə çıxır ki, onun Kral və Pensilvaniya universitetlərində olan arzuları bir qayda olaraq ancaq bir şeylə yekunlaşırdı: O, İnternetə, bərpa olunan enerji və kosmosa  yaxın illərdə ciddi dəyişiklilərə məruz qalacağı və onlara ciddi təsir edə biləcəyi bazar kimi baxırdı. O, özünə söz verdi ki, hər üç sahədə layihələr gerçəkləşdirəcək. "Mən bu ideyalar haqqında bütün tanış olduğum qızlara və keçmiş həyat yoldaşımada danışırdım, – deyə o, etiraf edir. - Yəqinki, bu dəli sayıqlamaları kimi səslənirdi".

Maskın inadkarlığı onun elektromobil, günəş enerjisi və raketlərə olan ehtirasının izahında inadkarlıq bir qədər gərginləşdirir. Belə çıxır ki, Mask öz həyat tarixçəsini şəxsən qurmaq istəyir. Lakin Mask üçün "təsadüfən məşğul olmaq" və "məqsəd qoymaq" anlayışlar arasındakı fərq prinsipialdır. Mask çoxdan istəyirdi ki dünya onun Kremni vadisindən çıxan adi sənayeçidən nə iləsə fərqləndiyini bilsin. O, sadəcə olaraq tendensiyaları axtarıb müəyyən etmir və var dövlətə can atmır. O, ümumbəşəri suallara cavab axtarır. "Mən bu şeylər haqqında həqiqətən universitetdə düşünürdüm, deyir o. – Bu hansısa sonradan uydurulmuş fakt deyil. Mən trendlərin arxasınca qaçmıram. Mən konyukturcu və ya avantyurist deyiləm. Mən investorda deyiləm. Gələcək üçün əhəmiyyətli olan və fayda gətirən texnologiyanı həyata keçirmək mənim xoşuma gəlir".

# 4. İlonun ilk startapı

1994-cü ilin yayında Mask və onun qardası Kimbal əsl amerikalı olmağa doğru ilk addımlarını atdılar.Onlar ölkə səfərinə çıxdılar.

Kimbal College Pro Painters şirkətinin franşızasinda iştirak edirdi və çox uğurlu idi, bu onun kiçik biznesi idi. O, franşızın özünə aid olan hissəsini satdi və onlar Markla atışıb 1970-ci ilin buraxılışı olan işlənmiş BMW 320i aldılar. Qardaşlar öz səfərlərini San-Fransiskodan avqust ayında, istilər düşəndə, başladılar. Bir necə vaxt sonra onlar Mohava səhrasinda Nidlz şəhərciyinə çatdılar. Orada onlar kondisionersiz avtomobildə Farenheyt üzrə120 dərəcə (Seysiy üzrə 49 dərəcə) istinin nə olduğunu sərt şəkildə hiss etdiler və sərinlikdən zövq alaraq istirahət etfikləri Carl's Jr. fastfudlarında pit-stoplarına dəyər verməyi öyrəndilər.

Səfər iyirmi yaşındakı tüfeylilərə onların varlı olacaqlarına dair əyləncəli arzular qurmaq üçün əla imkan bəxş edirdi. Internet Yahoo! axtarış sistemlerinin və Netscape browserin populyarlığının artmasına görə istifadəyə daxil olurdu. Qardaşlar İnternetlə maraqlanırdılar və şəbəkə vasitəsilə bir şey etmək üçün şirkət yaratmaq niyyətində idilər. Onlar Kaliforniyadan Koloradoya üz tutdular, daha sonra Vayoming, Cənubi Dakota və Illinoys arxada qaldı; onlar növbə ilə sükan arxasına keçirdilər, fikirlər mübadilədi keçirirdilər və söhbət edirdilər, bundan sonra isə Şərqə üz tutdular çünki Mask təhsilini davam etməli idi. Səfər zamanı yaranan ən yaxşı ideya həkimlər üçün onlayn sistemini yaratmaq idi. Söhbət elektron tibb kartların yaradılması kimi ambisiyalı bir şey haqqında deyil, sadəcə həkimlərin məlumat mübadiləsi və ünsiyyətdə olacaqlar bir sistemdən gedirdi. "Göründüyü kimi, tibb heç də əlaqələri qurulmuş bir sahə deyilmişç – xatırlayır Kimbal. – Və mən biznes-plan qurmağa, satiş və marketinqi planlaşdirmağa başladım, lakin iş alınmadı. Biz bunu bəyənmədik".

Yayın əvvəlini Mask Silicon Vadisində keçirtdi, onun orda bir-iki staj işi var idi. Gündüzləri o Pinnacle Tədqiqat İnstitutunda işləyirdi. Los-Qatosda yerləşən bu şirkət elektrik və hibrid nəqliyyat vasitələri üçün superkondensatorların yanacağın

inqilabi mənbəyi kimi istifadə etmə yollarının tədqiqatını aparan öz alim komandasına sahib olan bir startap idi. Bəzən tədqiqatları qısaldıb başqa istiqamətə yönləndirirdilər- ən azından konseptual olaraq - daha ekzotik sahələrə. Mask saatlarla "Star Wars" və digər Futuristik filmdəki kimi bir lazer silahı yaratmaq üçün superkondesatorlardan necə istifadə ədilə biləcəyi haqqında danışa bilərdi. Laser silahları güclü enerji güllələri ilə atır, döyüşçü superkondensatoru dəyişir və atəş etməyə davam edir. Superkondensatorlar həmçinin raket üçün də enerji mənbəyi ola bilərdi. Onlar batareyadan daha dözümlü və enerjini uzun müddət qoruya bilir. Pinnacleda iş Maskın çox xoşuna gəlirdi, orada o öz universitet biznes planına uyğun eksperimentler apara bilirdi və gələcək sahibkarlıq fantaziyalarına dala bilirdi.

Axşamlar Mask Palo-Altodan startap Rocket Science Games oyun şirkətinə gedirdi. Bu şirkət komputer oyunlarını kartriclərdən daha çox məlumat toplaya bilən kompakt disklərə keçirərək onları daha yüksək səviyyəyə gətirməyə çalışırdı. Nəzəri olaraq, kompakt disklər oyunlara Hollywood yayım tərzi və keyfiyyət gətirmək üçün bir imkan idi. Iş üçün mühəndis və kino işçiləri arasında olan ümid verici ulduz bir komanda yığıldı. Rocket Science-da bir müddət sonra iPhone və iPad yaradacaq Toni Fadell və Apple korporasiyasınüçün QuickTime multimedia platformunu işləyəcək mütəxəssislər işləyirdi. Şirkətdə Industrial Light & Magic[22] vasitəsi ilə "Star Wars" üçün xüsusi effektləri və LucasAsrts Entertainment[23] oyunlarını yaradan insanlar çalışırdı. Rocket Science Maska Silikon vadisinin istedad və mədəniyyət baxımından nələr təklif etdiyinin anlayışını verdi. Onlar hər gün ofisdə 24 saat işləyirdilər və Maskin hər axşam saat 17:00 ikinci işinə gəlməsi onlari hec də təəcübləndirmirdi. "Biz onu sadəcə aşağı səviyyəli kodların yazılması üçün götürdük, - şirkətin əsasını qoymağa kömək edən Avstraliyali mühəndis Piter Barett deyir. - O, rahat və özünə əmin idi. Bir müddət sonra, heç kəs ona nə edəcəyi haqda göstəriş vermirdi və o, istədiyini edirdi".

[22] Industrial Light&Magic – filmlər üçün vizual effektlərin yaradılması ilə məşqul olan amerikan şrkətidir. 1975-ci ilin may ayında Corc Lukas tərəfindən təsis olunmuşdur.

[23] LucasArts Entertainment – 1982-ci ilin may ayında Corc Lukasın Lucasfilm əyləncə imperiyasının hssəsi kimi yaradılmışdı. Məqsədi 2013-cü ilin aprel ayınadək əyləncə proqram təminatının yaradılması və istifadəyə verilməsi idi. 2013-cü ilin aprel ayından etibarən LucasArts Disney şirkətinin nəzarəti altında oyunların yaradıcısıdır.

Maskin işi müxtəlif kompüter oyunları üçün joystick və mausların drayverlərinin yaradılması idi. Siz oxşar proqramları kamera və ya printerin əvdə bir kompüterdə işləməsini təmin etmək üçün quraşdırmalısınız - olduqca maraqsız bir işdir. Proqramçı təhsili olmayan və bu ixtisası özbaşına öyrənən Mask özünü yaxşı mütəxəssis hesab edirdi və daha iddialı vəzifə istədi. "Esasən, məni çox əməliyyatlı iş rejiminin imkanlari maraqlandırırdı – beləki, oyun oynarkən, eyni zamanda kompakt diskdən video izləməkdə mümkün olsun, - deyir Mask. - O zamanlar ikisini eyni anda etmək olmurdu. Assemblerde proqramlaşdırma belə asan deyil." Bu, həqiqətən çətin işdir. Mask əmrləri kompüterin əsas mikroprosessoruna birbaşa verərək, maşın əməliyyat üçün tələb olunan bütün əsas funksiyalarını idarə etməli idi. Marki işə götürən Lik Brus, Apple QuickTimein keçmiş baş mühəndisi, onun gecələr işləmək qabiliyyətinə heyran idi. "O, hədsiz enerjiye malikdir, - deyir Lik. – İndikilərin avadanlıq necə işlədiyi və bu işlərin necə getdiyi haqqında heç bir məlumatı olmadığı halda o, artıq bir kompüter hakeri bir səviyyəsində idi və həmişə başa düşmədiyini anlamaq üçün hazır idi".

Silikon vadisində Mask axtardiği imkanları və həmçinin ambisiyalarına uyğun iş tapmışdı. O, dalbadal iki yay oraya geri dönürdü və Pensilvaniya Universitetində iki dərəcə alaraq Qərbə baş tutdu. Evvəl o, Stanford Universitetində materialşünaslıq və fizika üzrə doktorluq dərəcəsi almaq niyyətində idi və Pinnacle şirkətində başladığı superkondensatorlar üzərində işi davam etmək istəyirdi. Lakin, iki gündən sonar o Stenforddan qaçdi, çünki Internet onu hədsiz dərəcədə maraqlandırırdı. Kimbalı da Silikon Vadisinə dəvət etdi ki, birlikdə ümümdünya internet şəbəkəsini fəth etsinlər.

İnternetdə səmərəli işin ilk göstəriciləri Maskın təcrübə keçdiyi zamanı ortaya çıxdı. Startaplarin birinin ofisinə telefon kitab istehsalatının satıcısı girdi.O, onlayn reyestr ideyasını satmaq üçün cəhd etdi - adi böyük masa üstü istinadı məlumat kitabçasına əlavə olaraq. Satıcı öz fikrini çətinliklə ifadə edir, və internetin nə olduğunu və orada lazimi ünvanı tapmağın yollarını olduqca zəif başa düşürdü. Maskda isə bu vəziyyətdən faydalanmaq üçün ortaya çıxan ideyanı müzakirə

etmək üçün Kimbala müraciət etdi: şirkətlərin Internetə qoşulması üçün necə kömək etmək olar.

"İlon dedi: "Bu uşaqlar özləri nə dediklərini anlamırlar. Bəlkə bizim bu işlə məşqul olmağa dəyər"?" - Kimbal xatırlayır. 1995-ci il idi və qardaşlar Global Link İnformasiya Şəbəkəsini yaratmağa hazırlaşırdılar – sonda adı dəyişilərək Zip2 olan startap.

Zip2 fikri sadə idi. 1995-ci ildə kiçik biznes şirkətləri Internetin onların nəyinə gərək olduğunu, oraya necə daxil olmaq olduğunu və öz vebsaytın nəyə lazım olduğunu və ya ən azı onlayn reyestrində təmsil olunmağın nə olduğunu yaxşı dərk etmirdilər. Mask və qardaşı restoran, geyim dükanları, bərbərxanalar və s. obyekt rəhbərlərini öz şirkətlərini İInternetdə qeyd etməyin vaxtı çatdığına əmin etmək fikrindəydilər. Zip2 xəritə ilə əlaqəsi olan onlayn biznes kataloqu olmali idi. Mask belə izah edirdi: hər kəs yaxın pizzaçının harda yerləşdiyini və ora necə getmək mümkü olduğunu bilmək hüququna malikdir. Bu gün bu çox sadə görünür lakin o vaxt heç kəs belə bir xidmət haqqında tesəvvürü belə yox idi.

Mask qardaşları Zip2-nin əsasını Palo Alto, Şerman Avenu 430-da qoydular. Onlar 20 x 30-a fut (6 x 9-a metr) sahəsi olan ofis icarəyə götürdülər və zəruri mebel aldılar. Üç mərtəbəli binanın özünə məxsus xüsusiyyətləri var idi. Liftləri yox idi, tualetlər tez-tez tutulurdu. "İş üçün o yer, düzünü desək, heç uyğun deyildi" - ilk işçilərdən biri deyir. Birbaşa internetə tez zamanda qoşulmaq üçün, Mask İnternet xidmətlərinin göstərilməsi ilə məşğul olan aşağıdakı mərtəbəsində ofisi olan Rey Jırar adlı bir iş adamı ilə müqavilə bağladı. Jırarın sözünə görə, Mask Zip2 qapısının yanında yerləşən gips-sement divarın deşdi və sonra pilləkan boşluğundan kabelini internet provayderinə qədər çəkdi. "Bir neçə dəfə ödənişi gecikdiriblər, amma heç vaxt ödəmədən yayınmadılar" – deyir Jırar.

Mask proqrammlaşdırma ilə məşğul idi, daha ünsiyyətçil olduğuna görə Kimbal isə satış işlərini həll etməyə çalışırdı. Mask San-Fransisko dəfnəsi ətrafında yerləşən şirkət bazasını üçün ucuz lisenziya aldı. Bazaya şirkətlərin adları və ünvanları qeyd olunmuşdu. Sonra o Navteq şirkəti ilə əlaqə saxladı, hansı ki ilk GPS-naviqatorlarında istifadə oluna bilən rəqəmsal xəritə və marşrutların

yaradılmasına yüzlərlə milyon dollar xərcləmişdi və uğurlu danışıqlar aparıb. "Biz onlara zəng etdik və onlar öz texnologiyarını bizə pulsuz verdilər". – deyir Kımbal.- Mask iki məlumat bazasını birləşdirərək sadə, amma çox yaxşı işləyən bir sistem yaratdı. Vaxt keçdikcə, Zip2 proqramın təsisçiləri daha ətraflı regonları əhatə edən başqa xəritələr ilə ilkin məlumat bazasını artırmağa, eləcə də ev kompyuterində işləməsi mümkün olacaq marşrutu göstərən sistemi əlavə etməyə məcbur qaldılar.

Erol Mask bu çətin məqamda oğlanlarına kömək məqsədiylə 28 min dollar verdi, lakin onlar ofis icarəsi, proqram təminatının lisenziyalaşdırılması və bəzi avadanlıqların alışından dolayı son dərəcə çətin vəziyyətdə idilər. Zip2 şirkətinin yaratdıqdan ilk üç ayı ərzində Mask qardaşı ilə ofisdə yaşayırdılar. Onların şəxsi əşyalarını saxladıqları kiçik bir çəkməcəsi var idi, duşdan isə qonşuluqda yerləşən pulsuz idman zalında istifadə edirdilər. "Biz bezən bir gündə dörd dəfə Jack in the Box24-da yeyirdik, - Kimball xatırlayır. - Ora 24 saat açıq idi və bu bizi qane edirdi. Mən bir dəfə meyvə kokteyli aldım və içində nəsə üzürdü. Mən içindəkini çıxartdım və eləcədə içdim. O vaxtdan sonra mən bir daha ora getmədim amma indiyə kimi onların menusu yadımdadır".

Daha sonra qardaşlar ikiotaqlı mənzili icarəyə aldılar. Mebelsiz, sadəcə yerdə iki döşək vardı. Mask qalacaq yer və yemək qarşılığında Cənubi Koreyalı mühəndisi Zıp2-de stajor işləməyə razı saldı. "Yazıq elə bilirdi ki, böyük bir şirkətə işə girib, - deyə xatırlayır Kimbal. – Nəticədə elə oldu ki, o bizimlə yaşayırdı və hara düşdüyünün fərqinə varmırdı". Bir dəfə stajor Maskın köhnə BMW 320i -de işə gedərkən yolda təkəri itirdi. Ox Peyc-Mıll-roud və EL-Kamino-Real kəsişməsində asfalta çarpdı və oyuq hələ bir neçə il görünürdü.

Zip2, bəlkə də, Informasiya dövrünə yönəlmiş perspektivli internet şirkəti idi, lakin bu işi yoluna qoymaq üçün, sadə satış bacarığı lazım idi. Biznes sahiblərini Internetin faydalırına inandırmaq və onların güvənini qazanmaq lazım idi ki, onlar naməlum bir şey üçün pul ödəsinlər. 1995-ci ilin sonunda Mask qardaşları ilk işçilərini işə götürməyə və rəngarəng satış komandası yaratmağa başladılar. Zip2-

[24] Amerika fastfudu

yə ilk işə qəbul olanlar arasında bu həyatda özünə yer axtaran çalışan, Ceff Heylmen, qayğısız 20 yaşlı avara da vardı. O və atası bir axşam televeziyanı seyr edərkən ekranın altında reklam bölgəsində bir internet ünvanı gördülər. "Orada nöqtə kom deyə bir şey var idi, - deyir Heylmen. - Yadımdadır, atamdan onun mənasını soruşdum. Sən demə, o da bilmirmiş. Onda mən başa düşdüm ki, İnterneti öyrənmək lazımdır". Bir-iki həftə Heylmen ona İnternet haqqında məlumat verə biləcək adamlarla ünsiyyət qururdu, sonra isə onun gözü San Jose Mercury News qəzetinde Zip2 şirkətinin vakansiyaları haqqında kiçik bir elana rastlaşdı. "İnternet satışları buradadır!"- deyilirdi elanda. Və Heylmen işi qazandı. Ona bir neçə digər satıcı da qoşuldu. Satışdan alınan gəlirin faizinə işləyirdilər.

Deyəsən, Mask ofisden heç çıxmırdı. İş masasının yanında lobya torbasının üstünde yatırdı. Demək olar hər gün, səhər saat səkkizin yarsında və ya səkkizdə işə gələndə, onu o torbanın üstündə yatan görürdüm, - xatırlayır Heylmen. - Bəlkə də, o çimməyə də yalnız həftə sonu gedirdi, əmin deyiləm". Mask Zip2 işçilərinden onu iş gününün əvvəlində oyatmağı xahiş edirdi.O zaman, oyanıb işə başlayırdı. Mask kodları yazdığı zaman Kimbal həvəslə satışlarla məşqul idi. "Kimbal böyük optimist idi, o, əhval-ruhiyyəni yüksəltməyi bacarırdı, - deyir Heylmen. - Onun kimilərinə daha rastlaşmamışam". Kimbal Heylmenı Stenfordun hipermarketlərinə və Palo-Altonun mərkəzi küçəsi olan Yuniversiti-avenüya pərakəndə satıcılarını Zip2- əməkdaşlığa şirkətlərinin reytinqinin yüksəldəcəyini izah edərək cəlb etmək üçün göndərirdi. Heç kəs, əlbəttə ki, buna inanmırdı. Həftələr keçirdi, Heylmen bütün qapıları döyürdü lakin əliboş qayıdırdı. Eşitdiyi ən yaxşı söz - İnternetde reklamın tam cəfəngiyat olduğunun olması idi. Dükan sahibləri əsasən danışmaqdan belə imtina edirdilər və onları rahat buraxmağı xahiş edirdilər. Nahar fasiləsində Mask qardaşları hüznlə pul saxladıqları siqara qutusuna baxırdılar, Heylmenı çağırıb satış haqqında ümidsiz məlumat alırdılar.

İlk işçilərdən biri daha olan Kreyq Mor əvvəllər daşınmaz əmlak sahəsində satışla məşğul idi. O, avtodilerlərə yaxınlaşmaq üçün yol axtarırdı, çünki onlar, reklama çox pul xərcləyirlər. Onlara Zip2-nin baş websaytı — www.totalinfo.com — haqqında məlumat verərək onları

www.totalinfo.com/toyotaofsiliconvalley reqistrasiyadan keçdikləri halda tələbin qalxacağına əmin etmək istəyirdi. Mor bu xidmətin necə işlədiyini göstərməyə çalışanda, bu onda hər dəfə alınmırdı və ya iş uzanırdı. Müştərilərə Zip2-in xeyali üstünlüklərindən bəhs etmək məcburiyyətində qalırdı. “Bir gün mən ofisə 900 dollar ilə qayıtdım, - yada salır Mor. – Ofisə daxil oldum və uşaqlardan soruşdum ki, pulu neyləyim. İlon klaviaturadan başını qaldırıb, monitordan başını çıxararaq “Ola bilməz!" dedi.

İşçilərin ruhunu dəstəkləyən Maskın davamlı olaraq proqram təminatının inkişaf etdirilməsi idi. Xidmət artıq istifadə və nümayiş edilə biləcək test nümunəsinden çıxıb real bir məhsula dönürdü. Marketinq incəliklərini get-gedə daha yaxşı anlamağa çalışan Mask qardaşları öz xidmətlərinin təsirli görünməsini istəyirdilər. Bunun üçün onu materiallaldırmaq - fiziki bədən şəklində təqdim etmək- lazım idi. Mask standart PC üçün böyük bir futlyar yaradıb, onu təkərlərin üstündə yerləşdirdi. Potensial investorlar gələndə, Mask stendi sürərək gətirib- Zip2-nin hər hansı bir superkompüterin daxilindən bir proqram çalışdığının şousunu göstərirdi. "Investorlarda gözəl təəssürat yaradırdı", - Kimbal deyir. Heylmen Maskın şirkətə sadiqliyinin heyran etdiyinidə qeyd edir. "Hətta o vaxtlar, əslində hələ yeniyetmə olan Mask - nə qədər əzm, daxili impulsa malik olduğunu nümayiş etdirirdi. O hesab edirdi ki, hər başlanılan iş axıra çatdırılmalıdır, və əks halda həyatda əhəmiyyətli bir şansın itirəcəyini deyir, - deyir Heylmen. Məncə investorların məhz bunu gördüklərini hesab edirəm – Maskın öz platformasının yaradılmasına həyatını qoymağa hazır idi". Hətta onlardan birinə söhbət əsnasında: “Mən samuray kimiyəm. Təslim olunmaqdansa özümü xarakiri edərəm” - demiş.

Zip2- nin erkən mərhələrində Mask çox əhəmiyyətli etibar etdiyi dramatik impulsları yumşalda bilən şəxslə tanış oldu. Ömrünün dördüncü onilliyində yaşayan Kanada iş adamı Qreq Kouri Torontoda Maskla tanış olur və əvvəlki Zip2-yə xass olan ağılların hərəkatının iştirakçısı olur. Gənclər bir səhər onun evinə gəlib Kaliforniyada biznes etmək niyyətində olduqlarnı məlumat verdilər. Kouri hələ qırmızı səhər xalatında idi – evə girdi və bir neçə dəqiqədən sonra

əlində 6 min dollarla qayıtdı. O, 1996-cı ilin əvvəllərində Kaliforniyaya köçərək və Zip2-nin əsasını qoyanlardan biri olub.

Keçmişdə daşınmaz əmlak sahəsində təcrübəsi olan Kouri, insanları yaxşı tanıdığına görə Zip2-də baş məsləhətçi rolunu yaxşı yerinə yetirdi. Kanadalı Maskı sakitləşdirməyi bacarırdı və sonunda onun müəllimi kimi oldu. "Çox ağıllı insanlar bəzən başa düşmürlər ki, hər kəs onlara yetişə bilmir, – vençur investoru, Zip2-nin baş direktoru olacaq Derek Prudian deyir. - Qreq ona hər şeyi müfəssəl görməyə kömək edən çox az adamlardan biri idi ki, İlon onu dinləyirdi". Kouri həmçinin ofisdə Maskla Kimbal arasında olan tokkuşmalarda hakim rolunu da oynayırdı.

Kimbal deyirdi: "Mən artıq heç kimlə savaşmıram, amma İlonla biz heç vaxt bir işi sülhlə bitirə bilməmişik". Bir dəfə bir bizneslə əlaqədar baş verən şiddətli tokkuşmada Maskın yumruğunun dərisi elə soyulmuşdu ki, o hətta tetanusa qarşı peyvənd etməyə məcbur oldu. Kouri bu tokkuşmaya son qoydu. (Kouri Maskın şirkətinə əhəmiyyətli investisiyalar yatırmışdı və 2012-ci ildə 51 yaşında ürək tutmasından vəfat etdi. Mask onun dəfnində iştirak etdi. "Biz çox şeyə görə ona borcluyuq" – deyir Kimbal.)

1996-ci ilin əvvəlində Zip2-də ciddi dəyişikliklər oldu. Mor Davidov Ventures adlı ivnestisiya şirkəti internet qeydiyatı yaratmağa çalışan iki cənubi afrikalı oğlan haqqında eşidir və qardaşlarla görüşür. Kifayət gədər təqdimat bacaraqlarına malik olmayan Mask şirkəti yaxşı təqdim etdi və investorlar onun enerjisinin təsiri altına düşdülər. Mor Davidov şirkəti biznes üçün üç million dollar sərmayə qoydu25. Bundan sonra şirkət öz adını rəsmi olaraq Qlobal Linkdən Zip2-yə dəyişdi (hərəkətin sürəti, "ora-bura"26 ani yerdəyişməsi, nəzərdə tutulurdu), və Palo-Altoda Kembric-avenu 390 ünvanında ölçüləri daha böyük olan ofisə köçdü və istedadlı mühəndisləri işə cəlb etdi. Zip2 həmçinin özünün biznes straqetiyasını dəyişdi. Həmin vaxta qədər isə şirkət internetdə ünvan axtarışları sisteminin ən mükəmməlini yarada bildi. Zip2 San-Fransisko körfəziylə kifayətlənməyərək bu

[25] O zamanlar Mask qardaşları çox əzmli deyildilər. "Onların biznes-planından hatırlayıram ki, onlar əvvəl şirkətlərini 25% üçün 10 min dollar məbləğində investisiya istəyirdilər, - deyir Stiv Carvetson, vençur səhimdar. – Çox az! 3 million həcmində investisiyalar haqqında eşidəndə çox təəcübləndim: Mor Davıdov onların biznes-planını oxuyub? Hər halda qardaşlar etimadı doğrultdular".

[26] "zip" sözünün (ing.) mənalarından biri – "tullanmaq", "sürətlə qaçmaq"; "2" [tu ] kimi oxunur (ing.) – istiqaməti göstərən önsözdür

texnologiyanı ümummilli miqyasda inkişaf etdirmək qərarına gəldi. Lakin şirkət əsas diqqətini yeni təşəbbüsə yönəltdi. Zip2 internet-reqistrda öz yerini satmaq əvəzinə xəbər nəşriyyatlarına satılabilinəcək proqram yaraddı. Bu proqram vasitısi ilə onlar öz şəxsi daşınmaz əmlak, avtomobil və tematik elanlar kataloqlarını yaratmağa imkan verirdi. Həmin nəşrlər gec də olsa anladılar ki, internet onların biznesinə necə təsir edəcək və Zip2 sıfırdan öz texnologiyalarını hazırlamadan onlara qısa zamanda şəbəkəyə qoşulmaq imkanı verirdi. Öz tərəfindən Zip2 hədəfini daha iri istehsala - ümummilli şəbəkə kataloqlarına yönəltdi.

Şirkətin biznes modeli və xarakterində bu dəyişikliklər Maskın həyatında həlledici olacaq. Vençur sahibkarları Maskın texnologiyalar üzrə direktor vəzifəsinə irəli sürdülər, kompaniyanın baş direktoru isə Riç Sorkin təyin olundu. Sorkin səs cihazları istehsalıyla məşqul olan CreativeLabs-da işləmiş, biznesin inkişafı qrupuna rəhbərlik edərək, sərmayələri internet –startapına yönəltmişdi. Zip2 investorları onu çox təcrübəli və interneti yaxşı bilən adam kimi tanıyırdılar. O zaman Mask razı oldu, lakin bir müddət o Zip2–yə kənar nəzarəti olduğunu bəyənmədiyini anladı. “Yəqin, mənim üçün onunla iş zamanı ən məyus edici məqam, o iblis – Mor Davıdovla - müqavilə bağlamasıydı, - Zip2 –nin texniki işlər üzrə vitseprezidenti Cim Ambras deyir. – İlonun artıq biznesə həlledici təsiri qalmamışdı, halbuki o baş direktor olmaq niyyətində idi”.

Ambras Hewlett – Packard Labs və SilikonGraphics İnc-də işləyirdi və yüksək təbəqəli professional idi və Zip2-yə yönələn sərmayələrin ilk dalğasından sonra gəldi. Hollivudun sevdiyi yüksək keyfiyyətli kompyuterlərin istehsalçısı SilikonGraphics öz zamanının ən cəlbedici şirkətlərindən biri idi və Silikon Vadisinin kompyuter fanatlarını toplamışdı. Ambras onlardan ən ağıllılarını Zip2-yə dəvət etməyi söz vermişdi.“Bizim hüquqşünaslar SGİ-dən “qaymaqları” öz tərəfinə cəlb etdiyimiz barədə mektub almışdılarç, - dedi Ambras. - İlon isə hesab edirdi ki,bu çox əladır”.

Baxmayaraq ki, Mask kodlaşdırma sahəsində çox böyük nailiyyətlət əldə etmişdi, onun bacarıqları yeni işə götürülən əməkdaşların bacarıqları qədər sərrast deyildi. Onlar Zip2 kodlarına baxıb proqram təminatının böyük hissəsini

yenidən yazmağa başlayırdılar. Mask bəzi dəyişikliklərə çox əsəbi yanaşsa da, lakin yeni mütəxəssislər proqramlaşdırmanı ondan daha mükəmməl bacarırdılar. Onlar layihələri bölərək dəyişmək və təkmilləşdirmək imkanına malik olduqları halda yazırdılar, Mask isə klassik avtodidakt tələsinə düşmüşdü – onun yazdığı böyük kodlar[27] bəzən bilinməyən səbəblərdən işə yararsız olurdu. Yeni əməkdaşlar mühəndis qrupuna daha mükəmməl iş strukturu və real müddətlər gətirdilər. Bu addım Maskın yanaşmasından daha üstün idi: o adətən optimist müddətlər təyin edirdi, sonra mühəndisləri günlərcə non–stop rejimində işləməyə məcbur edirdi. "Əgər siz İlondan soruşsanız ki, hansısa bir işi hansı müddətə görmək lazımdır,o heç vaxt bunun üçün bir saatdan artıq vaxt verməzdi, - deyir Ambras, - Biz artıq bilirdik ki, həmin "bir saat" bir və ya iki gün tutar, əgər İlon desə ki, bir gün tələb olunur, deməli, bir ya da iki həftə tələb olunur".

Zip2–nin yaradılması və onun inkişafının müşahidə edilməsi Maskı qürurlandırırdı (bəzən isə özünə inamlılıq verirdi). Kaliforniyaya gəlmiş Maskın məktəb dostlarından biri Terens Beni o dəqiqə İlonun xasiyyətində dəyişiklikləri hiss etdi. Mask anasını incidən ev sahibi ilə danışarkən o bu söhbətə fikir verirdi. "İlon dediI: "Əgər sən kiminləsə dalaşmaq istəyirsənsə mənimlə dalaş". Onun hər şeyin məsuliyyətini öz üzərinə götürdüyünü müşahidə etmək məni heyran etdi. Onun qəribə, ləng, əhval-ruhiyyəsi tez-tez dəyişən bir uşaq kimi xatırlayıram. Onu möhkəm təngə gətirmək lazım idi ki, əks reaksiya görəsin. İndi isə, o, özünə güvənən və hadisələrin idarə edə biləcək bir gənc idi". Bununla yanaşı Mask tez-tez başqalarını da tənqid eləməyə başladı. Jastin deyir: "İlon , "Mən sizi başa düşürəm, sizin fikrinizlə razıyam" deyənlərdən deyil. Onun belə xasiyyəti yoxdur. O başa düşmür ki, hər kəs üçün aşkar olan bəzi şeylər onun üçün aydın deyil. O təəcüblə bilir ki, 20 yaşında oğlanın, böyüklərin planlarını pozmaq və onların səhvlərini üzünə demək sən demə, ədəbsizlikdir. O öz davranışını müəyyən qaydada qurmağa öyrəşib. Düşünürəm ki,onun üçün ən əsası - strateji düşüncə və zehni inkişafdır". Bu cür şəxsi xüsusiyyətlər hər zaman uğur gətirmirdi. Mask cavan mühəndisləri yüksək tələblərlə və sərt tənqidlə incitməyə meylli idi. Zip2-

---

[27] Originalda proqramçıların məşhur jarqonizm "hairball" qeyd olunur (ing.), hərfi mənası – heyvanın mədəsində olan yun topu

nin kreativ direktoru Doris Dauns danışır: "Yadımdadı iclasların birində - bu yeni avtomobil saytının təqdimatı idi – kimsə bizim xoşumuza gəlməyən texniki dəyişikliklərdən şikayət etdi. İlon ayağa qalxdı və dedi: "Məni maraqlandırmır, bu sizin xoşunuza gəlir yoxsa yox", - və iclası tərk etdi. İlon üçün "yox" sözü mövcud deyildi və o bu yanaşmanı ətrafdakılardanda gözləyirdi". Bəzən yaşca daha böyük əməkdaşlara qarşıda sərt olurdu. "İclasdan çıxan insanların üzündəki nifrəti görmək olardı, - satici Mor deyir. – Siz İlona nə olduğunu bilmirsiz, o axı çox əla biridir. O isə hesab edir ki, her şey qaydasındadır və özünə çox güvənir".

Zip2-ə sərmaye qoyan investorların etdiyi dəyişiklərlə barışmaqa çalışan Mask böyük pulların üstünlüyünü hiss elədi. Maliyyəçilər Mask qardaşlarına vizalarla kömək elədilər. Həmçinin onlar hər birinə avtomobil almaq üçün 30.000 dollar ayırdılar. Bundan əvvəl İlon və Kimbal özlərinin köhne BMW-sini digər köhnə sedanla dəyişərək elə öz əlləriylə xal-xal rəngləmişdilər. İndi isə Kimbal 3-cü seriya BMW, Mask isə Yaquar E aldılar. Kimbal xatırlayır : " Düzdür, avtomobil tez-tez sınırdı və ofisə yük platformasında gəlirdi. Lakin, İlon həmişə uzaqgörən planlar düşünürdü".28

Bir dəfə istirahət günlərinin birində Mask, Ambras, və bir nəçə başqa əməkdaş və dostlar Santa – Krus dağında velosiped gəzintisini təşkil etdilər. İştirakçıların çoxu çətinliklərə və yayın istisinə hazır idi. Onlar dağa çox sürətlə qalxırdılar. Maskın əmisi oğlu Rass Riv zirvəyə ən birinci çatınca onun halı pisləşdi. Qalan velosipedçilərin dərhal hadisə yerinə gəldikləri halda Mask 15 dəqiqəyə gəlib çatdı.O qıpqırmızı qızarmışdı, tər su onu aparırdı, lakin o ən hündür nöqtəyə qalxa bildi. "Mən tez-tez bu səyahəti xatırlayıram, - deyir Ambras. - Mask lazımi qədər hazırlıqlı deyildi. Başqası bu səyahəti yarımçıq qoyardı və ya velosipedi əli ilə sürüb gələrdi. Mən onun son 100 fut (30 m) məsafəni qalxanda üzünün ifadəsini görəndə düşündüm: bu əsl İlonundur. Ya ölmək, ya qalib gəlmək. Və qətiyyən məqsəddən geri dönməmək".

---

[28] O zaman Mask yeni ofisi Meye (anasına) və Castina göstərdi. Mey bəzən iclaslarda oturur du və bir dəfə Zip2 xəritələri üçün insaların evə dönüş yollarının hesablanmasını mümkün edəcək dönüş marşrutu funksiyası ideyasını irəli sürdü; indi bu xəritə xidmətlərinin adi bir düyməsidir.

Mask elə ofisdə də energi mənbəyi idi. Vençur sahibkarlarının və digər sərmayəçilərin qarşısında Mask qoşunlara baxış keçirir kimi işçiləri idarə edir, hamını telefon zəngləri etməyə məcbur edirdi ki onlar da görsünlər ki, iş qaynayır. O, həmçinin, Quake[29] yarışmasında iştirak etmək üçün komanda tərtib etdi. "Biz ilk milli turnirlərin birində iştirak edirdik, - yada salır Mask. - Biz ikinci yerə çıxdıq, halbuki birinci yerə də çıxa bilərdik, lakin bizim oyunçuların birində videokartı artıq dərəcədə yüklədiyinə görə kompyuterdə nasazlıq yarandı. Nəticədə biz ancaq bir neçə min dollar qazandıq".

Sorkinin rəhbərliyi nəticəsində Zip2 qəzetlərin cəlb edilməsində böyük uğurlar qazandı. Kompaniyanın xidmətlərinə The New York Times, Knight-Ridder, HearstCorp və digər nəşriyyatlar qeydiyyata alındı. Bu kompaniyaların bəziləri Zip2-yə 50mln. dollar əlavə sərmayə yatırdılar. Pulsuz onlayn-elanların saytı tipli "Kreyqslist" xidmətləri təzə-təzə yaranırdı və qəzetlərə müəyyən bir iş kursu tərtib etmək lazım idi. Ambras deyir: "Qəzetlərin İnternetə çıxışı zəif idi və buna görə onların çox sayda yazılmasını təşkil etmək lazımdır. Onlar daşınmaz əmlaklrın, avtomobillərin və əyləncələrin kataloqunu istəyirdilər və bizi bütün bu onlayn servisləri üçün bir platforma kimi istifadə edə bilərdilər". Zip2 "Biz mətbuata hakimiyyəti verdik"[30] sloqanı qeydiyyata aldı, pul gəlirdi, şirkət inkişaf edirdi. Qısa zamanda baş ofisdə elə sıxlıq yarandi ki, iş masalarının birini qadın tualetinin qabağına qoymaq məcburiyyətində qaldılar. 1997-ci ildə Zip2 daha geniş apartmana Kastro-street 444 Mountin avenyu ünvanına köçdü.

Zip2-nin qəzetlərdən fərgli olaraq sonunda kölgədə qalmasi Maski əsəbləşdirirdi. O hesab edirdi ki, şirkət istehlakçılara bilavasitə maraqli xidmətlər təşkil edə bilər və city.com adla domen almağı təklif etdi ki, nəticədə, onu istehlakçi üçün son işlək mərhələyə çevirməyi ümid edirdi. Lakin media-kampaniyadan gələn pullar Sorkini və idarə heyyətini konservativ yolda saxlayırdı və onlar istehlakçilara qayği gostərmək qərarını boş verdilər.

1998-ci ilin aprelində Zip2 ikiqat səmərə verəcək iri əməliyyatlar barədə elan etdi. O, özünün əsas rəqibi olan CitySearch ilə birləşməsi üçün 300 milyon dollar

[29] Şuter janrında olan birinci şəxsdən aparılan 1990-cı illərin məşhur kompyuter oyunu
[30] We Power the Press (ing.)

dəyərində imza atdı. Yeni şirkət CitySearch adını saxlamalı, Sorkin isə müəssəyə rəhbərlik etməli idi. Nəzəri cəhətdən ittifaq bərabər hüquqlu görünürdü. CitySearch ölkənin bütün şəhərlərində  böyük şəbəkə kataloqlarına malik idi. Onun satış və marketinq üzrə komandası daha böyük idi, və Zip2-nin istedadlı işçiləri də onlara əlavə ediləcəklər. Birləşmə mətbuatda elan edilərək qaçınılmaz oldu.

Bundan sonra nə baş verdiyi barədə fikir ayrılığı vardı. Məntiqlə funksiyalarin təkrarlanmaması üçün bir sıra işçinin işdən çıxarilması və dəqiq qarşılıqlı audit tələb olunurdu. Bu proses zamanı CitySearch-in maliyyə sənədləriylə bağlı narahat edəcək suallar meydana cixdi; bundan başqa Zip2-nin bir-neçə əməkdaş onların vəzifələrin yeni şirkətdə zəiflədiyini və hətta olmadığını aşkar etdilər. Zip2 -nin əməkdaşlarının bir qismi sözləşmənin ləğv olumasını təkid etdikləri halda, Sorkin tələb edirdi ki, iş sona qədər aparılsın. Əvvəl sözləşmənin tərəfdarı olan Mask da ona qarşı çıxırdı. 1998-ci ilin may ayında şirkət birləşməni ləvğ etdi və mətbuat bunu böyük bir hadisə kimi şişirtdi. Mask Sorkinin bu işdən uzaqlaşdırılmasını və özünün Zip2-nin baş direktoru vəzifəsinə yenidən keçməsini tələb edirdi. Rəhbərlik bu təklifi rədd etdi. Bunun yerinə Mask sədr titulunu itirdi, Sorkini isə Mor Davidovdan olan vençur sahibkarı Derek Prudianla əvəz etdilər. Sorkin belə hesab edirdi ki, Mask özünü pis apardı. Vəzifəsinin aşağı salınmağı onun düzgün olduğunu sübüt edirdi. Prudian deyirdi ki, onlar bərk dalaşdılar. İlon baş direktor olmaq istəyirdi. Mən isə dedim ki, bu sənin birinci şirkətindi, gəl alıcı tapaq və pul qazanaq ki, sən ikinci, üçüncü, dördüncü şirkətlərini aça biləsən”.

Sövdələşmə ləvğ olduqdan sonra Zİp2 çətin vəziyyətə düşdü. O, pullarini tədricən itirirdi. Mask yenə də istehlakçı cəlb etmək istəyirdi, lakin Prudian buna çox vəsait tələb olunmasından ehtiyat edirdi. Eyni bazarda Microsoft çıxış edirdi, şəhər və avtomobil xəritələr startapları göbələk kimi artırdılar. Zip2-nin əməkdaşları narahat idilər ki, rəqiblərini keçə bilməyəcəklər. 1999-cu ilin fevralinda Compaq personal komputerlərinin istehsalçısı gözlənilmədən Zip2 alınması üçün 307 milyon dollar təklif etdi.  “Bu bizə göydən düşmə oldu", - Zip2-nin keçmiş əməkdaşı Ed Xo deyir. Zip2-ni idarəçiləri təklifi qəbul etdi, və şirkət Palo-Alto restoran icarəyə alıb, möhtəşəm banket verdi. Mor Davidov özünün ilkin

investisiyların 20 qatını qaytardı. Mask və Kimbal isə 22 və 15 milyon dollar aldılar. Mask heçvaxt Kopmaqda qalmaq fikrində olmayıb. “Şirkətin satılacağı məlum olan kimi İlon özünün növbəti proyektinə başladı”, - deyir Prudian. Bundan sonra Mask həmişə çalışdı ki, baş direktor olsun və şirkətin üstündə nəzarətini saxlasın. "Bizə elə gəlirdi ki, bu uşaqlar nə etdiklərini bilirlər, lakin bu səhf imiş, - deyir Kİmbal. - Onlar bizi alanda heç bir uzaqa gedən fikirləri yox idi. Onlar adi investorlar idi. Biz onlarla yaxşı anlaşdıq lakin şirkət öz konsepsiyasını itirdi”.

İllər keçdikcə Zip2-nin vəziyyətini bir qədər götür-qoy edən Mask öz iş yoldaşları doğru rəfdar etmədiyini başa düşdü. "Mən həqiqətən əvvəllər heçvaxt belə bir şirkət idarə etməmişəm, - deyir Mask. - Heç kimi idarə etməmişəm. Mən özümə sual verdim: Komandanın işinə nə təsir edir? Birinci fikir bu idi: başqaları özlərini sən özünü apardığın kimi apacaqlar. Lakin səhv etmişdim. Hamı sənin düşündüyün kimi, düşünə bilməzlər, sən bildiyin məlumatlara malik ola bilməzlər. Hətta mən öz əkiz tayımla  söhbət edərkən informasiyanın yarısını verə bilərəm, bu onun da mənim gəldiyim gərara gələcəyinə dəlalət etmir. İş görəcək insanın gözləri ilə baxmaq lazımdı hər zaman”.

Bəzən elə olurdu ki, Zip2-nin işçiləri səhər işə gələndə Maskın onlarla məsləhətləşmədən hərşeyi dəyişdirdiyini görürdülər. Maskın  bu yanaşması işə xeyirdən çox zərər gətirirdi. "Bəli, bizim Zip2-də yaxşı komputer mütəxəssislərimiz var idİ, amma mən hesab edirdimki kodlaşmanı onlardan yaxşi bilirəm. Mən yaxınlaşıb ona düzəliş ətməyi özümə borc bilirdim, - deyir Mask. - Mən gözləmək istımirdim ki, əməkdaşlar bunu etsinlər, özüm kodu dəyişirdim və hər şey 5 qat yaxşı işləyirdi, başa düşdün, axmaq? Bir dəfə bir oğlan lövhədə kvant mexanikasının tənliyini yazanda səhf buraxdı. Dedim: "Sən nə yazırsan?!"  və onu düzeltdim. Bundan sonra onun məndən zəhləsi getdi. Axırda mən başa düşdüm ki, formulanı düzəltdim, amma işçinin motivasiyasını endirdim. İşlər belə görülmür”.

Dotkom xeyalpərəst Mask uğurlu idi. O, gözəl ideya irəli sürdüç onu rel xidmətə çevirdi və reallaşdırdırıb dotkomdan cibində pulla cıxdı. Az adam bununla fəxr edə bilər. Bu çətin yol idi. Mask lider olmağa can atırdı, amma insanlar buna

şüphəylə yanaşırdı. Mask üçün onlar hamısı səhf edirdilər və o öz sözünün üstündə dururdu bu da bəzən dramatik nəticələrə gətirirdi.

# 5. Pay Palın xaç atası

Zip2-nin satışı İlon Maskın özünə inamını artırdı. Mask, sevdiyi kompyuter oyunlarının personojları kimi, yeni mərhələyə keçdi. O, Silikon vadisini “arxada qoyaraq” , hamının arzuladığı  dotkom millionçusu oldu. Onun müəssisəsi də nəfsinə uyğun olmalı idi. Buna görə Mask böyük pullar gətirəcək və internet vasitəsi ilə effektivliyini qaldıra biləcək  fəaliyyət növü axtarırdı. Mask, xəyalən, Bank of Nova Scotiada təcrübədə olduğu vaxtlarına qayıdırdı. O vaxtlar, onun “bankirlər varlı olduqları qədər də ağılsızdılar” fikri indi, qarşısında geniş fürsətlər açırdı.

90-ci illərin əvvəlində, Mask bankın strateji inkisaf direktorunun köməkçisi işləyəndə, ona, 3-cü dünya ölkələri üzrə kompaniyanın borc portfeli ilə tanış olmaq təklifi edilmişdi. Bu maliyyə birliyi  “zəif inkişaf edən ölkələrin borcu” adlanırdı . Bank of Nova Scotiada bu miqdar milliardlarla dollarlar təşkil edirdi. O vaxtda, Cənubi Amerikanın və başqa regionların bir sıra ölkələri defolt yaşamışdılar, və bankı məcbur edirdilər  ki, borclarının  bir hissəsini silsin. Maskın müdiri, ondan, təcrübə yığmaq üçün, bankın avuarlarında “qurdalanmağı” və ümumi borcun həcmini təyin etməsini istəyirdi.

Bu layıhəni öyrənərkən, Mask, növbəti kommersiya fürsəti tapdı. Birləşmiş Ştatlar bir sıra inkişafda olan ölkələrin borc yükünü Breydin istiqrazları vasitəsi ilə azaltmağa kömək etmək istəyirdilər.(həmin istiqrazların köməyi ilə ABŞ höküməti, əsasən Braziliya və Argentina kimi ölkələrin borclarını restruklaşdırılmasını edə bilmişdi).

Mask, bir anda, oyunun arbitraj sazişlərinin fürsətlərinə fikir verdi. Mask deyirdi:”Mən diskantı hesabladım, o, borc iltizamı 25 sentdən alınmasına baxmayaraq , hardasa bir dollara 50 sent eləyirdi. Bu, heç kimin görmədiyi ağıla sığmaz bir fürsət idi”. Bazarın baş treyderlərinin biri “Goldman Sachs”31 -a zəng vurub, vəziyyəti öyrənəndə, Mask özünü  soyuqqanlı göstərməyə çalışırdı. O Braziliya borcundan nə qədərini 25 sentə almaq olar soruşanda,-  onların ,siz nə

31 Dünyanıniri banklarından biri.-red.qeydi.

qədər istəyirsiniz sualına, mən 10 milliard dollara yaxın ağıla sığmaz bir rəqəm dedim”- deyir Mask,- Treyder bunun mümkün olduğunu təsdiqləyəndə, Mask dəstəyi asdı. “Mən fikirləşdim ki, onların başı işləmir, axı belə etməklə dəyəri iki dəfə çoxaltmaq olar. Pulu isə, “Sem əmi ödəyəcək”. Bu ki çox sadədi.”

Bütün yayı, saatına hardasa 14 dollar qazanaraq və müdiriyyətin qəhvə dəmləyən apparatını başqalarına istifadəyə verdiyinə və digər günahlara görə danlanan Mask öz bir yandan özünü göstərmək və pul qazanmaq vaxtının gəlib çatdığını düşündü. O, müdürün otağına qaçaraq, ona parlaq görünən perspektivli qazanc növünü təsvir etdi. “Siz, demək olar ki, havadan milliardla dollar qazanacaqzınız!” – o həyəcanla deyirdi. Müdir isə, ondan məlumat yazmağını tələb etdi, məlumat tezliklə bankın icraçı direktoruna çatdı, icraçı direktor bankın Braziliya və Argentina borclarında tam yandığını və yenidən bu fırıldağa girmək istəmədiyini bildirərək, bu təklifi rədd etdi, Mask deyirdi: ”Mən izah etməyə çalışırdım ki, burada başqa məsələdir. Axı , “Sem əmi kömək edəcək”! Cənubi Amerikada olanlarla qarışdırmayın. Siz heçnə itirmirsiniz, yalnız, əgər ABŞ-ın Maliyyə Nazirliyi müflis olarsa, mənfi nəticəylə üzləşmək mümkündür. Lakin,onlar heçnə eşitmək istəmirdilər, və bu məni sarsıtdı. Bir müddət sonra, banklarla rəqabət edərkən, mən bu hadisəni xatırlayırdım, və bu, məndə özümə inamı artırdı. Bütün bankirlər bir birilərini yamsılayır. Sanki hamı qayadan hoppansa, onlar da hoppanacaqlar. Otağın ortasında qızıl torbası olsa, onu heç kim götürməsə, onlar da götürməyəcəklər.”

Sonralar Mask internet-bank yaratmağı düşünürdü, və 1995-ci ildə Pinnacle Research- də təcrübə keçərkən bu mövzunu açıq müzakirə edirdi. Hələ gəncikən Mask alimlərə maliyyə mühütündə onlayn-sistemlərə keçidin zəruriliyi haqda deyəndə, ona etirazlar bildirirdilər: müştərilərin cəlb edilməsi üçün şəbəkənin təhlükəsizliyini lazımi dərəcəyə çatdırana qədər əsrlər keçəcək. Lakin, Mask, əvvəlki qədər əmin idi ki, maliyyə sektoru radikal modernizasiya astanasındadı və nisbətən kiçik potensialla bank fəaliyyətinə xeyli təsir göstərə biləcək. 2003-cü ildə, Stenford universitetində çıxışı zamanı o deyirdi: ”Pullarla iş ciddi keçiriricilik qabiliyyəti tələb etmir, sizə işləmək üçün infrastrukturu ciddi artırmaq

lazım deyil. Sadəcə, məlumat bazasında bir sətir artırmaqla bu işi görmək mümkündü."

Həqiqətən də, Maskın çoxdan fikrində tutduğu plan möhtəşəm idi. Pinnacle-da tədqiqatçılar dedikləri kimi, internetdə mühasibatı aparmaq insanlara belə də rahat olmayacaq. Onlar kredit kartının nömrəsini daxil etməyə cəsarət etsələr də, bank hesablarını veb-ə etibar etməyi ağıllarına belə gətirməyəcəklər. Nə oldu? Mask, əmanətləri qəbul edən, cari hesablara xidmət edən, broker və sığorta xidmətlərini göstərən onlayn maliyyə institutu yaratmaq istəyirdi. Texnologiya tərəfdən belə bir servis qurmaq olardı, amma sıfırdan onlayn bankın yaradılmasını- cəhənnəm əzabına bərabər iş nikbin insanlara çətin olduğu halda, digərlərinə isə həlli olmayan məsələ idi. Bu nə pizzeriyaya yol marşrutunun, nə də daşınmaz əmlak kataloqunun tərtibi idi! Bu iş insanların maliyyə vəsaitləri ilə idi, və əgər işlər gözlənilən kimi getməsə, nəticələr dəhşətli olacaqdı.

Lakin bu Maskı qurxutmurdu. O, öz planını hələ Zip 2-nin satışına qədər həyata keçirməyə başlamışdır. Beynində götür qoy edərək, özünün yeni macarasına qoşmaq məqsədiylə, o kompaniyanın ən yaxşı mühəndisləri ilə söhbət etmişdi. Kanada bankında olan əlaqələrini də müzakirəyə cəlb etmişdi. 1999 –cu ilin yanvarında, ZİP 2-nin idarə heyəti kompaniya üçün alıcılar axtaranda, Mask öz bank planını qeydiyyatdan keçirməyə başladı. Compaq-la saziş növbəti ayda elan edilmişdi. Martda isə Mask ədəbsiz Xcom adı altında olan maliyyə startapını qeydiyyata aldı. On ildən az vaxt lazım oldu ki, Kanada torpağına qədəm basan gözə çarpmayan, belində çanta gəzdirən cavan oğlan olan Mask, 27 yaşlı multimillionçuya çevrildi. 22 million dollara sahib olduqdan sonra o, üç qonşu ilə qaldığı bir otaqdan, 1800 kvadrat futu (167m2) sahəsi olan təmir etdiyi evə köçür. Bundan başqa, o bir million dollara Mclaren F1 idman avtomobil, kiçik vintli təyyarə alır və onu idarə etməyi öyrənir. Mask, artıq ,dotkom millionçusunun şöhrətini qazanır. Budur onun evinin qabağında, səhər saat 7-də, avtomobilinin çatdırılmasını çəkmək üçün CNN gəlir, qara yük maşını onun evinin qarşısında dayanır, onun içindən qəşəng maşın çıxır, bütün bunları isə əlləri sinəsində heyrətlə izləyən Mask. "Dünyada cəmi 62 McLaren avtomobili var, və indi mən,

onun birinin sahibiyəm- CNN-ə müsahibəsində deyir o, - Buna inanmaq çətindi. Superdi!”

Avtomobilin gətirilməsi kadrlarını Maskın jurnalistlərin suallarına cavabları ilə əvəzləyir. Bütün bunlar asan yolla zənginləşən insanın karikaturasini xatırladır. Maskın saçları seyrəldikcə, onun qısa saç kəsimi uşaq sifətinin cizgilərini daha da qabardır. Əynində qəhvəyi rəngdə idman üslubunda olan gödəkçə, gözəl rəfiqəsi Castınla əntiqə avtomobilində mobil telefonla danışan Mask, həyatından tam razı görünür.Zəngin insanın hərəkətlərini ardıcıllıqla nümayiş etdirir. Zip 2-nin satışı haqda, o belə deyir: ”Bu sadəcə puldur. Mən Ben Franklinlin şəkli olan kağızları nəzərdə tuturam”. Öz gözəl həyatı haqda : Cənablar, bu dünyanın ən sürətli avtomobilidir. Öz artan nəfsi haqda : “Mən Bahamalarda özümə bir ada ala bilərdim və onu şəxsi mülküm edə bilərdim, lakin mənə yeni kompaniyanın yaranması daha maraqlıdır”. Çəkiliş qrupu Maskın arxasınca X com-un ofislərinə gedir, burada o: ”Mən bankirlar haqda təsuratlarınız çərçivəsinə daxil deyiləm”, 50 million dollar nədir ki? Bir neçə telefon zəngi və artıq bu pullar əlimdədir. Mən düşünürəm ki, X com, , qızıl mənbəyidi, multimilliardlıq təşkilat ola bilər.

Mask McLaren avtomobilini Floridadan Ralf Loren[32] adlı başqa bir alıcının, demək olar əlindən almışdı. Ən varlı insanlar McLarena xüsusi hallarda ya da arada bazar günlərində gəzintiyə çıxdıqları zamanı mindikləri halda, Mask bu avtomobillə bütün Silikon vadisini gəzib dolanmış, X- comun ofislərinin yerləşdiyi küçələrdə parkovka eləmişdir. Onun dostları, belə incəsənət əsərini göyərçin zilinə bulaşmış və ya Safervay supermarketinin parkovkasına atılmış vəziyyətdə görəndə, dəhşətə gəlirdilər. Bir dəfə, Mask McLareni olan Oracle korporasiyasının təsisçisi Larri Elisonun elektron poçtuna ona yol yoldaşlığı edərək, trekdə avtomobil yarışına qoşulması üçün məktub göndərmişdi. Başqa bir milliarder və sürətli maşınların həvəskarı Cim Klark[33], bu təklif haqqında eşidəndə, dostuna Ferrari diller mərkəzinə gedib, rəqabətə gücü olacaq nəinsə alınmasını məsləhət görmüşdü. Mask, “məşhurların” klubuna qoşuldu. “İlon çox həyəcanlı idi,- Maskın yaxın dostu və zəngin kapitalist Corc Zakari deyir. - O mənə Larri ilə yazışmasını

[32] Ralf Loren (1931) – amerikan modelyeri, dizayner və sahibkar, dünyanın ən zəngin insanlardan biri.
[33] Ceyms Klark (1944) – Netscape korporasiyasının təsisçisi

göstərirdi.” Növbəti il, Send – Xillroud küçəsi ilə, investorla görüşə gedərkən, Mask dostuna tərəf çönüb, dedi: ”Bax!” O, pedala axıra qədər basıb, başqa yol sırasına girib, maşını döndərərək, yol hasarına girdi, maşın uçan boşqab sayağı elə bil havaya qalxdı, pəncərələr və təkərlər param parça oldu, avtomobilin qabağı zədələndi. Mask yenidən yol yoldaşına tərəf çönüb, dedi:”Ən gülməli isə, bilirsən nədi,avtomobil siğortalanmayıb.” Sonra onlar investorun yanına ofisə getmək üçün, yolda maşın tutmalı oldular. Amma Mask pleyboy obrazına tam uyğun gəlmirdi. Əslində o, Zip 2-nin satışından alınan pulların böyük hissəsini Xcom-a yatırmışdı. Bu qərar üçün əsaslı səbəblər var idi. Vergi qanunvericiliyinə əsasən, əgər investorlar bir iki aya yeni müəssisədən gəlir götürsələr, rahat nəfəs ala bilərdilər. Lakin, Silikon vadisinin ən yüksək təhlükə standartlarına görə, belə bir şübhəli proyektə - onlayn banka yatırım qoyulması şok effekti verdi. Mask isə X coma, vergiləri çıxmaq şərti ilə, özünə 4 mln. dollar saxlayıb, 12 mln dolları investisiya qoymuşdu. ”Bax, məhz elə bu İlonu başqalarından fəeqləndirir, - Zip 2-nin keçmiş əməkdaşı, Xcom-un icraçılarından biri olan Ed Xo deyir: ”Mask ağlasığmaz təhlükəyə getməyə hazır idi. Əgər siz bunu etməyə qərar verirsinizsə, onda ya fələyin qucağına düşəcək, ya da avtobus dayanacağında özünüzə yatmağa yer axtaracaqsınız.”

Maskın Xcom-a bu qədər pulun yatırtması qərarı retrospektivdə daha da qeyri adi görünür. 1999-cu ilin nümunəsi olan dotkom müvəffəqiyyəti özünün dəyərini göstərməklə, bir neçə million toplamaq, sonra isə öz peşəkar müvəffəqiyyətini istifadə edərək, insanları sənin növbəti təşəbbüslərinə investisiya etməyə inandırmaqdan ibarət idi. Mask əlbəttə ki, xarici investorlara arxalanırdı, lakin əsas payı, özü yatırırdı. Buna görə Mask televizorda başqa dotkom personajları kimi, (əsasənözü ilə məşğul olanlar) danışmağına baxmayaraq ki, öz hərəkətlərində, o Silikon vadisində İntel sayağı kompaniyanın təsisçiləri kimi bütün hərəkətlərə görə məsuliyyəti öz boynuna götürürdü.

Zip-2 hələ sadəcə xeyirli bir ideya olarkən, Xcom inqilabi dəyişikliklər etməyə söz verirdi. Mask, ilk dəfə olaraq, bütün stereotiplərin dəyişdirilməsini əsas tutaraq, problemə digər tərəfdən baxmaq üçün, özünü maliyyə sektorunda gizlənən

zənginlərə qarşı qoyacaqdı. Həmçinin, Mask yüksək çətinliyi olan biznesə qoşulduğunu özünün nümunəvi üslubunda işlənməsinə başlayıb, bu sahəni heç də bilmədiyindən narahat olmayaraq düşünürdü ki, bankirlər heç nəyi düz eləmirlər, və o bu biznesi başqalarından daha yaxşı idarə edə biləcək. Maskın özünə arxayınlığı və eqosentrizmi o dərəcəyə çatmışdı ki , o öz fikirləri iləbirilərini heyrətləndirsə də, digərlərini pula dəyər verməməsiylə qorxudurdu. Xcom-un yaradılması Maskı kreativliyi, inadkarlığı, konfrontasiya üslubuyla yanaşı, rəhbər kimi zəifliyini də göstərmiş oldu. Mask, şəxsi kompaniyasından qovulmanın nə hiss olduğunu, və arzuların həyata keçmədiyinin mümkünsüzlüyünün ağrısınıyaşayacaqdı.

Xcom-un yaradılması üçün, Mask, sözün əsl mənasında, ulduzlu komanda yığmışdı. Xo mühəndis kimi SG1 və ZİP2-də çalışırdı, və yoldaşları onun işini çox dəyərləndirirdilər. Onunla Maska maliyyə aləmində iş təcrübəsi olan iki nəfər kanadalı –Xarris Friker və Kristofer Peyn qoşuldu. Mask Frikerlə Bank of Nova Scotia-da təcrübədə olan zaman tanış olmuşdu, və onlar bir anda dil tapdılar. Rods təqaüdçüsü34 Friker, Xcom üçün lazım olan bank dünyasının iş mexanizminin biliklərini də özü ilə gətirmişdi. Peyn Frikerin Kanadakı maliyyə əhatəsindən olan dostlarından biri idi. Elə bu 4 nəfər kompaniyanı təsis etdi, Mask isə həmçinin onlardan çox yatırım qoymaqla, kompaniyanın ən böyük aksioneri oldu

Xcom , Silikon vadisində tez-tez olduğu kimi, təsisçilərin “beyin savaşları” etdikləri mənzildə yaranmışdı, sonra isə Palo-Alto 394, Universiteti avenüda yerləşən ofisə köçürdülmüşdü.

Təsisçilər bank industriyasının zamənədən geridə qaldığını hesab edirdilər. İnternet zəmanəsində xəzinadarla danışmaq üçün bank şöbəsinə getmək? Bu çox arxaik görünürdü. Fikir əla olduğundan dördlüyü fərəhləndirirdi. Onları yeganə dayandıran-reallıq idi. Maskın bank sahəsində iş təcrübəsinin azlığı , onun daxili mexanizmləri dərk etmək üçün kitablar alırdı. ”Hücum” planını işlədikcə, təsisçilər, internet-bankın yaranmasını dayandıran normativ hüquqi suallar, öhdəsindən gəlmək olmayan gücün səbəbləri olacaq, və onlar bunu başa

34 Rods təqaüdü-Oksford universitetinin beynəlxalq təqaüdü CAR-ın siyasi xadimi ,iş adamı və De BEERS kompaniyasının yaradıcısı Sesil Rods.-red. qeydi

düşürdülər. “Dörd, beş ay keçmişdi, biz isə hələ yükləyirdik- deyə Xo35 xatırlayır. Şəxsi münaqişələr başladı. Mask Silikon vadisinin ümidverici super ulduzu idi, pressa onu sevirdi. Bu da Frikerin xoşuna gəlmirdi. O, Kanadadan köçdü, və bank bilicisi kimi Xcom- da özünü nümayiş etdirməyə bir şans idi. Bir çoxu deyir ki, Friker Xcom kompaniyasını idarə etmək istəyirdi, və ənənəvi üsula əl atırdı. O, kompaniyanın öz öhdəliyinə həddən artıq çox götürdüyü halda,ağılsızların bank sahəsinin yenilənmiş fikirlərinə dair Maskın pressaya etdiyi bəyanları tapdı. “Biz pressaya çox şeylər söz vermişik ,-Friker deyirdi, -İlon adətkar olan biznes aləmindən və adi işgüzar təfəkkürdən imtina etməyi təklif edir. O deyir: “Biz indi xoşbəxtlik fabrikasını yaradacayıq və onu, buraya, vadiyə gətirəcəyik. Friker, Maskı məhsulunun çox reklam etməsində, səs küyün yaradılmasında günahlandıran son adam deyildi, amma bu Maskın sahibkar kimi nöqsanı yoxsa istedadı idi mi, bunu hələ anlamaq lazım idi.

Frikerlə Maskın arasında olan münaqişə, tez və xoşagəlməz nəticəylə bitdi. X. comun yaradılmasından 5 ay sonra, Friker üsyan etdi.”O dedi ki, ya o baş direktor olur, ya da öz adamlarını götürüb, şəxsi kompaniyasını yaradır,- xatırlayırdı Mask. –Mən cavab verdim:”Məni bir şantaj etməyi çatmırdı. Get və yarat. O da getdi.” Mask Xonu və bir neçə başqa əsas işçilərini getməməyə inandırmaq istəyirdi, lakin onlar Frikerin tərəfini tutdular və kompaniyanı tərk etdilər. Mask kompaniyanın adı və bir neçə ona sadiq qalan işçilər ilə qaldı. “Xatırlayıram, baş verənlərdən sonra, biz İlonla ofisdə oturmuşduq-Maskla qalan Xcomun ilk əməkdaşlarından biri Culi Ankenbranolt xatırlayırdı – O zaman X.com kimi biznesin yaradılması əleyhinə bir çox qanunlar var idi. Amma İlonun heç vecinə də deyildi. O, sadəcə, mənə baxdı və dedi: ”Mən düşünürəm ki, bizə bir neçə adam götürmək lazımdı.”36

---

35 Bir zaman təsiisçilər düşünürdülər ki, onların problemlərinin həllində ən asan yol bir bank alıb,onu özlərinə məxsus üslubda yenidən qurmaq idi.Bu baş verməyənə qədər onlar Bank of Amerika-nın maliyyə xidmətinin təcrübəli idarəedicisiylə əlaqə qurdular. O onlara kredit sisteminin çətinlikləri, pul vəsaitlərinin köşürmələrinin və hesabların qorunması haqqında ətraflı məlumat vermişdi.

[36] Friker özünün baş direktor olmasına dair mübahisə edirdi.O deyir ki,başqa əməkdaşlar bunu ona özləri təklif etdi,cünki Mask durduğu yerdən irəliliyə bilmir. Friker və mask barışmadılar.”İlonun özünəməxsus etika və namus kodeksi vardı,və o oyunu artıq dərəcə qəddar aparır, - Friker deyir.- Onun üçün biznes bir savaşdır. Maskın sözlərinə əsasən, Xarris çox ağıllı idi, lakin mən onun təmiz ürəyinin olmasına inanmıram. O idarə etmək üçün qəbulolunmaz istiqamətlər təklif edirdi.Friker gələcəkdə kanadanın maliyyə şirkəti olan GMP Capital-ın baş direktoru kimi uğurlu karyera qurmuşdu.Peyn Torontoda fərdi səhmdar şirkət qurmuşdu.

Mask, Xcomüçün maliyyələndirməni cəlb etmək istəyirdi. O məcbur oldu zəngin investorların yanına gedib, onlara etiraf etsin ki, kompaniyada bir dəri qalıb, bir sümük. Sequoia Capitaldan məşhur Mayk Morbis, bütün bunlara baxmayaraq, kompaniyaya dəstək oldu, və əsasən, Maska arxayın oldu.Mask, yenidən Kremniy valleyyində məşhurluq qazandı, internet- bankların gələcəyi haqqında təsirli danışıqları ilə, o yeni əməkdaşlar cəlb edə bildi. Skot Anderson, gənc kompyuter alimi, kompaniyaya 1999-cu ilin avqustun 1-də bu olaylardan bir neçə gün sonra gəlib, Maskın bütün fikirlərinə tamamilə dəstək oldu. “Geriyə baxarkən, bütün bunlar ağılsızdıq kimi görünürdü”-Anderson deyirdi-vöb saytın hollivud dekorasiyalarına bənziyirdi. Qəribədir ki, bu investorlardan keçə bildi.”

Günlər keçirdi, əməkdaşların saı artırdı, görüntülər reallaşmağa başlayırdı. Kompaniya bank fəaliyyətinə lisenziyanı və investisiya fondunun pay lisenziyasını aldı, Bacrlays maliyyə konqlomeratı ilə şərik münasibətlər qurdu. Noyabr ayına X comun proqram təminінin balaca yaradıcı komandası DSFK da (Depozitivlərin tam sığortalanması ilə və investorlar üçün üçpay fondu ilə dünyada ilk internet-bankları yaratmışdılar. Mask təsisçilərə testların aparılması üçün öz şəxsi pullarından 100 min dollar verdi. 1999-cu ilin День Влагодерение gecəsi Xcom fəaliyyət göstərməyə başladı.”Mən orada gecə saat 2 yə qədər oldum, -Anderson deyirdi.-Sonra bayram naharına hazırlaşmaq üçün evə getdim, bir neçə saatdan sonra İlon mənə zəng vurdu, və bir neçə əməkdaşlarımıza kömək etmək üçün ofisə gəlməyimi xahiş etdi.Hər şeyin işləməsinə əmin olmaqdan ötrü, onun özü iki gecə idi ofisdən çıxmırdı.

Maskın rəhbərliyi altında, Xcom bir neçə əsas bank əməliyyatlarını yoxlamışdır. Müştərilər qeydiyyat olduqlarına görə bank kartına 20 dollar alırdılar, hər cəlb olunan adam sayına görə 10 dollar əldə edirdilər. Mask limitin keçməsinə görə cəza sanksiyalarını və əsəbləşdirən xırda yığımları bitirdi. Həmçinin, Xcom elektron poçtun saytda ünvanını göstərib pulu göndərmək üçün fərdi ödənişlərin müasir sistemini düzəltdi. Bu təklif bir neçə gün çəkən ödənişlərin işlənməsi sisteminin sakit bank işindən uzaqlaşıb, pulları elektron vasitəsi ilə ya da siçanı bir iki dəfə tıklamak ilə sürətli bank hesabının yaradılmasından ibarət idi. Bu yırtıcı

yanaşma idi və 200min insanlardan çoxu inanıb, işin iki ayında X comun müsbətləri oldu. Tezliklə Xcom güclü rəqib əldə elədi. Iki qoçaq oğlan –Maks Levçin və Piter Til, ilk öncə, Continiti adlanan ödəniş sistemləri üzərində işləyirdilər. Ofislərini, daha dəqiq desək, süpürgələr saxlanılan ambarı, onlar Xcomdan kirayə götürmüşdülər və Palm Pilotun ovuc içi kompyuterlərin sahibləri üçün qurğularda insraqırmızı portlardan pul köçürmələrini reallaşdırmağa cəhd edirdilər. Universiti avenüda, balaca ofisdə yerləşən Xcom və Confinitu internetdə maliyyə inqilabın mərkəzinə dönüllər. "Bu cavan oğlanlar hər şeyi unudub, işləyirdilər,-Ankenbrandt xatırlayırdı.-Orada bir iy var idi ki –mən indiyə qədər onu hiss edirəm, pizzağalığının iyi, çirkli bədən və tər iyləri."

Xcomla Confinitinin xoş dostluğu qəflətən bitdi. Confinitynın təsisçiləri, həmin küçədə yerləşən başqa bir ofisə köçdülər, və Xcoma bənzər, PayPal adlanan elektron poçtu və şəbəkə vasitəsi ilə həyata keçən ödənişlərin fərdi xidmətində diqqətini cəmlədilər. Müştərilər uğrunda kompaniyalar şiddətli vuruşmada tutaşdılar. Aydın idi ki, kim çox istifadəçi cəlb eləsə, o da qalib gələcək. Onlarla million dollar reklam kompaniyalarına xərclənmişdir, bir neçə millionda – serverlərə fırıldaqçı hərəkətləri üçün yeni meydan kimi baxan xakerlarla mübarizəyə. "Onlar elədikləri, strip klubda tökülən pulların internet variantına bənzəyirdi, -sonralar Yelpin baş direktoru olan, Xcomun əməkdaçı Ceremi Stopelman deyirdi, -Pullar ağılasığmaz sürət ilə yox olurdular."

İnternet –ödənişlərdə liderlik uğrunda qaçışlar Maska, tez fikirləşmək bacarığını və əmək etikasını nümayiş etdirməyə şans verdilə. O, Ebay kimi internet-ayksionların saytlarında yer tutan Pay Palın üstünlüyünə əks göstərən planlarının işlənməsini davam edirdi. Mask Xcomun əməkdaşlarını rəqiblərə qarşı ölüm döyüşünə birləşdirdi. "Nazlanmağa vaxt yox idi – Ankenbrandt deyirdi – Biz hamımız gün ərzində 20 saat işləyirdik, o isə 23 saatın hamısını".

Nəhayət ki, 200-ci ilin martında Xcom və Confinity düşmənçiliyi dayandırmaq qərarına gəldilər və güclərini birləşdirdilər. Confinitynin PayPal kimi məhsulu var idi, lakin yeni müştərilərə görə günə 100 min dollar ödəyirdi və irəli getmək üçün pul rezervləri yox idi. Əksinə, Xcomun çoxlu pul vəsaitələri və daha

mürəkkəb bank məhsulları var idi. O birləşmənin şərtlərinin təyin olunmasında təşəbbüs göstərir, və Mask Xcom adını saxlamış, birləşmiş kompaniyanın ən böyük reksioneri olub. Tezliklə, birləşmədən sonra Xcom, sponsorlarından Deutsche Bank və Coldman Sachs daxil edərək, 100 mln dollar aldı, və bir milliondan artıq müştərilərin olması ilə öyünə (lovğalana) bilərdi.

İki kimpaniya öz korporativ mədəniyyətlərini bir yerə gətirməyə çalışdılar, lakin uğursuz oldu. Xcomun əmkdaşları yeni iş yoldaşları ilə işləmək, kompüterlərin monitorlarını stullara şhur ilə bağlayıb küçə ilə Confinitynin ofislərinə tərəf sürüşdürdülər. Lakin onlar bir komanda belə də olmadılar. Baxmayaraq ki, hanı Pay Palun tərəfinə danışırdılar, Mask Xcom brendini qorumağı davam edirdi. Başqa söz söhbətlər kampaniyanın texnoloji infrastrukturunun tikilməsinə görə yarandı. Confinitynin komandası Levçinla başda olmaq ilə, Linux tipli açıq proqram təminatı istiqamətində hərəkəti leyhinə danışırdılar, Mask isə Microsoftun proqram təminatına daha effektlisi kimi dəstəkləyirdi.  Kənardakılar üçün belə münaqişələr elə də vacib görünmiyə bilər, lakin təsisçilər üçün, hansılardan ki bir çoxu, Microsoftu köhnəlmiş pislik imperiyası, Linux isə müasir proqram təminatı hesab edənlər üçün, bu dini müharibənin başlanmasına b ərabər idi. Birləşmədən iki ay sonra Till istefaya verdi, Levçin də biunu etməklə hədələdi Mask parçalanmış kompal\niyanı idarə etməli idi.

Xcomun toqquşduğu texniki sualla, çətinləşdilər, çünki müştəri bazasıartımının partlayıcı xəsiyyəti ilə hesablama sistemiləri bacara bilmirdi. Həftədə bir dəfə kompaniyanın vebsaytı dağılırdı. Bir çox mühəndislərə yeni sistemin yaradılması üzərində işləməyə əmr edilmişdir, bu da əsas texniki kadrları yayındırırdı və Xcomu xakerlərin hücumu üçün zəif edirdi. “Biz pulu qazanan kimi, tezdə itiririk” – Stopelman deyirdi. Xcopm daha məşhur olduğu üçün və onun tranzaksiyalarının həcmi partlayıcı xasiyyət daşıdığı üçün, problemlər daha da dərinləşirdi. Fırıldaqçılığın sayı artırdı. Kredit kompaniyaların və bankların xeyrinə pulun yığılması artırdı. Startaplar tərəfindən rəqabət artırdı. Xcom kompaniyası üçün işlədiyi pullardan gəlir almaq üçün və itkiləri kompensasiya

etməsi üçün tamamlanmış biznes modeli çatışmırdı. Startapın baş maliyyə direktoru, sonralar isə Sequoiadan məşhur sahibhar, Ralf Bofa, Maskın Xcomun problemlərinin əsl şəklini idarə heyətinə göstərdiyi düşünmürdü. Artıq kompaniyanın bir çox adamları Maskın böhran anlarında qərar vermək qabiliyyətində şübhələnirdilər. Nəticədə çevriliş olur – bir çox müxtəlif çevrilişlər görən Kremniy valleyyinin tarixində ən mundar çevrilişlərdən biri. Bir axşam Xcom bir neçə əməkdaşlar qrupu PaloAltoda Fanny&Alexander barında (hal hazırda o bar yoxdur) yığışaraq, Maskın işlərdən uzaqlaşdırılmasını düşünməyə başlayırdılar. Baş direktor vəzifəsinə Tilin qaytarılmasını idarə heyətini təklif etməyə qərar verdilər. Maskla üz-üzə gəlməmək üçün, Levçin və onun yoldaşları bu işin onun belinin arxasında çevirməyə yığışdılar.

Mask və castin 2000ci ilin yanvarında evlənməmişdilər, lakin bal ayı haqqında deyirdilər. Buna görə, 9 ay sonra, 2000-ci ilin sentyabrında onlar Sidneya investisiyaların cəlb olunması üçün gəzintiyə gedirlər, və həmin gəzintini bal ayı ilə bitirib, həmçinin Olimpiya oyunlarına baxmaqla həm ziyarət. Həm ticarət etməyə planlaşdırırlar. Axşam onlar təyyarəyə minərkən, Xcomun qalan başçıları kompanıyanın idarə heyətin etibarsızlığı haqda məktub göndərdilər. Maska sadiq qalan bir neçə nəfər nəfər, nə isə hiss etdilər, lakin artıq gec idi. "Mən ofisə gecə, on birin yarısında gəldim, və orada millət dolu idi, - Ankenbrandt deyirdi, - Mən buna inana bilmirdim. Mən İlona zənq vurmağa çalışırdım, lakin o artıqtəyyarədə idi". Təyyarə yerə enən zamanı Maskı Tillə əvəz etdilər.

Mask, baş verənləri bilən kimi, ən birinci reyslə Pal Altoya təcili qayıdır. "Bu şok idi, lakin Maskın tərəfinə danəşaq, o özünü layigincə aparırdı," – Castin deyirdi. Bir müddət Mask müqavimət göstərməyə çalışırdı. O idarəheyətindən qərarın yenidən baxılmasını tələb edirdi. Ancaq, başa düşəndə ki iş işdən keçib, msk geriyə çəkildi. "Mən Morits və başqaları ilə danışdım – deyirdi mask, - mən baş direktor olmamığımı iddia etmirdim, sadəcə bu istiqamətdə söhbət aparırdım. "Ahi vacib işlərin olacağı planlaşdırırdı, lakin əgər mən baş direktor deyiləmsə, onları həyata keçirməyimdə əmin deyiləm." Sonra mən Mask və Piterla danışdım,

və məndə, düşündüklərini həyata keçirəcəklərini edə biləcəkləri təsuratı qazandı. Onda bu hılı dünyanın axrı deyil".

Maskın tərəfində olan, Xcomun bir çox əməkdaşı, baş verənlərə sevinmirdilər. Mən olanlardan mat qalmışam və dilxor idim,-Stopleman deyirdi,- İlon elə bil rok ulduzu idi. Mən bir ağılsızlığın baş verdiyi deyirdim. Lakin, mən bilirdim ki, bütövlükdə kompaniyanın işləri yaxşı gedir. Bu möhtəşəmbir gəmi idi, və mən onu tərk etmək etmək istəmirdim."Stopelman (onda 23 yaşı var idi) konfrans zalına daxil oldu və Tilnən Levçinin üstünə atıldı. "Onlar mənə hirsimi boşaltmağa imkan verdilər, və onların bu reaksiyası, mənin kompaniyada qalmağıma səbəb oldu."

Şübhə və kədər hisslərini başqalarında hiss edirdi. Bunlar hamısı altan-altan və alçaqcasına olak hərəkət idi, - zip2nin və Xcomun mühəndisi Branden Spayks deyirdi,- Bəlkədə mən, bu qəraraı dəstəkliyərdim, əgər İlon özüdə orada olsaydı".

2001ci ilin iyununda Maskın kompaniyada təsiri xeyli zəifləmişdir. Həmin ayda Til, Xcom və OayPoal kompaniyalarınrebrendigini keçirmiçdir. Mask özünə qarşı hörmətsizliyi çox nadir hallarda cabvabsız qalardı. Lakin, bu hadisədə, o, aıla sığmayan təmkinliknümayiş etdi. O, kompaniyanınməsləhətçi rolunu seçdivə PayPol kompaniyasının ən böyük aksioneri kimi, öz payınıartıraraq, kompaniyaya investisiya etməyini davam edirdi. "İlonun yerinə başqası olsaydı, qəzəblənərdi və qisas planlarını düşünməyə başlayardı, lakin o, özünü başqa cürə apardı, - Bota deyirdi,- o Pitera dəstək oldu. Bu çox alicənab hərəkət idi."

Növbəti aylar Maskın üçün dəyərli olacaqdır. Dotkom fırıldağı sona çatrdı, və insanlar, hansı yol olursa olsun, öz pullarını nəğdləşdirməyə çalışırdılar. Ebayın idarə heyəti Pay Palın alınması haqda düzünməyə başlayanda, bir çox insanların istədiyi olduqca tez satmaq idi. Lakin Mask və Morits idarə heyətinin bir sıra təkliflərindən imtina etməsinin və çox pul tələb etməsinin üstündə dururdu. Pay Pal 240 mln.dollara yaxın gəlir əldə edirdi və özünü müstəqil kompaniya kimi fəaliyyət göstərə bilən və açıq bazara çıxa bilən kompaniya kimi aparırdı. Maskla Moritsin müqaviməti özünü artıqlaması ilə doğrultdu. 2002-ci ilin iyulunda eBay Pay Pala görə 1,5 milliard dollar təklif etdi, və Mask idərə heyətin qalan üzvləri ilə

birgə sazişə razılaşdılar. Mask kompaniyanın satışından 250 mln. dollara yaxın, 180mln. dollar vergi ödədikdən sonra, təmiz gəlir əldə etmişdir, və öz cəsur arzularını yerinə yetirmək üçün bu kifayət qədər bəs idi.

Pay Pal əhvalatı, Mask üçün həm müsbət, həm mənfi tərəflər daşıyırdı. Onun lider kimi adı ləkələnmişdir, və kütləvi informasiya vasitələri ilk dəfə olaraq onun üstünə düşmüşdür. Confinityanın ilk əməkdaşlarından biri, Erik Canson, 2004-cu ildə "Pay Palın müharibələri:eBay, pressa, matiya və bütün dünya ilə döyüşləri" adlı kitab yazmışdır, hansında ki, o, kompaniyanın hadisələrlə dolğun, həyəcanlı yəyatını ətraflı göstərmişdir. Orada, Mask eqoist və tərs, səhv qərərlar verən bir insan kimi irəli çıxır, Til və Levçin isə əksinə, qəhrəman və dahi personajları kimi. Kremniy valleyyinin məşhurlar haqda şayələr yayan valleyvag saytı  Maskın tətib edilməsini ən sevimli proyektlərinə çevirmişdir. Tənqid elə ölçülərə gəlib çatmışdır ki, insanlar Maskın Pay Palın həqiqi yaradıcılarından biri və ya Tilin pulsuz əlavəsi olması ilə açıq aşkar maraqlanırdılar. Kitabın yazılışı bloqda olan məlumatlar ilə birgə 2007-ci ildə Maskın hadisələrin həqiqi gedişini bildirən on sahvədən ibarət məktub yazmağa vadar etdi.

Bu məktubda Mask öz ədəbiyyat istedadına çıxış verdi və olanlar ilə öz baxışı tərəfindən tanış etdi. O, Ceksonu, stajor səviyyəsindən çox uzağa getməyən bir: "yaltaq keçi" kimi və kompaniyanın yuxarısında baş verənlərdən bulanıq təsuratı olan adam kimi göstərir. "Erik əsl nəşr edən adamı tapa bilmirdi, buna görə Piter ona pul verdi ki, o kitabı öz hesabına buraxsın-yazırdı Mask-Erik Piterin qarşısında baş əydiyi üçün, nəticə də gözlənilən idi. Piter "Cəsur ürək" filmində Mel Qibson kimi görünür, mənə isə miskin və məğmun rolu çatmışdır. Sonra Mask Pay Palın təsisçi statusuna laiq olmasının yeddi səbəbini ətraflı açıqlayır, onların arasında bunlardır: onun ən böyük aksioner olması rolu, bir sıra qiymətli mütəxəssislərin cəlb edilməsi, bir çox uğurlu biznes- fikirlərin irəli sürülməsi, həmçinin onun rəhbərliyi altında kompaniyanın 60 nəfərdən ibarət olan ştatı bir neçə 100 qədər çatan əməkdaşa artırılmışdır.

Demək olar ki, Pay Palın yarandığı vaxtdan söhbət etdiklərim, Maskın ümumi qiymətləndirilməsi ilə razılaşmağa tərəf idilər. Onlar, Ceksonun hekayəsi

fantaziyaya bərabər olduğunu və Confinitunın maskla Xcomun üzərindəki qələbəsindən irəli gəlməsini, deyirdilər. “Pay Paldakıların bir çoxunun yaddaşla çətinlik problemi var”-Bota deyirdi.

Lakin helə həmin adamlar Maskın brend ilə, texnoloji infrastuktur ilə və vəziyyət ilə pis idarə etməsi ilə razı idilər. “Mən fikirləşirəm ki, əgər İlon yarım ildə baş direktor qalsaydı, bu kompaniyanı uçuruma gətirərdi,- Bota deyirdi,- Həmin vaxtlar İlonun elədiyi səhvlər biznesin təhlükəli olmasını artırırdı.”(Maskın o illər haqda fikirlərini daha ətraflı əlavə 2də baxın)

Maskın “Pay Palın” əsl təsisçi olmadığı şayəsi retrospektivdə heç bir tənqidi götürmür. Til, Levçin və Pay Palın başqa rəhbərləri eBayla sazişdən sonrakı illərdə çox söz deyiblər. Bu tənqidin yeganə nəticəsi Maskın, hadisələri tarixi ədalət kimi qəbul etməsinin tələb edilməsində ciddi və müdafiyyə olunmamış kimi göründüyü kontur hücum idi. Onun piar haqqında təsuratları elə idi ki, səhvi düzəlməmiş qoymaq olmaz idi, -Pay Palda ictimayyət ilə əlaqələr üzrə şöbənin keçmiş rəhbəri Bins Sollito deyirdi.-Bu presedent yaradır, və buna görə hər bir yerində qoyulmamış vergülə görə, ədaləti diş və dırnaqlar ilə qorumaqdan ötrü çalışmaq lazım idi. O, hər bir şeyi ürəyinə çox yaxın buraxırdı, və qayda olduğu kimi, toqquşmalar axtarır.”

Maskın, heç nəyə baxmayaraq, irəli getməsini, ən çox tənqid edirdilər. Onun konfrantasiyaya meyliliyi, hər şeyi bilməsi və eqoizmi, onun idarə elədiyi kompaniyalarda dərin çatlar yaradırdı. O, özünü ələ almağa çalışırdı, lakin bu daha təcrübəli və investorları öz tərəfinə cəlb etmək üçün kifayyət deyildi. Zip2nində, Pay Palında idarə heyətində Maskın baş direktor vəzifəsinə uyğun gəlmədiyi nəticəsinə gəlmişdilər. Maskın öz kompaniyaların texnologiyalarını dəfələrlə satıb və yenidən qiymətləndirən bir yaramaz işbaz kimi olmasını sayanlar ilə mübahisə etmək olardı. Maskı ən çox danlayanlar, bu sözləri ya bir çox adam arasında, ya da fərdi sürətdə deməyə cürət edirdilər, onlardan bir neçəsi Maskın xasiyyəti, hərəkətləri haqqında daha pis sözlər danışırdılar:onların dediklərinə görə, Mask biznesdə etik qaydalara riayyət etmirdi, ünsiyyətdə hirsli olurdu. Onların heç biri

kommentariyalara əsaslanmağa icazə vermirdi, Maskın onları məhkəmələrdə süründürdiyindən və bizneslərinin dağıldılmasından qorxduqları üçün.

Bu tənqidi qiymətləndirərkən, onu Maskın nəaliyyətləri ilə yanaşı qoymaq lazımdır. O, internetin geniş istifadəçiləri tərəfindən tanınılan vaxtlarda texnologiyanın inkişaf tendensiyasını və insanları anlamaq istedadını nümüyiş etdi. Başqaları, həmin vaxtlar, yalnız internetin yayılmasının nəticələrini dərk etməyə çalışırdılar. Mask, artıq hərəkətlərin məqsədə yönəmli olması planını işləməyə başlamışdır. O, internetin indi istifadəsinə daxil olan, bir çox texnologiyaları-kataloqlar, xəritələr, tematik saytlar, əvvəlcədən hiss etmişdir. Bir az keçdikdə, insanlar Amazon.com və eBay vasitəsi ilə malların alınmasına öyrəşəndə, Mask tamqiymətli internet-bankinqa doğru böyük bir atılış etdi. O, standart maliyyə alətlərini onlayn edəcək, sonra isə yeni konsepsiya çoxluğu ilə sahəni modernizasiya edəcək. O, kompaniyasına, maliyyə, texnologiya marketinq sahəsindəkinin nəticələri əldə etmək üçün kömək edən, insan təbiətinin dərin dərk edilməsini nümayiş etdirəcək, Mask sahibkarlıqla yüksək səviyyədə məşqul olurdu, o pressa və investorla –işlədiyi kimi, az adam tapılıar. O, hər bir şeyi açıqlamağı və insanlarla sərt rəftar eləməyi bacarırdı şərtsiz və heyran edici nəticələr ilə.

Böyük bir dərəcədə, Pay Pal kompaniyası, dotkom şarı partlayanda, Maskın rəhbərliyi uğrunda yaşayıb qalmışdı və sentyabrın 11-də olan terror aktlarından sonra birja birincilərindən olmuşdur, sonra isə yüksək texnologiyalar sektorunun qalan hissəsi dərin enmə vaxtını yaşayərkən, eBay astronomik pul miqdarına satılmışdır. Bu çətin vaxtlarda yaşayıb qalmaq, çox çətin idi, hələ qələbələr haqqında danışmışıq.

Pay Pal, həmçinin Kremniy valleyyində tarixində mühəndis istedadlarının və biznesin birləşməsinin ən böyük nümunələrindən biri oldu. Tilda, Maskda cavan istedadları tapıb, cəlb edə bilirdilər. Youtube, Linkedin və Yelp kimi müxtəlif startaplar Pay Pal məktəbini keçmişdilər. Bir çox insanlar, onların sayında Reyd Xolman, Til və Bota texnologiya industriyasının investorları oldular. Pay Palın əməkdaşları, MTİ (ЦРУ) və FAB (ФВР) tərəfindən terrorçuları izləmək üçün

istifadə olunan proqram təminatının əsasında duran onlayn fırıldaqçılıqla aparılan mübarizənin üsullarının başlanğıcını qoydular. Bu super əməkdaşlar komandası, Kremniy valleyinin rəhbərlik edən sinfi, PayPal “mafiyası” kimi məşhur oldu, Mask isə bu komandanın ən tanınmış və uğurlu üzvlərindən biri idi.

Geriyə baxış, Zip2 və Pay Pal rəhbərlərinin ehtiyyatlı praqmatizmləri ilə müqayisə də Maskın qarşısı alınmaz fantaziyasının xeyrinə deyir. Əgər Zip2nin kompanoiyası müştəriləri, Mask istədiyi kimi cəlb eləsəydi, o kartoqrafiya xidmətlərinin birincisi (xit) olardı. Pay Pala gəldikdə isə, təsdiq etmək olar ki, investorlar kompaniyanı həddən artıq tez satdılar və daha uzun müddət müstəqil qalmaq üçün Maskı eşitməlidilər. 2014-cü ilə Pay Pala kompaniyasının 153 mln. Istifadəçisi var idi və ayrı bir kompaniya kimi 32 milliard dollarla qiymətləndirildi. Square, Stripe və Simple kimi ödəniş və bank startaplarının yüksək böyüməsi göz qabağında idi, hansılar ki Xcomun əvvəlki görüntüsünü həyata keçirmişdilər.

Əgər Xcomun rəhbərliyi Maska qarşı səbirli olsaydılar, “ümumi onlayn-bankin” yaradılmasını edə bilərdi. Tarix göstərir ki, Mask, öz “absurd” fikirlərinə inanmaqdan başqa əgər vaxtı çatırsa onları yerinə yetirir. “ O, dünyanı başqalarından fərqli olaraq görür, - Ankenbrandt deyirdi-o, sadəcə bizi kimi deyil.”

Zip2 və Pay Pal kimi mürəkkəb kompaniyaları idarə edərkən, Mask şəxsi həyatı üçün də vaxt tapırdı. O, Castin Uil sona pərəştikarlıq edərkən, fəftə sonu onun yanına təyyarə ilə uçaraq, neçə illər keçdi. Uzun müddət onun daimə məşğul olduğu və otaq yoldaşları onların münasibətlərinə mane oludu. Lakin Zip 2nin satışı, Maska özünə şəxsi ev almağa və Castinə daha çox diqqət yetirməyə imkan yaratdı. Hər bir cütlükdə olduğu kimi, onların yüksəlişləri və enmələri oldu, lakin gənc məhəbbətin ehtirası qorunub qala bildi.”Biz tez-tez mübahisə edirdik, mübahisə etməyəndə, bizim aramızda dərin bir hiss var idi,dərin əlaqənin hissiyatı”, -Castin deyirdi. Bir dəfə cütlük, Castinin keçmiş sevgilisinin zənglərinə görə bir neçə gün dalaşdılar”İlonun bu xoşuna getmirdi”,-ən böyük mübahisəniz Xcomun ofislərinin yanında baş vermişdi.”Mən onda fikirləşdim ki, hər şey çox gərgindir, və biz evlənsək, bununla qurtarmaq lazımdır. Mən ona dedim ki, o mənə sadəcə evlənmə təklifini etməlidir”-Castin deyirdi. O,bir neçə anlıq quruyub qaldı,

sonra isə elə də elədi. Bir neçə gün keçdikdə isə, alicənab hərəkət edərək, sənidə uyğun bir yer tapıb, dizi üstünə durdu və castinə üzük hədiyyə elədi.

Castin Maskın çətin uşaqlıq illəri və hiss etdiyi emosiyalar haqqında hər şeyi bilirdi lakin bunlar onu az narahat edirdi, onun romantik hissləri daha güclü idilər. Həyat yoldaşı haqqında hər şeyi bilərək, o onun yaxşı cəhətlərini düşünməyə üstünlük verirdi. Mask, tez-tez dahi Aleksandr haqqında heyrəti ilə danışırdı, və Castın Maska öz şəxsi istilaçısı kimi baxırdı.”O, məsuliyyətdən qorxmurdu, o evlənmək və uşaqlarının olmasını istəyirdi, -Castin deyirdi, -o çətinliklərdən qaçmırdı.”Mask, Castını onun yanında həmişə yaxşı olmasını fikirləşməyə məcbur edən, əminlik və ehtiras saçırdı.”Pul onun üçün əsas deyil, onlar həmişə var. O bilirdiki, onları qazana biləcək”

Toydan sonra Castin onun ürəyinin istilaçısının xasiyyətinin başqa tərəfi ilə toqquşmalı oldu. Onlar rəqs edəndə, Mask onu özünə tərəf çəkib, dedi:”Bizim münasibətlərdə əsas –mənəm.” İki aydan sonra Castin nigah müqaviləsini imzaladı-bu onu narahat fikirlərə qaytardı, və mübarizə yenidən başladı. Bir neçə il keçdikdən sonra, o bu hadisəni Maric Claire üçün məqalədə danışmışdır:”Ona həmişə nə isə çatışmırdı. Mən ona dəfələrlə deyirdim:”Mən sənin həyat yoldaşınam, əməkdaşın yox.”

-Əgər sən mənim əməkdaşım olsaydın, mə səni işdən çıxardardım”-mənə cavabını bildirdi”

Xcomila baş verən dram, onların həyatını heç də yüngülləşdirmədi. Əvvəlcə onlar bal ayını başqa vaxta keçirməli oldular, sonra isə baş verən çevrilişə görə tam özlərini itirmişdilər. Yalnız 2000-ci ilin dekabrında bir az sakitləşmək mümkün oldu, və Mask neçə il ərzində ilk məzuniyyətini götürdü. O, iki həftəlik səyahət təşkil etdi, onun 1-ci hissəsi Braziliyada, 2-ci hissəsi isə Mozambik ilə sərhəd olan ovçu qoruğunda Cənubi Afrikada keçməli idi. Afrikada Mask malyariyanın ən təhlükəli olan və ən çox ölüm hadisəsi ilə bitən növünü tutur.

Kaliforniyaya Mask yanvarda xəstəliyin ən qızğın vaxtında qayıdır, Castin onu həkimə apara biləndə, o bir neçə gün idi ki yatağa bağlı idi. Həkim xəstəni, təcili olaraq “Təcili yardım” maşını ilə Redvurdsitida yerləşən Sequoia hospitala

aparmağa tələb edir. Həkimlər düzgün diaqnoz qoymamışdılar lazımı müalicə Mask almadı, və onun vəziyyəti daha da pisləşdi.”Sonra orada, təsadüflər, malyariya müalicəsinin təcrübəsi olan, başqa hospitalın bir həkimi var idi”-Mask xatırlayırdı. O, Maskın qan müayyinəsinin nəticələrini gördü, və Maska doksisilin antibiotikinin maksimal dozasının verilməsini tələb etdi. Həkim dedi ki, bir gün gec olsaydı, buda kömək etməzdi.

İntensiv terapiya şöbəsində Mask əzablı on gün keçirdi.Bu Castın sarsıtdı.”Ahı, o tank kimi sağlamdır, -deyirdi o, -onda olan möhkəmlik və stressilə mübarizə aparmaq bacarığını mən başqa heç kimdə görməmişdim. Onu əlacsız görmək –başqa bir dünyaya düşməyə bərabər idi.” Sağalması altı ay çəkdi. O, 45 funt(20kq) çəkidə itirdi, lazımsız geyimlə dolu şkaf qaldı. “Mən ölümə yaxın idim, -Mask deyirdi- və bu mənə dərs oldu mənə məzuniyyətə getmək olmaz Məzuniyyət məni öldürər”.

Mask, X.com üçün maliyyələndirməni cəlb etmək istəyirdi. O zəngin investorların yanına gedib şirkətdən bir dəri bir sümük qaldığını etiraf etməyə məcbur oldu. Sequoia Capital-ın məşhur investoru Mayk Mortis, bütün bunlara baxmayaraq, şirkətə dəstək oldu, və əsasən, Maska arxayın oldu. Mask yenidən Silikon vadisində məşhurluq qazandı, internet-bankların gələcəyi haqqında təsirli danışıqları ilə o yeni əməkdaşları cəlb edə bildi. Skot Anderson, gənc kompyuter alimi, şirkətə 1999-cu ilin avqustun 1-də gəlib, Maskın bütün fikirlərinə tamamilə dəstək oldu. “Geriyə baxarkən, bütün bunlar ağılsızdıq kimi görünür, - deyirdi Anderson. - Veb saytın hollivud dekorasiyalarına bənziyirdi. Qəribədir ki, bu investorlardan keçə bildi”.

Günlər keçirdi, əməkdaşların sayı artırdı, görüntülər daha real olmağa başlayırdı. Şirkət bank fəaliyyətinə lisenziyanı və investisiya fondunun pay lisenziyasını aldı, Bacrlays maliyyə konqlomeratı ilə şərik münasibətlər qurdu. Noyabr ayına qədər X.com-un proqram təmintçılarından ibarət balaca yaradıcı komandası DSFK da (Depozitivlərin Sığortalanmasının Federal Korporasiyası) bank hesabların tam sığortalanması və investorlar üçün üçpay fondu ilə dünyada internet-bankinqlərindən birini yaratdı. Mask təsisçilərə testların aparılması üçün

öz şəxsi büdcəsindən 100 min dollar verdi. 1999-cu ilin Təşəkküretmə günün gecəsi X.com fəaliyyət göstərməyə başladı. ”Mən orada gecə saat 2-yə qədər oldum, - deyirdi Anderson. - Sonra bayram naharını hazırlaşmaq üçün evə getdim. Bir neçə saatdan sonra İlon mənə zəng vurdu, və bir neçə əməkdaşlarımıza kömək etmək üçün ofisə gəlməyimi xahiş etdi. Hər şeyin işləməsinə əmin olmaqdan ötrü, o özü iki gecə idi ofisdən çıxmırdı”.

Maskın rəhbərliyi altında, X.com-da bir neçə əsas bank əməliyyatlarını yoxlamışdılar. Müştərilər qeydiyyat olduqlarına görə bank kartına 20 dollar alırdılar, hər cəlb olunan adam sayına görə 10 dollar əldə edirdilər. Mask limitin keçməsinə görə cəza sanksiyalarını və əsəbləşdirən xırda yığımları bitirdi. X.com həmçinin alıcının elektron poçtu ünvanını göstərib pulu göndərmək mümkün edən fərdi ödənişlərin müasir sistemini düzəltdi. Bu təklif bir neçə gün çəkən ödənişlərin işlənməsi sistemindən uzaqlaşıb, pulları elektron vasitəsi ilə ya da kompyuterdə bir iki toxunuşla sürətli bank hesabının yaradılmasından ibarət idi. Bu sıçrayış yanaşma idi və 200 min insandan çox buna inanıb, işin birinci iki ayında X.com-un müştəriləri oldu.

Tezliklə X.com güclü rəqib qazandı. Iki qoçaq oğlan –Maks Levçin və Piter Til, ilk öncə Continiti adlanan öz ödəniş sistemləri üzərində işləyirdilər. Ofislərini, daha dəqiq desək, süpürgələr saxlanılan ambarı, onlar X.com-dan icarəyə götürmüşdülər və Palm Pilotun ovuc içi kompyuterlərin sahibləri üçün qurğularda infraqırmızı portlardan pul köçürmələrini reallaşdırmağa cəhd edirdilər. Universiti avenüda, balaca ofisdə yerləşən X.com və Confinity internetdə maliyyə inqilabın mərkəzinə dönüllər. “Bu cavan oğlanlar hər şeyi unudub işləyirdilər, - Ankenbrandt xatırlayırı. - Orada bir qoxu var idi ki – mən indiyə qədər onu hiss edirəm, pizzaların qalıqları, çirkli bədən və tər iyləri”.

X.com ilə Confinity-ni arasında olan xoş dostluq qəflətən bitdi. Confinity-nın təsisçiləri, həmin küçədə yerləşən başqa bir ofisə köçdülər, və X.com-a bənzər, PayPal adlanan elektron poçt və şəbəkə vasitəsi ilə həyata keçirilən ödənişlərin fərdi xidmətində diqqətini cəmlədilər. Şirkətlər müştərilər uğrunda şiddətli vuruşmada tutaşdılar. Aydın idi ki, kim çox istifadəçi cəlb eləsə, o da qalib

gələcək. Onlarla million dollar reklam kompaniyalarına xərclənmişdir, bir neçə millionda – xidmətləri fırıldaq hərəkətləri üçün yeni meydan kimi görən xakerlar ilə mübarizəyə. "Onlar elədikləri, strip-klubda tökülən pulların internet variantına bənzəyirdi, - sonralar Yelpin baş direktoru olan, X.com-un əməkdaşı Ceremi Stopelman deyirdi. - Pullar ağılasığmaz sürət ilə yox olurdular".

İnternet–ödənişlərdə liderlik uğrunda qaçışlar Maska, tez fikirləşmək bacarığını və əmək etikasını nümayiş etdirməyə şans verdilər. O, eBay kimi internet-ayksionların saytlarında yer tutan PayPal-ın üstünlüyünə əks göstərən planlarının işlənməsini davam edirdi. Mask X.com-un əməkdaşlarını rəqiblərə qarşı ölüm döyüşünə birləşdirdi. "Nazlanmağa vaxt yox idi, – deyir Ankenbrandt. – Biz hamımız gün ərzində 20 saat işləyirdik, o isə 23 saat".

Nəhayət ki, 2000-ci ilin martında X.com və Confinity düşmənçiliyi dayandırmaq qərarına gəldilər və güclərini birləşdirdilər. Confinitynin PayPal kimi məhsulu var idi, lakin yeni müştərilərə görə günə 100 min dollar ödəyirdi və irəli getmək üçün pul rezervləri yox idi. X.comun əksinə çoxlu pul vəsaitələri və daha mürəkkəb bank məhsulları var idi. O birləşmənin şərtlərinin təyin olunmasında təşəbbüs göstərir, və Mask X.com adını saxlamış, birləşmiş kompaniyanın ən böyük aksioneri olub. Tezliklə, birləşmədən sonra X.com, sponsorlarından Deutsche Bank və Coldman Sachs daxil olaraq, 100 mln dollar aldı, və bir milliondan artıq müştərilərin olması ilə öyünə bilərdi37.

İki kimpaniya öz korporativ mədəniyyətlərini bir yerə gətirməyə çalışdılar, lakin uğursuz oldu. X.comun əmkdaşları yeni iş yoldaşları ilə işləmək üçün, kompüterlərin monitorlarını oturacaqlarına kabel ilə bağlayıb küçə ilə Confinitynin ofislərinə tərəf sürüşdürdülər. Lakin onlar bir komanda olmadılar. Baxmayaraq ki, hər kəs PayPal-ın tərəfinə danışırdılar, Mask X.com brendini qorumağı davam edirdi. Confinitynin komandası Levçin ilə başda olmaq ilə, Linux tipli açıq proqram təminatı istiqamətində hərəkəti leyhinə danışırdılar, Mask isə Microsoftun

[37] Mask X.com şirkətinin baş direktor vəzifəsindən şirkətin investorları tərəfindən çıxarılmışdır, çünki onlar aksiyaların ilkin yerləşdirilməsinə şirkəti daha təcrübəli başçının aparmasını istəyirdi. 1999-cu ilin dekabr ayında X.com baş direktor vəzifəsinə İntuit şirkətinin keçmiş baş direktoru, maliyyə proqram təmnatının yardcısı Bill Xarrisi təyin etdi. Birləşmədən sonra Xassis vəzifədən çıxarıldı və Mask baş direktor vəzifəsinə qayıtdı.

proqram təminatına daha effektli kimi dəstəkləyirdi. Kənardakılar üçün belə münaqişələr elə də vacib görünmiyə bilər, lakin təsisçilər üçün, hansılardan ki bir çoxu, Microsoftu köhnəlmiş pislik imperiyası, başqaları üçün isə Linux-u müasir proqram təminatı hesab edənlər, bu dini müharibənin başlanmasına bərabər idi. Birləşmədən iki ay sonra Till istefaya verdi, Levçin də bunu etməklə hədələdi. Mask parçalanmış şirkəti idarə etməli idi.

X.comun toqquşduğu texniki suallar çətinləşdilər, çünki güclü müştəri bazası artımını ilə hesablama sistemiləri bacara bilmirdi. Həftədə bir dəfə şirkətin vebsaytı dağılırdı. Bir çox mühəndislərə yeni sistemin yaradılması üzərində işləməyə əmr edilmişdir, bu da əsas texniki kadrları yayındırırdı və X.comu xakerlərin hücumu üçün zəif edirdi. "Biz pulu qazanan kimi, tezdə itiririk", – deyirdi Stopelman. X.com daha məşhur olduğu üçün və onun tranzaksiyalarının həcmi böyük olduğu üçün, problemlər daha da dərinləşirdi. Fırıldaqçılığın sayı artırdı. Kredit kompaniyaların və bankların xeyrinə pulun yığılması artırdı. Startaplar tərəfindən rəqabət artırdı. X.com kompaniyası üçün işlədiyi pullardan gəlir almaq üçün və itkiləri kompensasiya etməsi üçün tamamlanmış biznes modeli çatışmırdı. Startapın baş maliyyə direktoru, sonralar isə Sequoianın məşhur vençur sahibkarı Ralf Bofa, Maskın X.com-un problemlərinin əsl şəklini idarə heyətinə göstərdiyi düşünmürdü. Artıq kompaniyanın bir çox əməkdaşları Maskın böhran anlarında qərar vermək qabiliyyətində şübhələnirdilər.

Nəticədə çevriliş olur – bir çox müxtəlif çevrilişlər görən Silikon vadisinin tarixində ən mundar çevrilişlərdən biri. Bir axşam X.com-un bir neçə əməkdaşı Palo-Altoda Fanny&Alexander barında (hal hazırda o bar yoxdur) yığışaraq, Maskın işlərdən uzaqlaşdırılması haqqında düşünməyə başlayırdılar38. Baş direktor vəzifəsinə Tilin qaytarılmasını idarə heyətinə təklif etməyə qərar verdilər. Maskla üz-üzə gəlməmək üçün, Levçin və onun yoldaşları bu işin onun arxasından çevirməyə gərar verdilər.

Mask və Castin 2000-ci ilin yanvarında evlənməmişdilər, lakin bal ayı vaxtı deyildi. Buna görə, 9 ay sonra 2000-ci ilin sentyabrında, onlar Sidneya

[38] PayPal-ın əməkdaşları hesab edirlər ki, Maskdan sonra şirkətə Confinity-dən Devid Saks başçılıq edirdi. Buna baxmayaraq daha sonra Mask ilə Saks birlikdə filmər çəkməyə və birgə iş layihələri qurmağa davam edirdilər.

investisiyaların cəlb olunması üçün gəzintiyə gedirlər, və həmin gəzintini bal ayı ilə bitirib, həmçinin Olimpiya oyunlarına baxmaqla qərar verirlər. Axşam onlar təyyarəyə minərkən, X.com-un qalan başçıları şirkətin idarə heyətin etibarsızlığı haqda məktub göndərdilər. Maska sadiq qalan bir neçə nəfər nə isə hiss etdilər, lakin artıq gec idi. “Mən ofisə gecə, on birin yarısında gəldim, və orada millət dolu idi, - Ankenbrandt deyir. - Mən buna inana bilmirdim. Mən İlona zənq vurmağa çalışırdım, lakin o artıq təyyarədə idi”. Təyyarə yerə enənə qədər Maskı artıq Tillə əvəz etdilər.

Mask, baş verənləri bilən kimi, ən birinci reyslə Pal-Altoya təcili qayıdır. “Bu şok idi, lakin Maskın leyhinə danışaq, o özünü layigincə aparırdı,” – deyirdi Castin. Bir müddət Mask müqavimət göstərməyə çalışırdı. O idarəheyətindən qərarın yenidən baxılmasını tələb edirdi. Ancaq, başa düşəndə ki iş işdən keçib, Mask geriyə çəkildi. “Mən Morits və başqaları ilə danışdım – deyirdi Mask, - mən baş direktor olmamığımı iddia etmirdim, sadəcə bu istiqamətdə söhbət aparırdım: axı vacib işlərin olacağı planlaşdırırdı, lakin əgər mən baş direktor deyiləmsə, onları həyata keçirməyimdə əmin deyiləm. Sonra mən Mask və Piterla danışdım, və məndə, düşündüklərimi həyata keçirə biləcəkləri təsuratı yarandı. Onda bu hələ dünyanın axrı deyil”.

Maskın tərəfində olan, X.com-un bir çox əməkdaşı, baş verənlərə sevinmirdilər. “Mən olanlardan mat qalmışam və dilxor idim, - deyirdi Stopleman. - İlon elə bil rok ulduzu idi. Mən bir ağılsızlığın baş verdiyi deyirdim. Lakin, mən bilirdim ki, bütövlükdə şirkətin işləri yaxşı gedir. Bu möhtəşəmbir gəmi idi, və mən onu tərk etmək istəmirdim”. Stopelman (onda 23 yaşı var idi) konfrans zalına daxil oldu və Tilnən Levçinin üstünə atıldı. “Onlar mənə hirsimi boşaltmağa imkan verdilər, və onların bu reaksiyası, mənin kompaniyada qalmağıma səbəblərdən biri oldu.” Çaşqınlıq və kədər hisslərini başqalarıda hiss edirdi. Bunlar hamısı altan-altan və alçaqcasına olan hərəkət idi, - Zip2-nin və X.com-un mühəndisi Branden Spayks deyirdi,- Bəlkədə mən bu qərarı dəstəkliyərdim, əgər İlon özüdə orada olsaydı”.

2001-ci ilin iyununa gədər Maskın şirkətdə təsiri xeyli zəifləmişdir. Həmin ayda Til, X.com və PayPal şirkətlərin rebrendigini keçirmiçdir. Mask özünə qarşı hörmətsizliyi çox nadir hallarda cabvabsız qoyurdu. Lakin, bu hadisədə, o, ağla sığmayan təmkinliyi nümayiş etdi. O, şirkətin məsləhətçisi rolunu seçdi və PayPal şirkətində ən böyük aksioneri kimi, öz payını artıraraq, kompaniyaya investisiya etməyini davam edirdi. "İlonun yerinə başqası olsaydı, qəzəblənərdi və qisas planlarını düşünməyə başlayardı, lakin o, özünü başqa cür apardı, - deyirdi Bota,- o Pitera dəstək oldu. Bu çox alicənab hərəkət idi."

Növbəti aylar Maskın gələcəyi üçün əhəmiyyətli olacaqlar. Dotkom avantürası sona çatırdı, və insanlar, hansı yol olursa olsun, öz pullarını nəğdləşdirməyə çalışırdılar. eBay-ın idarə heyəti PayPal-ın alınması haqda düşünməyə başlayanda, bir çox insanların istədiyi olduqca tez satmaq idi. Lakin Mask və Morits idarə heyətinin bir sıra təkliflərindən imtina etməsinin və çox pul tələb etməsinin üstündə dururdu. PayPal il ərsiznə 240 mln.dollara yaxın gəlir əldə edirdi və özünü müstəqil kompaniya kimi fəaliyyət göstərə bilən və açıq bazara çıxa bilən kompaniya kimi aparırdı. Maskla Moritsin müqaviməti özünü artıqlaması ilə doğrultdu. 2002-ci ilin iyulunda eBay PayPala görə 1,5 milliard dollar təklif etdi, və Mask idərə heyətin qalan üzvləri ilə birgə sazişə razılaşdılar. Mask kompaniyanın satışından 250 mln. dollara yaxın, 180mln. dollar vergi ödədikdən sonra, təmiz gəlir əldə etmişdir, və öz cəsur arzularını yerinə yetirmək üçün bu kifayət qədər bəs idi.

PayPal əhvalatı, Mask üçün həm müsbət, həm mənfi tərəflər daşıyırdı. Onun lider kimi adı ləkələnmişdir, və kütləvi informasiya vasitələri ilk dəfə olaraq onun üstünə düşmüşdür. Confinityanın ilk əməkdaşlarından biri, Erik Canson, 2004-cu ildə "PayPalın müharibələri: eBay, pressa, mafgiya və bütün dünya ilə döyüşləri"39 adlı kitab yazmışdır, hansında ki, o, şirkətin hadisələrlə dolğun, həyəcanlı həyatını ətraflı göstərmişdir. Orada, Mask eqoist və tərs, səhv qərərlar verən bir insan kimi irəli çıxır, Til və Levçin isə əksinə, qəhrəman və dahi personajları kimi. Silikon vadisinin məşhurlar haqda şayələr yayan Valleywag

[39] Eric M.Jackson. 'The PayPal Wars: Battles with eBay, the Media, the Mafia, and the Rest of Planet Earth'

saytı Maskın tətib edilməsini ən sevimli layihəsinə çevirmişdir. Tənqid elə ölçülərə gəlib çatmışdır ki, insanlar Maskın PayPalın həqiqi yaradıcılarından biri və ya Tilin pulsuz əlavəsi olması ilə açıq aşkar maraqlanırdılar. Kitabın yazılışı bloqda olan məlumatlar ilə birgə 2007-ci ildə Maskın hadisələrin həqiqi gedişini bildirən on səhifədən ibarət məktub yazmağa vadar etdi.

Bu məktubda Mask öz ədəbiyyat istedadına çıxış verdi və hər kəsi öz baxışı tərəfindən tanış etdi. O, Ceksonu, stajor səviyyəsindən çox uzağa getməyən bir: “yaltaq keçi” kimi və şirkətin yüksək tədəqələrində baş verənlərdən bulanıq təsuratı olan adam kimi göstərir. “Erik əsl nəşr edən adamı tapa bilmirdi, buna görə Piter ona pul verdi ki, o kitabı öz hesabına buraxsın, - yazırdı Mask. - Erik Piterin qarşısında baş əydiyi üçün, nəticə də gözlənilən idi. Piter “Cəsur ürək” filmində Mel Qibson kimi görünür, mənə isə miskin və məğmun rolu düşürdü”. Sonra Mask PayPalın təsisçi statusuna laiq olmasının yeddi səbəbini ətraflı açıqlayır, onların arasında bunlardır: onun ən böyük aksioner olması, bir sıra qiymətli mütəxəssislərin cəlb edilməsi, bir çox uğurlu biznes-fikirlərin irəli sürülməsi, həmçinin onun rəhbərliyi altında kompaniyanın 60 nəfərdən ibarət olan ştatı bir neçə 100 qədər çatan əməkdaşa artırılmışdır.

Demək olar ki, PayPalın yarandığı vaxtdan söhbət etdiklərim, Maskın ümumi qiymətləndirilməsi ilə razılaşmağa tərəf idilər. Onlar, Ceksonun hekayəsi fantaziyaya bərabər olduğunu və Confinity-nin Mask və X.com-un üzərindəki qələbəsindən irəli gəlməsini, deyirdilər. “PayPal-dakıların bir çoxunun yaddaşla çətinlik problemi var” – deyir Bota.

Lakin helə həmin insanlar Maskın brend, texnoloji infrastuktur ilə və fırıldağçılıq vəziyyətini pis idarə etməsi ilə razı idilər. “Mən fikirləşirəm ki, əgər İlon yarım il daha  baş direktor vəzifəsində qalsaydı, bu şirkəti uçuruma gətirərdi, - deyirdi Bota. - Həmin vaxtlar İlonun elədiyi səhvlər biznesin risklərini artırırdı”.

Maskın PayPalın “əsl” təsisçi olmadığı şayəsi retrospektivdə heç bir tənqidi qəbul etmir. Til, Levçin və PayPalın başqa rəhbərləri eBay ilə sazişdən sonrakı illərdə çox söz deyiblər. Bu tənqidin yeganə nəticəsi Maskın, hadisələri tarixi ədalət kimi qəbul etməsinin tələb edilməsində ciddi və müdafiyyə olunmamış kimi

göründüyü kontr hücum idi. "Onun piar haqqında təsuratları elə idi ki, səhvi düzəlməmiş qoymaq olmaz idi, - PayPalda ictimayyət ilə əlaqələr üzrə şöbənin keçmiş rəhbəri Bins Sollito deyirdi. - Bu presedent yaradır, və buna görə hər bir yerində qoyulmamış vergülə görə, ədaləti diş və dırnaqlar ilə qorumaqdan ötrü çalışmaq lazımdır. O, hər bir şeyi ürəyinə çox yaxın qəbul edirdi, və qayda olduğu kimi, toqquşmalar axtarır".

Maskın, heç nəyə baxmayaraq, irəli getdiyinə görə çox tənqid edirdilər. Onun konfrantasiyaya meyliliyi, hər şeyi bilməsi və eqoizmi, onun idarə elədiyi şirkətlərdə dərin çatlar yaradırdı. O, özünü ələ almağa çalışırdı, lakin bu daha təcrübəli rəhbərləri və investorları öz tərəfinə cəlb etmək üçün kifayyət deyildi. Zip2-ki kimi, PayPal-da idarə heyətində Maskın baş direktor vəzifəsinə uyğun gəlmədiyi nəticəsinə gəlmişdilər. Maskın öz kompaniyaların texnologiyalarını dəfələrlə satıb və yenidən qiymətləndirən bir yaramaz işbaz kimi olmasını sayanlar ilə mübahisə etmək olardı.  Maskı ən çox danlayanlar, bu sözləri ya bir çox adam arasında, ya da fərdi sürətdə deməyə cürət edirdilər, onlardan bir neçəsi Maskın xasiyyəti, hərəkətləri haqqında daha pis sözlər danışırdılar: onların dediklərinə görə, Mask biznesdə etik qaydalara riayyət etmirdi, ünsiyyətdə hirsli olurdu. Onların heç biri kommentariyalara əsaslanmağa icazə vermirdi, Maskın onları məhkəmələrdə süründürdiyindən və bizneslərinin dağıldılmasından qorxduqları üçün.

Bu tənqidi qiymətləndirərkən, onu Maskın nəaliyyətləri ilə yanaşı qoymaq lazımdır. O, internetin geniş istifadəçiləri tərəfindən tanınılan vaxtlarda texnologiyanın inkişaf tendensiyasını və insanları anlamaq istedadını nümayiş etdi. Başqaları, həmin vaxtlar, yalnız internetin yayılmasının nəticələrini dərk etməyə çalışırdılar, Mask, artıq hərəkətlərin məqsədə yönəmli olması planını işləməyə başlamışdır. O, internetin indi istifadəsinə daxil olan, bir çox texnologiyaları-kataloqlar, xəritələr, tematik saytlar, əvvəlcədən hiss etmişdir. Bir az keçdikdə, insanlar Amazon.com və eBay vasitəsi ilə malların alınmasına öyrəşəndə, Mask tamqiymətli internet-bankinqa doğru böyük bir atılış etdi. O, standart maliyyə alətlərini onlayn edəcək, sonra isə yeni konsepsiya çoxluğu ilə sahəni

modernizasiya edəcək. O, şirkətlərə maliyyə, texnologiya marketinq sahəsində böyük nəticələri əldə etmək üçün kömək edən, insan təbiətinin dərin dərk edilməsini nümayiş etdirəcək. Mask sahibkarlıqla yüksək səviyyədə məşqul olurdu, o pressa və investorla işlədiyi kimi az adam tapılıar. O, hər bir şeyi açıqlamağı və insanlarla sərt rəftar eləməyi bacarırdı şərtsiz və heyran edici nəticələr ilə.

Böyük bir dərəcədə, PayPal şirkəti dotkom imperiyası partlayanda, Maskın rəhbərliyi uğrunda yaşayıb qalmışdı və sentyabrın 11-də olan terror aktlarından sonra birja birincilərindən olmuşdur, sonra isə yüksək texnologiyalar sektorunun qalan hissəsi dərin enmə vaxtını yaşayərkən, eBay astronomik pul miqdarına satılmışdır. Bu çətin vaxtlarda yaşayıb qalmaq, çox çətin idi, hələ qələbələr haqqında danışmışıq.

PayPal Silikon vadisinin  tarixində həmçini mühəndis istedadlarının və biznesin birləşməsinin ən böyük nümunələrindən biri oldu. Tilda, Maskda cavan istedadları tapıb, cəlb edə bilirdilər. Youtube, Linkedİn və Yelp kimi müxtəlif startaplar PayPal məktəbini keçmişdilər. Bir çox insanlar, onların arasında Reyd Xolman, Til və Bota texnologiya industriyasının investorları oldular. PayPal-ın əməkdaşları, MTİ və FAB  tərəfindən terrorçuları izləmək üçün istifadə olunan proqram təminatının əsasında duran onlayn fırıldaqçılıqla aparılan mübarizənin üsullarının başlanğıcını qoydular. Bu super əməkdaşlar komandası, Silikon vadisində rəhbərlik edən sinifi, PayPal “mafiyası” kimi məşhur oldu, - və Mask bu komandanın ən tanınmış və uğurlu üzvlərindən biri idi.

Geriyə baxış, Zip2 və PayPal rəhbərlərinin ehtiyyatlı praqmatizmləri ilə müqayisədə Maskın qarşısı alınmaz fantaziyasının xeyrinədir. Əgər Zip2 Maskın istədiyi kimi müştəriəri cəlb eləsəydi, o kartoqrafiya xidmətlərinin birinci olardı. PayPal-a gəldikdə isə, təsdiq etmək olar ki, investorlar kompaniyanı həddən artıq tez satdılar və daha uzun müddət müstəqil qalmaq üçün Maskı dinləməli idilər. 2014-cü ildə PayPal-ın 153 mln. istifadəçisi var idi və ayrı bir kompaniya kimi 32 milliard dollarla qiymətləndirildi. Square, Stripe və Simple kimi ödəniş və bank

startaplarının yüksək böyüməsi göz qabağında idi, hansılar ki X.com-un əsasında olan konsepsiynda əsaslanırdılar.

Əgər X.com-un rəhbərliyi Maska qarşı bir az daha səbirli olsaydılar, “ümumi onlayn-bankın” yaradılmasına bəlkə nail ola bilərdi. Tarix göstərir ki, Mask, nəyinki öz “absurd” fikirlərinə inanır, əgər buna vaxtı çatırsa onları yerinə yetirir. “O, dünyanı başqalarından fərqli görür, - deyirdi Ankenbrandt. - O, sadəcə bizi kimi deyil”.

Zip2 və PayPal kimi mürəkkəb şirkətləri idarə edərkən, Mask şəxsi həyatı üçün də vaxt tapırdı. O, Castin Uilsona pərəştikarlıq edərkən, həftə sonu onun yanına təyyarə ilə uçaraq, neçə illər keçirfi. Uzun müddət onun daimə məşğul olduğu və otaq yoldaşları onların münasibətlərinə mane oludu. Lakin Zip2nin satışı, Maska özünə şəxsi ev almağa və Castinə daha çox diqqət yetirməyə imkan yaratdı. Hər bir cütlükdə olduğu kimi, onların yüksəlişləri və enmələri oldu, lakin gənc məhəbbətin ehtirası qorunub qala bildi. ”Biz tez-tez mübahisə edirdik, mübahisə etməyəndə isə, bizim aramızda dərin bir hiss var idi, dərin əlaqənin hissiyatı”, - deyirdi Castin. Bir dəfə cütlük, Castinin keçmiş sevgilisinin zənglərinə görə bir neçə gün dalaşdılar. “Bu İlonun xoşuna getmirdi”, - ən böyük mübahisəniz X.com-un ofislərinin yanında baş vermişdi. ”Mən onda fikirləşdim ki, hər şey çox gərgindir, və biz evlənsək, bu bitə biıər. Mən ona dedim ki, o mənə sadəcə evlənmə təklifini etməlidir” – deyirdi Castin. O,bir neçə anlıq quruyub qaldı, sonra isə elə də elədi. Bir neçə gün keçdikdə isə, alicənab hərəkət edərək, səkidə uyğun bir yer tapıb, dizi üstünə durdu və Castinə üzük hədiyyə etdi.

Castin Maskın çətin uşaqlıq illəri və hiss etdiyi emosiyalar haqqında hər şeyi bilirdi, lakin bunlar onu az narahat edirdi, onun romantik hissləri daha güclü idilər. Həyat yoldaşı haqqında hər şeyi bilərək, o onun yaxşı cəhətlərini düşünməyə üstünlük verirdi. Mask, tez-tez dahi Aleksandr haqqında heyrət ilə danışırdı, və Castın Maska öz şəxsi işhalçısı kimi baxırdı. ”O, məsuliyyətdən qorxmurdu. Çəninliklərdən qaçmırdı, – deyir o. – O evlənmək və uşaqlarının olmasını istəyirdi”. Mask, Castını onun yanında həmişə yaxşı olacağını fikirləşməyə məcbur

edən, əminlik və ehtiras saçırdı. ”Pul onun üçün əsas deyil, onlar həmişə var. O bilirdiki, onları qazana biləcək”.

Toydan sonra Castin onun ürəyinin işhalçısının xasiyyətinin başqa tərəfi ilə toqquşmalı oldu. Onlar rəqs edəndə, Mask onu özünə tərəf çəkib, dedi: ”Bizim münasibətlərdə əsas – mənəm.” İki aydan sonra Castin nigah müqaviləsini imzaladı - bu onu narahat fikirlərə qaytardı, və mübarizə yenidən başladı. Bir neçə il keçdikdən sonra, o bu hadisəni Maric Claire üçün məqalədə danışmışdır: ”Ona həmişə nə isə çatışmırdı. Mən ona dəfələrlə deyirdim: Mən sənin həyat yoldaşınam, əməkdaşın yox”. - Əgər sən mənim əməkdaşım olsaydın, mən səni işdən çıxardardım deyə mənə cavabını bildirdi”.

X.com-la baş verən dram, onların həyatını heç də yüngülləşdirmədi. Əvvəlcə onlar bal ayını başqa vaxta keçirməli oldular, sonra isə baş verən çevrilişə görə tam özlərini itirmişdilər. Yalnız 2000-ci ilin dekabrında bir az sakitləşmək mümkün oldu, və Mask neçə il ərzində ilk məzuniyyətini götürdü. O, iki həftəlik səyahət təşkil etdi, onun 1-ci hissəsi Braziliyada, 2-ci hissəsi isə Mozambik ilə sərhəd olan ovçu qoruğunda Cənubi Afrikada keçməli idi. Afrikada Mask malyariyanın ən təhlükəli növü olan və ən çox ölüm hadisəsi ilə bitən tropik malyariyanı tutdu.

Kaliforniyaya Mask yanvarda xəstəliyin ən qızğın vaxtında qayıdır, Castin onu həkimə apara biləndən qabağ, o bir neçə gün yatağa bağlı idi. Həkim xəstəni, təcili olaraq “Təcili yardım” maşını ilə Redvurdsitida yerləşən Sequoia hospitala aparmağa tələb edir.40 Həkimlər düzgün diaqnoz qoymamışdılar lazımı müalicə Mask almadı, və onun vəziyyəti daha da pisləşdi. ”Sonra orada, təsadüflər, malyariya müalicəsinin təcrübəsi olan, başqa hospitalın bir həkimi var idi”, - xatırlayırdı Mask. O, Maskın qan müayyinəsinin nəticələrini gördü, və Maska

[40] Xəstəliyin bir neçə günündən sonra Mask Stenford hospitalına müraciət etdi, malyariya zonasında olduğunu söylədi, lakin onun qanında həmin mikrob aşkr olunmmışdı. Həkimlər onurğa beyni əməliyyatı keçirdi və Maska virus meningiti diagnozunu qoydular. “Bu inandırıcı görünürdü, məni müalicə edirdilər və mən daha yaxşı oldum”, - deyir Mask. Həkimlər onu xəstəxanadan çıxardılar və bəzi simptomlarının təkrarlanacagını dedilər. “Bir neçə gün sonra mən özümü daha pis hiss etdim, vəziyyətim get-gedə pisləşirdi, - Mask xatırlayır. – Yaxın zamanda mən artıq ayağa qalxa bilmirdim. Bu birinci dəfədən daha pis idi”. Castin Maskı ümümi praktika həkiminə apardı, həkim otağında o yerə yıxıldı. “Mən o dərəcədə susuzlaşdırılmış idim ki, o mənim daxili orqanlarımı müainə edə bilmirdi”, - deyir Mask. Həkim təcili yardım çağırdı, Maskı Redvud-siti də Sequoi hər iki qolunda sistem altında hospitalına apardılar. Orada on bir səhf diagnoz daha qoydular – bu dəfə malyariyanın növünü düzgün müəyyən etmədilər. Səhf müalicə nəticəsində ürək döyüntsünün tezləşdirməsi və bir çox orqanların funksional çatışmamazlığı kimi əks effektlər üzə çıxdı.

doksisilin antibiotikinin maksimal dozasının verilməsini tələb etdi. Həkim dedi ki, bir gün gec olsaydı, buda kömək etməzdi.

İntensiv terapiya şöbəsində Mask əzablı on gün keçirdi.Bu Castın sarsıtdı. ”Axı, o tank kimi sağlamdır, - deyirdi o. - Onda olan möhkəmlik və stress ilə mübarizə aparmaq bacarığını mən başqa heç kimdə görməmişdim. Onu əlacsız görmək – başqa bir dünyaya düşməyə bərabər idi”. Sağalması altı ay çəkdi. O, 45 funt (20kq) çəkidə itirdi, lazımsız geyimlə dolu şkaf qaldı. “Mən ölümə yaxın idim, - deyirdi Mask - və bu mənə dərs oldu mənə məzuniyyətə getmək olmaz. Məzuniyyət məni öldürər”.

# 6. Kosmosda  siçanlar

İlon Maskın 30 yaşı 2001 – ci ilin iyununda tamam oldu və ad günündə  o zərbə aldı. Castin ciddi tonla dedi: “Mən artıq vunderkind deyiləm”. Elə həmin ayda X.com rəsmi şəkildə adının “Pay Pal”-a dəyişdi və Maska artıq onun kompaniyası olmadığını xatırladırdı.Onun sözlərinə görə, startap rejimində yaşamaq ”həyata boylanaraq əzab çəkmək”41 deməkdir. Belə həyat, Silikon vadisiylə birlikdə, artıq bezdirməyə başladı. Mask burda  özünü sərgidəki kimi hiss edirdi, burda hamı yüksək texnologiyalar sahəsində işləyir və daima investisiyaların cəlbi, ilk aksiyaların qoyulması və yüksək mənfəətin alınmasından danışır. Ətrafdakılar uzun iş günlərilə öyünərkən, Castin isə yalnız rişxənd edirdi, çünki bilirdi ki, Maskın həyat stili hətta Silikon vadisinin cəsarətli qaydalarından da ekstremalidi. ”Mənim rəfiqələrimdən kimsə şikayət edirdi ki, ərləri evə saat yeddidə-səkkizdə gəlir.  İlon onbirdə qayıdırdı hələ  əlavə də, işləyirdi.- Onun bu yerə gəlməyi üçün hansı qurbanlar verdiyini hər kəs başa düşmürdü.”- deyir Castin. Sərfəli “siçovul qaçışlarından” uzaqlaşmaq ideyası getdikcə cəlbedici görünürdü. Mask bütün həyatı boyu əhatəsini genişləndirməyə çalışırdı və Palo – Alto onun üçün  pillə idi. Cütlük ailə qurmaq və həyatlarını Lost-Anclesdə davam etmək üçün cənuba getdi. ”Los-Ancelisin parlaq rəngləri, stili, canlılığı, onun təbiətinə uyğun idi -deyir Castin.- İlon hadisələrin mərkəzində olmağı sevir”. Həmçinin eyni hislərlə yaşayan Maskın dostlarının kiçik bir qrupu da Los-Anclessə yerləşdi.

Onu cəlb edən təkcə bu şəhərin möhtəşəmliyi və parlaqlığı deyildi, kosmosda onu özünə çəkirdi. Mask “PayPal”-dan ayrıldıqdan sonra o, kosmik gəmilər və uçuşlar haqqında uşaqlıq fantaziyalarına qayıtdı və özü üçün internet xidməti işindən də vacib, arzularının reallaşmasını düşünməyə başladı.

Onun danışığındakı və düşüncə tərzindəki dəyişiklikləri tez bir zamanda dostları, eləcədə, istirahət günlərində biznes uğurlarını qeyd etmək üçün Last-Veqasa toplaşan, Pay-Pal”-dan olan top-menecerlər kampaniyası da hiss etməyə

[41] Orijinalda Maskın məşhur “eating glass and staring into the abyss” hərfi mənası “şüşə yeyərək uçuruma baxmaq”-  Qeyd red.

başladı. Pay-Pal-ın birinci investerlərindən olan Kevin Hars deyir : ”Biz Hard Rock Cafe-də əylənərkən, İlon raket quruluşuna aid müəmmalı, üzü kiflənmiş sovet dərsliyini oxuyurdu, və kitabi, elə bil, eBay –dan almışdı. O kitabı öyrənir ,açıq şəkildə dünyanı dəyişmək imkanlarını və kosmosa uçuşları müzakirə edirdi.”- deyir Kevin Xarts.

Beləliklə Mask Los – Ancllesi təsadüfü seçməmişdi. Orada o kosmosa və aerokosmik sahəyə yol tapdı. Cənubi Kolliforniyanın ılıq və dəyişməyən havası sayəsində, Los-Ancles 1920-ci ildən Aviasiya şəhəri oldu, və Lockhed Aircraft Kompani Hollivudda emalatxana qurdu. Hovard Hyuz, BBC ABŞ, HACA. Boeing və digər nəhəng təşkilatlar və insanlar bu şəhəri, onun ətraf yerlərini qabaqcıl eksperimentər və istehsal üçün seçmişdilər. Bu gün o biznes eləcədə, hərbi üçün texnika və aviasiya elminin vacib mərkəzi olaraq qalır. Mask hələ hansı kosmik proqramlarla məşğul olacağını dəqiq bilməsədə başa düşürdü ki, Los-Anclesdə olsa o, aerokosmik sənayenin görkəmli simalarının əhatəsində olacaq. Bu insanlar ona istənilən ideyaların reallaşmasına kömək edə bilərlər. Bundan başqa orada həmişə növbəti iş üçün yeni işçilər kifayət qədərdi.

Maskın əlaqə qurduğu aerokosmik sahənin ilk nümayəndələri eklektik Mars cəmiyyətinin42 entuziastları idi. 2001-ci ilin ortalarında onlar Qırmızı planetin öyrənilməsi və tədqiqatı üçün ianə təşkil etdi. Mars cəmiyyətinin zəngin üzvü olan birinin evində təşkil olunan şam yeməyində belə tədbirlərin daimi dəvətliləri hər yeməyə görə 500 dollar ödəməklə cəlb olundular. Kim tərəfindən dəvət olunduğu bilinməyən İlon Maskın cavabı təşkilatın rəhbəri Robert Zubrini heyran etdi: “ O bizə beş min dəyərində çek göndərdi ,-deyirZubrin – və onun bu hərəkəti hamının diqqətini çəkmişdi”. Zubrin Maks haqqında məlumat topladı, onun durumunu öyrəndi və nahardan qabaq kofe içməyə dəvət etdi. ”Mən onun bizim məşğul olduğumuz layihələr haqqında nə bildiyinə əmin olmaq istəyirdim ” – deyə Zubrin izah edir. O görüş zamanı Maska Marsın ağır şərtlərini təqlid edən Arktikadakı tədqiqat mərkəzi haqqında, Transhəyat Missiyası43 eksperimentlərindən söhbət açır və orbitə göndəriləcək siçanlar komandasını yerləşdirəcəkləri fırlanan

[42] The Mars Society(ing)-Red.qeydi
[43] Translife Mission (ing)-Red.qeydi

kapsulanı tanıdırdı. Zubrin Maska belə deyirdi : “Kapsul fırlanmalıdırki, Marsda yerin cazibə quvvəsinin üçdə birini təmin etsin və siçanlar orada rahat yaşayıb arta bilsinlər”. Şam zamanı Zubrin Maskı öz yanında , fəxri qonaqlar üçün olan stol arxasında rejissorla, kosmos entuziastı Ceyms Kemeronla və Marsa dərin maraq göstərən NASA-dan planetşünas-alim Kerol Stokerlə yan-yana yer ayırmışdı. “Bu zaman İlon elə cavan görünürdüki ,lap uşağa oxşayırdı -deyir Stoker,– Kemeron dərhal ona film üçün potensiall investor kimi qulluq etməyə başladı, Zubrin isə ondan Mars cəmiyyətinə böyük bəxşiş almağa çalışırdı”. Mask isə əvəzində mümkün ideyalar və əlaqələrə yol tapırdı. Stokerin əri NASA-da aerokosmik mühəndis idi və su axtarışlarında Mars üzərindən uça biləcək təyyarə konsepti üzərində işləyirdi. Bu Maskın çox xoşuna gəlmişdi. “O digər millionerlərdən daha çox həvəs göstərirdi,- deyir Zubrin. – Maskın kosmos haqqında geniş biliyinin olmamasına baxmayaraq,o alim kimi fikirləşirdi. O bilmək istəyirdi ki, Marsla bağlı konkret nələr etmək planlaşdırılır və bunun hansı əhəmiyyəti olacaq”. Mask Mars cəmiyyətinə böyük rəğbət bəsləyirdi və direktorlar şurasına üzv oldu. Bundan başqa o, səhrada tətqiqat stansiyası yaratmaq üçün daha yüz min dollarından keçməli oldu.

Maskın dostları onun psixiki durumunun qaydasında olmasından şübhələnirdilər. O malyariyadan sonra çox arıqlamışdı və gəzən skeletə oxşayırdı. Hər fürsətdə o, həyatında həqiqətən vacib, ciddi və uzun müddətli olan arzusunu müzakirə etməyə başlayırdı. Onun növbəti seçimi isə günəş enerjisi və kosmos olmalı idi. “O deyir:”Məntiqə görə, günəş enerjisindən istifadə üçün vaxt yetişib amma mən bundan necə gəlir əldə edə biləcəyimi anlamıram”. – investor və Maskın yaxın dostu Corc Zakari bir zamanlar nahar zamanı baş tutmuş söhbət haqqında xatırlayır.-Sonra o, kosmosdan danışanda düşündüm ki, söhbət ofis çərçivəsində “kosmik miqyaslardan” gedir”. Əslində Mask Mars cəmiyyətindən daha cəsarətli fikirlər yürüdürdü. O, bir neçə siçanı Yerin orbitinə göndərmək əvəzinə, onları Marsa göndərmək fikrindəydi. O dövrün kobud hesablamaları göstərdi ki, bu cür səyahət 15 mln dollara başa gələ bilər. Zakari: “ O məndən bunun cəfəngiyat olub olmadığını soruşdu” - Mən dəqiqləşdirmək istədim:

“Siçanları geri qayıdacaqlarmı? Əks halda , insanların çoxu deyəcək ki,bu cəfəngiyatdı. Məlum oldu ki, siçanlar təkcə Marsa uçub geri dönməklə yanaşı, həm də bir neçə aylıq yolda nəsillərini də artırmalıydılar.” Maskın daha bir dostu isə, eBay-da zənginləşən Ceff Skoll kosmosa uçacaq və artacaq siçanlara çoxlu pendir lazım olacağını deyərək, Maska böyük parça Le Bruyer pendiri almışdı.

Pendir mövzusunda zarafatlar Maskı qıcıqlandırırdı. O, kosmos haqqında nə qədər çox fikirləşirdisə, tədqiqatları ona bir o qədər də vacib görünürdü. Ona elə gəlirdi ki, bizim cəmiyyət gələcəyə olan ümidlərini və ambisiyalarını qismən itirib. Ola bilər ki, adi insan kosmosun tədqiqatına gücün və zamanın itkisi kimi baxır və bu mövzuda söhbətləri məsxərə hesab edir, amma Mask planetlərarası səyahətə həqiqətən inanırdı. O, insanları yüksək perspektivli texnologiyalar və yeniliyi öyrənməyə ilhamlandırmaq, və onlarda elmə hədsiz həvəsi qaytarmaq istəyirdi.

Bir dəfə Mask NASA-nın veb-saytına daxil oldu və insanlığın öz sərhədlərini genişləndirmək istəyinin olmaması onun həyacanını bir daha təsdiqlədi. O,əslində, orda Marsın tədqiqatının ətraflı planını axtarırdı, amma bir şey tapmadı.

“Əvvəlcə mən fikirləşdim ki , bəlkə, mən doğru yerə baxmıram?- o “Wired” jurnalına müsahibəsində belə deyib. –Nəyə görə nə plan var, nə də cədvəllər? Heç nə yoxdu. Bu bir ağılsızlıqdır”. Mask əmin idi ki, Amerikanın özünün ideyası məlum olmayan tədqiq etmək kimi insani istəklə sıx bağlıdır. Və kosmosun yeni sərhədlərin tədqiqi NASA agentliyinin missiyasıdı və belə görünürdü ki,NASA ümumiyyətlə Marsı ciddi öyrənməyə çalışmırmış. “ Öncədən təyinat”44 ruhu zəifləyib, bəlkə də, kədərli sonluğa gəlib , bu isə heç kəsi düşündürmürdü.

Amerikan ruhun dirçəldilməsi və insanlığın ümidlərinin canlanmasına çalışan bir çox başqa kompaniyalar kimi, Maskın da yolu otelin konfrans zalından başladı. O artıq kosmos sahəsində yaxşı əlaqələr yaradaraq , ara-sıra onun prespektivli nümayəndələrini Los-Anceles aeroportundakı Ranaissance otelində, bəzən isə, Palo-Alto otelində bir yerə toplayırdı. Hər şeydən əvvəl o iştəyirdi ki, onlar Marsa

[44] Amerikanın missiyasını göstərən ənənəvi termin.

sıçanların göndərilməsi ideyasını yaymağa, ya da ən azından, bu ideya ilə bağlı təkliflər etsinlər. Mask insanlıq üçün böyük jest etməyə ümid bəsləyirdi –elə bir hadisə, olmalıydı ki, bütün dünyanın diqqətini özünə cəlb etsin, və insanları Mars haqqında və insan potensiyalı haqqında fikirləşməyə vadar edəcək. Ehtimala görə, alimlər və tanınmışlar bu görüşlərdə texniki cəhətdən reallaşmasının 20 mln dollara başa gələcək ideya tapacaqlar. Mask Mars cəmiyyətinin direktorlar şurasından çıxıb, "Marsda həyat" 45 adlı şəxsi təşkilat fondunun yaradılmasını bəyan edir.

Bu tədbirlər 2001-ci ildə istedadlar kolleksiyası toplamağa yardım etdi . Oraya,qonşuluqda yerləşən NASA-nın Reaktiv hərəkətlər labaratoriyasından46 alimlər də gəlirdi. Ceyms Kemeron da, özüylə hansısa ulduzu gətirirdi. Bu tədbirlərdə çox sayda universitet diplomlarıyla məşhur Maykl Qriffin də iştirak edirdi – o, mülki inşaat və tətbiqi fizika, elektrotexnika, aviasiya və raket istehsalı sahəsi üzrə təhsi almışdı. Qriffin nə vaxtsa MKİ-nin vencur ivestisiyalarla məşğul olan İn-Q-Tel şöbəsində işləmişdi , sonra isə NASA-da və JPL-də işləyirdi, məhz həmin vaxt o uçan kosmik cihazların və peyklərin istehsalçısı olan Orbital Sciences Corp-dan artıq çıxmışdı. Qriffin orada texniki direktor və kosmik sistemlər qrupunun rəhbəri idi. Qriffinin kosmosa nəyi və necə göndərməyi hamıdan yaxşı bilirdi. Məhz o, Maskı kosmosla bağlı ideyalarla təmin edirdi. (4 ildən sonra, 2005-ci ildə isə Maykl NASA-ya başçılıq etdi). Mütəxəssislər kosmosda maraqlı proyektə sponsorluq etməyə hazır olan növbəti varlının üzə çıxmasından heyrətə gəldilər. Onlar böyük həvəslə gəmiricilərin kosmosda nəsil artırma prosesini müşahidə etməyin maraqlı olacağını müzakirə edirdilər. Amma tədricən müzakirələr səngidi və onun iştirakçıları "Marsda oazis"47 adlı digər layihənin daha maraqlı olacağı qənaətinə gəldilər. Yeni plana əsasən Mask raket almalı və onun içində Marsa robotlaşdırılmış parnik göndərməli idi. Artıq tədqiqatçı qrupu kosmosda bitkilərin yetişdirilməsi üçün kamera hazırlayırdılar. Kameranın quruluşunu bir qədər dəyişmək ideyası ona görə yarandı ki, o qısa

---

[45] Life to Mars Foundation (ing) – red.qeydi
[46] Jet Propulsion laboratory,qisaldilmış JPL (ing)-red.qeydi
[47] Mars Oazis (ing)-red.qeydi.

müddətinə açıla bilsin və Marsın torpaqından, reqolitdən, bir qədər götürmək imkanı olsun. Bu torpaqda böyüdülən bitki isə,Marsa ilk oksigen qazı buraxmalı idi. Xoşbəxtlikdən Maskın planı həm imkanlı, həm də təsiredici idi. O, kameranın pəncərəsinin olmasını və Yerə video göndərməyin mümkün olmasını istəyirdi ki, insanlar bitkinin necə inkişaf etdiyini öz gözləriylə görə bilsin. Hətta bütün ölkə üzrə məktəblilərə belə bitkiləri yetişdirmək üçün dəstlərin göndərilməsi ideyası qrupda müzakirə edildi. Onlar bitkiləri eyni vaxtda əkərək, onların inkişafını müqayisə etməliydilər – məsələn, marsdakı bitkinin yerdəkindən 2 dəfə tez inkişaf etdiyini müşahidə etmək imkanı yaranırdı. Bu konsepsiya bir müddət ,bu və ya digər formada ,havada asılı qalmışdı, - görüşə gələn, kosmik sahənin veteranı Deyv Berden qeyd edir.

Bəli , Marsda həyat var, biz onu ora göndərdik deyə bilərik və beləcə, minlərlə gəncin bu planetə baxışı dəyişəcək ,onlar anlaya biləcəklər ki, bu heç də qorxulu deyil və bəlkə də, belə bir fikir də ağıllarına gələ bilər: “Bəlkə bizim də Marsa getməyimizə dəyər”. Maskın entuziazmı onun həmfikirlərini ilhamlandırdı, onların çoxu kosmosda daha yeni heçnə etmək olmayacaq kimi, istehzalı nəticəyə gəldilər. “Bu çox ağıllı, məqsədyönlü, eqosu yüksək olan insandı. Nə vaxtsa Time jurnalının onu “İlin adamı” adlandıra bilməsi isə, gülünc görünürdü. Mask,isə, məhz özünün dünyanı dəyişməyə qadir olduğuna inanırdı”.